# DİN-DÖVLƏT MÜNASİBƏTLƏRİ

# TEOKRATİYA VƏ LAİSİZM (SEKULYARİZM)

**MÜƏLLİF: İstanbul Universitetinin İlahiyyat fakültəsinin İslam hüququ kafedrasının müdiri, İlahiyyat elmləri üzrə Ph.D.,**

**Prof. ƏBDÜLƏZİZ BAYINDIR**

## ÖN SÖZ

Bu kitab mənim dövlət və şəriət haqqındakı 20 illik fikirlərimi böyük ölçüdə dəyişdirdi. Bu dərdli fikrimi məndən alıb həqiqi hədəfə yönəldən Allaha sonsuz şükürlər olsun! Buna vasitəçi olan kitabın müəllifi prof. Əbdüləziz Bayındır müəllimə təşəkkür edirəm. Kitabın təsiri bizimlə hüdudlu qalmamış, Türkiyədəki bir çox dövlət və din adamlarının, məmurlarının üzərində də böyük müsbət təsiri olmuşdur. Bu kitabda qısa və yığcam cümlələrlə din-dövlət münasibətlərinin əsas düsturları, prinsipləri vurğulanmışdır. Heç bir təsirin və tərəfkeşliyin xəyalına düşmədən Quran və sünnədəki din-dövlət münasibətlərinin əsas məğzi izah edilmiş və bir müsəlman olaraq tutmalı olduğumuz yol və vəzifələrimiz haqqında məlumatlar verilmişdir. Bütün müsəlmanların vəzifəsi yer üzündə Allahın görmək istədiyi ədaləti, yaxşılığı əvvəl fərdi həyatlarında, sonra da digər insanlar üçün təmin və təbliğ etməkdən ibarətdir. Düşüncə tərzinizdən asılı olmayaraq, yazılanları diqqətlə oxuyun, sonra münasibət bildirin. Duyğularınıza qapılıb, mövzunu tam oxuyub dərk etmədən hökm çıxarmayın. “Hökm Allahındır” şüarı ilə çıxış edənlərin çoxu, əsasən, öz hökmləri (mühakimələri, rəyləri) əsasında qərar verənlərdir.

Müəllifin icazəsi ilə, paraqrafların bəzilərinə bir çox əlavələr etməyi uyğun gördüm. Ulduz işarələri ilə başlayıb bitən cümlələr şəxsimə aiddir!

A. Mülayim.

## GİRİŞ

Sahib olduğumuz hər şeyə görə Allaha borcluyuq, heç kim Onun verdiyindən artığına sahib ola bilməz. ***“Göylərdə nə var, yerdə nə varsa hamısı Allahındır.”*** (Bəqərə 2/255) Buna hər bir insan inanır və inandığını bu və ya digər şəkildə ifadə edir.

Bütlərə sitayiş edənlər də buna inanır. Onlar bütlərini Allaha yaxın hesab etdikləri bəzi ruhani varlıqların simvolu olaraq görür və onlara özlərini Allaha daha çox yaxınlaşdırsınlar deyə sitayiş edirlər. Amma bu inanc ağla ziddir. Xəyallara və əfsanələrə əsaslanır. Doğruluğunu sübut edəcək hər hansı məlumat və mənbə mövcud deyil. Bu şirkdir.

Günümüzdə allahsız adlandırılan ateistlər də əslində Allaha inanırlar. Adına istər Təbiət, istərsə Göy Tanrısı, nə deyilirsə deyilsin, bütün məxluqatı yaradan və kainatın tək hakimi olan Allahı inkar etmək mümkün olmadığı üçün allahsız atası xüsusunda özünü tanımazlığa vuran insana bənzəyir. O, çətin vaxtında necə atasını axtarırsa, bu da dara düşən kimi Allaha sığınır. Əslində, belə insanlar Allahın özlərinə hər şey bəxş etməsini, ancaq əmr verməməsini istəyirlər.

Bəziləri də Allahın əmr verməsini qəbul edirlər. Amma onları (Allahın əmrlərini *tərc.*) siniflərə ayırır, bəzilərini münasib görür, bəzilərini isə münasib görmürlər. Onların vəziyyəti eynilə Quranın bəyan etdiyi kimi şeytanın vəziyyətinə bənzəyir. Şeytanın o vəziyyətə gəlməsi Allahın bircə əmrini münasib görməməsi ilə başlamışdır. Halbuki, o da Allaha, axirət gününə və inanılması lazım olan bir çox şeyə inanır.

İman, insanın bütün münasibətlərinə təsir edir. İstər fərdi, istər ictimai həyatda, bir sözlə hər yerdə öz təsirini göstərir. Lakin insan eyni əqidədə qalmaya bilər.

Etiqadı dəyişdi deyə yaşadığı cəmiyyəti tərk edib başqa bir cəmiyyətə üz tuta bilməz. Bu səbəblə hər bir cəmiyyət müxtəlif əqidə sahiblərini qəbul etməyi bacarmalıdır. İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdiyi, bir çox insanın doğulub boya-başa çatdığı cəmiyyətdən ayrılıb başqa yerlərə köç etdiyi çağımızda bizimlə eyni inancı bölüşməyənlərə qarşı tolerantlıq qaçılmazdır. Çünki kəndindən, şəhərindən, vətənindən ayrılıb başqa yerlərə gedənlər əqidələrini də özləri ilə bərabər götürürlər.

Məntiqli düşünən hər bir insan heç kəsi onunla eyni etiqadı bölüşməyə məcbur edə bilməyəcəyini başa düşür. Amma insanların çoxu məntiqli davranmır. Bu səbəbdən də əqidə müxtəlifliyi yüzlərlə problemə yol açır.

Cəmiyyətlərə doğru görüşlərin hakim olması lazımdır. Doğru görüş insanların inanclarına müvafiq həyat tərzi sürməsini təmin edəcəkdir. Təəssüf ki, nüfuzlu və səlahiyyətli insanlar doğruların deyil, gücün hakim olmasını daha önəmli hesab edirlər. Bu da nəticədə zülmə və haqsızlıqlara yol açır.

Doğruların yerinə gücün hakimiyyətini dəstəkləyənlər əslində insanların özlərinə qul olmasını istəmiş olurlar. Onlardan bəziləri bu xüsusda maddi imkanlarından, bəziləri dövlətin verdiyi səlahiyyətlərdən, bəziləri də dindən istifadə edirlər. Bu səbəbdən hüquq və azadlıqlar mövzusu tarix boyunca bəşəriyyətin ən mühüm müzakirə mövzusu olmuşdur. Azadlıq mübarizəsi adı altında meydana atılan neçə-neçə insanların özləri nüfuz və səlahiyyət sahibi olduqdan sonra başqalarının hüquq və azadlıqlarını tanımaması örnəyinə çox rast gəlinən bir faktdır.

İlahi dinlər etiqad üzərində təzyiqi birmənalı olaraq qəbul etmir. Peyğəmbərlər daima bu uğurda mübarizə aparmışlar. Onlar insanı insana qul olmaqdan qurtarmağa və Allahdan başqasına qul olmamaları üçün gərəkli zəmini təmin etməyə çalışmışlar. Bütün peyğəmbərlərin ortaq qayəsi insanların Allahdan başqasına ibadət etməməsidir. "İbadət" sözünün lüğəvi mənası *"qulluq",*

*“əsirlik”,* başqa sözlə *“qeyd-şərtsiz boyun əymək”*dir. Allahdan başqasına ibadət etməmək, Ondan başqa heç kimə qeyd-şərtsiz boyun əyməmək deməkdir. Amma dini bir təzyiq vasitəsi kimi istifadə etməyə çalışanlar labüd olaraq ilk növbədə onu peyğəmbərlərin göstərdiyi istiqamətdən sapdıraraq tanınmaz hala gətirmişdir.

Onlar dini fərdi müstəvidən çıxarıb təşkilati müstəviyə köçürmüş, insanları dinə qəbul etmə və dindən çıxarma tədbirlərini mərasim halına salaraq, əqidələri də öz səlahiyyətlərinin hüdudlarına daxil etmişlər. Digər tərəfdən isə bu ictimai təsisat sayəsində dövlət hakimiyyətini ələ keçirmək və Allahın adından (Onun hakimiyyətini təmsil etmək iddiası ilə *tərc.*) dövləti idarə etmək imkanı qazanmışlar. İqtidarı ilahi hakimiyyət adı altında ələ keçirməklə dövlətin bütün imkanlarından yararlanmış, amma törətdikləri iqtisadi və sosial problemlərə, etdikləri zülm və təzyiqlərə görə Allahı cavabdeh hesab etmişlər. Heç kim Allahı hesaba çəkə bilməyəcəyinə görə, özlərini məsuliyyətdən azad insanlar kimi təqdim etmişlər. Teokratiya məhz budur. Bu xüsusiyyətlərə uyğun bir təşkilatlanma xristian aləmində mövcuddur. Teokratiya dövlətin kilsəyə tabe olması deməkdir. Bu heç bir vəchlə qəbul edilə bilməz. Bu səbəbdən teokratiyaya qarşı aparılan mübarizə haqlı mübarizədir. Laiklik (laisizm) məhz bu mübarizənin adıdır.

Teokratiyaya qarşı üsyanın şüarı olan laiklik ideyasının özü bir müddət sonra inanclara təzyiq vasitəsi halına gətirilmişdir. İnsanları özünə qul etmə hərisliyinə qapılanlar indi ya din, ya da laiklik adı altında hüquq və azadlıqları ortadan qaldırmağa çalışırlar.

Kilsəyə bənzəyən bir dini təşkilatı müsəlman dünyasında meydana gətirmək mümkün olmamışdır. Quranın varlığı buna ən böyük maneədir. Quran din və dövlət münasibətlərinin ideal prinsiplərini təqdim etmişdir. Hissi idrakla davranmayan hər kəs onları qəbul edər.

Bu tədqiqatda biz Quran işığında din və dövlət münasibətlərinin necə tənzimlənməli olduğunu araşdırmışıq. Çünki Quran, Allahın son kitabıdır və heç bir təhrifə məruz qalmadan dövrümüzə qədər gəlib çatmışdır. Daha sonra isə teokratiya və laiklik mövzusunu ələ almışıq. Həmçinin, bu mövzunu da Kitab-i Müqəddəsə və Qurana əsaslanaraq izah etməyə çalışmışıq.

Başlıca məqsədimiz mövzunu təfərrüata varmadan araşdırmaq olmuşdur. İnsanlar üzərində hakim olmaq üçün dindən sui-istifadə edənlərlə, laiklikdən yararlananların çıxılmaz vəziyyətlərini qısa və yığcam şəkildə ortaya qoymağa çalışmışıq.

Bu əsərlə həqiqətləri açıqlamağa çalışırıq. Doğruları hər kəs əksərən bilir, amma onları həyata keçirmək insanların çoxunun mənafelərinə uyğun gəlmir. Bunu yaxşı başa düşürük. Biz insaflı hərəkət edən insanlara faydalı ola bilsək, özümüzü müvəffəq olmuş sayacağıq. Belələrinin sayı da az olur. Çalışmaq bizdən, müvəffəqiyyət Allahdandır.

# BİRİNCİ HİSSƏ

# DİN-DÖVLƏT MÜNASİBƏTLƏRİ

## 1. DÖVLƏTİN DİNİ

1. Dövlət bir təşkilatdır. Təşkilatların dini olmur, insanların dini olur. Dövlət namaz qılmır, oruc tutmur və axirətlə bağlı hər hansı bir qayğısı yoxdur. Dövlət kimi digər təşkilat və quruluşların da dini olmur.

Dövləti və ya bir təşkilatı idarə edənlərin inancları onların idarəetmə fəaliyyətlərində öz əksini tapır. Bu, təbii bir haldır. Müsəlmanların hakimiyyətdə olduğu dövlətə İslam dövləti, xristianların iqtidarda olduğu dövlətə də xristian dövləti deyilməsi bu səbəbdəndir. Təbii olmayan isə idarəedicilərin xalqı onların etiqadını mənimsəməyə məcbur etməsidir. Din dövləti və ya ideoloji dövlət

məhz bu zəmində təşəkkül tapır. Etiqadı güc tətbiq etmək və təzyiq yolu ilə dəyişdirmək mümkün olmadığı üçün belə cəmiyyətlərdə daxili mübahisələr, təzyiq və zülüm (hüquq pozuntusu halları *tərc.*) əsla bitməz.

2. Dinin özəyi imandır. İmanın təməli da qəlb ilə təsdiqdir. Qəlb insanın daxili dünyasındadır. İnsan burada mümkün olduğu qədər azaddır. Heç bir əqidə insana zorla qəbul etdirilə bilməz. Təzyiq mexanizmasından ən çox istifadə edən müstəbid rejimlər belə bunu bacara bilməzlər. Uca Allah bu barədə belə buyurur:

***"Dində məcburiyyət yoxdur; artıq doğru ilə əyri bir-birindən yetərincə ayrılmışdır. Bundan sonra kim zalımları (onların hakimiyyətini) tanımayaraq Allaha inanarsa, qopmayan sağlam bir qulpdan yapışmış olar. Allah (hər şeyi) eşidəndir, biləndir." (Bəqərə 2/256)***

Bu səbəblə müsəlmanlar heç kimi müsəlman olmağa və ya müsəlman kimi davranmağa məcbur edə bilməzlər, əksinə hər kəsə inandığı kimi yaşamaq imkanı verirlər. Beləliklə, bu səbəbdən müsəlmanların dövləti din dövləti, yəni teokratik dövlət ola bilməz[1]. Onlar insanlara Allahı təmsilən, Onun naibi, vəkili olaraq (başqa sözlə ilahi hakimiyyət adı altında) deyil, şəxsi məsuliyyət əsasında rəhbərlik edirlər. Yaxşı rəhbərlik edən Allah dərgahından mükafat qazanacaqdır. Pis rəhbərlik edən də öz məsuliyyətini hiss etməlidir.

3. Türkiyədə din deyərkən İslam başa düşülür. Bu dinin bir peyğəmbəri, bir də kitabı vardır. Müsəlman olmaq istəyən həmin peyğəmbərin və həmin kitabın bəyan etdiklərinə inanır və həyat tərzini həmin göstərişlərə uyğun şəkildə tənzimləyir. Yəni, Qurana riayət edir, onun göstərişlərinə tabe olur.

Bir də Quranı özlərinə uyğunlaşdıranlar vardır. Onlar həm istədikləri kimi yaşamaq, həm də müsəlman sayılmaq istəyirlər. Bu səbəbdən mənafelərinə uyğun gəlməyən, münasib görmədikləri ayə və hədislərin bir qismini qədim

[1] Teokratik dövlət mövzusu bu kitabın ikinci bölümündə incələnmişdir.

dövrlərlə əlaqələndirib onları qüvvədən düşmüş sayırlar, bir qismini də fərqli şəkildə izah edirlər.

Quranı özünə uyğunlaşdırmağa çalışmağın doğru olmadığını onlar da bildiyi üçün özlərini arxayınlaşdırmaq məqsədilə dəstəkçilər axtarırlar. Özlərinə yaxın hesab etdikləri şəxsləri önə çıxarır, digərlərini isə diqqət mərkəzindən uzaqda tutmağa çalışırlar. Dövləti, yaxud hər hansı bir təşkilat və ya quruluşu təmsil etdiklərini iddia edərək güclü görünmək istəyirlər. Bu səhv istiqamətdir. Çünki din mövzusunda kim danışırsa danışsın, şəxsi mövqeyini ifadə etmiş olur.

Din dövləti ifadəsi doğru olmadığı kimi, dinsiz dövlət ifadəsi də doğru deyildir. Dindarlıq və ya dinsizlik sadəcə fərdlərlə bağlı bir anlayışdır. Bu səbəblə heç kim din mövzusunda dövlətə aid bir təşkilat və ya qurumun adından danışa bilməz. Çünki bu təşkilat və qurumlar eyni inanca mənsub insanlardan təşkil olunmuş bir dini cəmiyyət deyildir. Hər hansı bir dini mövzuda həmin qurumların adından (onları təmsil etmək iddiası ilə *tərc.*) danışan şəxs öz inancını, rəyini o qurumlarda fəaliyyət göstərən bütün şəxslərin inancı, rəyi kimi göstərmiş olur ki, buna da heç kimin haqqı yoxdur.

Dinlə bağlı hər bir müsəlmanı əlaqədar edən şeylər Quran ayələri, səhih (doğru) hədislər və icma ilə müəyyən edilmiş şeylərdir. İcma eyni dövrdə yaşayan İslam alimlərinin hamısının dinlə əlaqədar bir mövzuda yekdil mövqeyə gəlməsidir.

4. Din azadlığının təminatçısı Qurandır. Uca Allah bu barədə buyurur:

***“Rəbbin istəsəydi, yer üzərində olanların hamısı inanardı. Elə isə, insanları inanmağa sənmi məcbur edəcəksən?” (Yunus 10/99)***

İnsanın xarici aləmi də daxili kimi azad olmalıdır. Məhz o zaman həqiqi şəxsiyyət qazanmış olar.

5. Dövlətin vətəndaşı ilə münasibətləri dini və ya ideoloji müstəvidə deyil, ədalət müstəvisində tənzimlənməlidir. Dövlətin əsas vəzifəsi ədalətin bərpası,

daxili və xarici təhlükəsizliyin təmin edilməsi, vətəndaşların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə mane olan səbəbləri ortadan qaldırmaqdır.

Dövlətin təzyiqi ilə iman gətirmiş görünənlər orqanizmin daxilinə qəbul etdiyi mikroba bənzəyir, güclənər-güclənməz xəstəlik törədirlər.

İnanclarına təzyiq edilməyənlər isə vücuda vurulmuş peyvənd kimi ölkəni qoruma vəzifəsini öz üzərlərinə götürürlər. Osmanlı dövlətindəki dini azlıqların özlərini dini azlıq deyil, dövlətin şərəfli bir vətəndaşı sayması çox mühüm bir məsələ idi.

Dövlət günəş kimi olmalıdır. Günəş necə müsəlman, xristian, yəhudi, zəngin, yoxsul arasında fərq qoymadan, dini, etnik, irqi, sosial və s. Diskriminasiyaya yol vermədən hər kəsə eyni məsafədə durursa, dövlət də vətəndaşlarına qarşı həmişə eyni məsafədə durmalıdır.

## 2-LAİSİZM

6. Laisizm[2] Fransada meydana gəlmişdir. Fransız dilində dini quruluşların hakimiyyətindən asılı olmayan təşkilata laik (laic və ya laique) qurum deyilir.[3] Bu ölkədə dini quruluş deyərkən Katolik kilsəsi başa düşülür. Laisizm mübarizəsi xristianlığa qarşı deyil, kilsəyə qarşı aparılmışdır.

7. Kilsə ilahi hakimiyyət adı altında hərəkət etdiyini irəli sürərək kralın, hökümətlərin tərkibinin və əyalətlərin icra hakimiyyəti başçılarının seçilməsi və vəzifəyə təyin edilməsi ilə əlaqədar səlahiyyətlərə malik olduğunu iddia edir[4].

---

![2] Burada "Laiqlik"dedikdə, sizin eşitdiyiniz və gördüyünüz şəkliylə və ya Türkiyədə pratik yönüylə tətbiq edilən laiqlik qəsd edilmir. Türkiyədə laiqlərin Atatürk ilkələri (əsasları) adıyla yeritmək istədikləri, elə teokratiyanın bir tərzidir. Mən teorikdəki laiqlikdən, insanları dini və ideoloji təzyiqlərdən xilas edib, sərbəst buraxan bir təşkilatdan bəhs edirəm. Fransada laiqlik dinə yəni xristianlığa qarşı deyil, kilisə hakimiyyətinin təzyiqinə qarşı ortaya çıxmışdır. Çox təəssüf ki, Türkiyədə bu məfhum istismar edilərək, dinə qarşı bir mübarizə tərzində əks etdirilmişdir.
Kimsə də bizim laiqliyi mənimsədiyimizi düşünməsin. Məqsədimiz sadəcə həqiqətdə bir şeyin nə olduğunu, insanların bu məfhumları istismar edərək parçalanmamalarını saxlamaqdır. Niyyətimiz hər kəsin inanc və düşüncələrində sərbəst olduğunu, fərqli düşünə biləcəyini və buna baxmayaraq bir arada yaşamaları lazım olduğunu bildirməkdən ibarətdir.

[3] Böyük Larousse Ensiklopediyası, "Laic" başlıqlı məqalə.

[4] Tümer, Küçük, e.q.ə. s.256.

Dövrümüzdə seçki üsulu ilə dövlət hakimiyyətində yer alan dövlət, hökümət başçısı və ya dövlət məmurlarına vəzifə icrasına başlayarkən and içdirməklə bu səlahiyyətlərini az da olsa sürdürməkdədir. Fransa tarixi kilsəyə qarşı aparılmış mübarizələrlə zəngindir. Kilsənin dövlət üzərindəki hakimiyyətini aradan qaldırmaq cəhdləri XIV əsrdə başlamışdır.[5]

8. Laisizm mübarizəsinin dinə qarşı aparılmadığının ən bariz sübutu Fransada Müəssislər Məclisinin üzvləri tərəfindən hazırlanan və Avqust 1789-cu ilin avqust ayında qəbul edilən İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin 10 və 11-ci maddələridir. Sözügedən maddələrdə deyilir:

***Maddə 10.*** *Heç kim baxışlarına, hətta dini baxışlarına görə belə təzyiqə məruz qalmamalıdır, bu şərtlə ki, onların ifadə edilməsi qanunla bərqərar edilmiş ictimai asayişi pozmasın.*

***Maddə 11.*** *Fikir və mövqelərin azad şəkildə ifadəsi insanın ən dəyərli hüquqlarından biridir; hər bir vətəndaş öz fikirlərini azad şəkildə ifadə edə, yaza və dərc etdirə bilər; bu azadlıqdan sui-istifadə edilməsinə görə ancaq qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyır.*

9. Bu bəyannamə 1791-ci ildə qəbul edilən Fransa Konstitusiyasının Giriş hissəsini təşkil etmişdi.[6] Sözügedən konstitusiya katolik kilsənin imtiyazlarına son qoymağı, protestant, yəhudi və ya dini mənsubiyyəti olmayan vətəndaşların hüquq bərabərliyinin bərpasını, xüsusilə din və vicdan azadlığı ilə əlaqədar istənilən növ dini görüşə bərabərhüquqlu yanaşmanı qarşısına məqsəd qoymuşdu[7]. Çünki əks təqdirdə kilsə bir başqa din mənsubuna yaşamaq hüququ tanımazdı.

---

[5] Böyük Larousse Ensiklopediyası, "Laic" başlıqlı məqalə.
[6] Böyük Larousse Ensiklopediyası, "Laic" başlıqlı məqalə.
[7] GRIC (Groupe de Rechercehes İslamo-Chretien = İslam-Xristiyan Araşdırmaları birliyi), Din və Dövlət, İslamochristana, 12, Roma, 1986, s. 49-72. Tərcümə M.Səid Xətiboğlu, İslami araşdırmalar jurnalı, c. III, 3-cü say, Ankara, 1989, s. 102.

Bəyannamənin preambulasında (giriş hissəsində) insan hüquq və azadlıqlarının əhəmiyyəti aşağıdakı şəkildə ifadə olunur:

*“Fransız xalqının nümayəndələri Milli Assambleya yaradaraq və nadanlığın, insan hüquqlarının unudulmasının və ya onlara biganəliyin ictimai bəlaların və hökumətlərin əxlaqsızlaşmasının yeganə səbəbi olduğuna əsaslanaraq, insanın təbii, əvəzedilməz və müqəddəs hüquqlarını təntənəli bir Bəyannamə ilə açıqlamağı qərara aldılar...”*

10. Bəyannamədə azadlığın tərifi verilmiş və qanun ilə lüzumundan çox məhdudlaşdırılmaması üçün ayrıca maddə də daxil edilmişdir. Əlaqədar maddələr belədir:

***Maddə 4.*** *Azadlıq başqasına zərər verməyən hər şeyi etmək imkanından ibarətdir. Beləliklə, hər bir insanın təbii hüquqlarının həyata keçirilməsi yalnız cəmiyyətin digər üzvlərinin uyğun hüquqlardan istifadəsini təmin edən hədlərlə məhdudlaşır. Bu hədlər yalnız qanunla müəyyənləşdirilə bilər.*

***Maddə 5.*** *Qanun yalnız cəmiyyətə zərərli olan hərəkətləri qadağan edə bilər. Qanunla qadağan olunmayan hər şeyə icazə verilir və heç kəsi qanunla nəzərdə tutulmayan bir işi görməyə məcbur etmək olmaz.*

11. Türkiyə qanunvericiliyində qüvvədə olan rəsmi sənədlərə görə də laisizm dinə qarşı deyildir. Konstitusiyanın 2-ci maddəsində deyilir:

*“Türkiyə Respublikası cəmiyyətin rahatlığı, milli həmrəylik və ədalət anlayışına əsaslanan, insan hüquqlarına hörmət bəsləyən, Atatürk millətçiliyinə bağlı olan, başlanğıc hissəsində şərh edilmiş əsas prinsiplərə söykənən, demokratik, laik (düyəvi) və sosial hüquqi dövlətdir”.*

12. Beləliklə, laisizm Türkiyə dövlətinin bir xüsusiyyətidir.[8] Dövlətin bir başqa xüsusiyyəti də insan haqlarına hörmətlə yanaşmasıdır.

Konstitusiyanın 24-cü maddəsi hər bir vətəndaşın vicdan, dini etiqad və əqidə azadlığına malik olduğunu təsdiqləyir. Başqa sözlə, Konstitusiya laisizmin dövlətin bir xüsusiyyəti olduğunu, vətəndaşın isə dindar olmaq hüququnu qəbul etmişdir.

13. Konstitusiyanın 26-cı maddəsi də fikri açıqlamaq və yaymaq azadlığını təsdiq edir. Sözügedən maddənin ilk cümləsi belədir:

*"Hər kəs fikir və əqidəsini söz, yazı, rəsm vasitəsilə və ya başqa yollarla təkbaşına və ya başqaları ilə birlikdə açıqlamaq və yaymaq hüququna malikdir..."*

Konstitusiyanın belə olması təbiidir. İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin 16-cı maddəsində də deyilir:

*"Hüquqların təminatının mövcud olmadığı və hakimiyyətin bölüşdürülmədiyi cəmiyyətdə Konstitusiya yoxdur".*

14. 1948-ci ildə BMT Baş Məclisi tərəfindən qəbul edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi də düşüncə, vicdan və din azadlıqlarını təsdiqləmişdir. Bəyannamənin müvafiq maddəsi dini nə sosial, nə ictimai, nə də bir başqa həyat sahəsindən təcrid etmir. Bu, ümumiyyətlə, ağlasığmazdır. Dindar insan dininin tələbini bir kənara qoyaraq başqa insanların tələblərini icra edə bilməz. İcra etmək məcburiyyətində qalsa da, buna ya gizli, ya da açıq şəkildə qarşı çıxar. Bu da öz növbəsində İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin giriş bölümündə bildirildiyi kimi "…ictimai bəlalara və hakimiyyətlərin

[8] Azərbaycan da laik (dünyəvi) bir dövlət olduğu üçün bu keyfiyyətləri pratikdə həyata keçirməsi ölkəmiz və vətəndaşları üçün zəruridir. İnsanlara dininin tələb etdiyi qaydalara maneə törətmək, təzyiq göstərmək nə dövlətin hüzur və mənafeyinə nə də birlik və tərəqqisinə fayda saxlamaz. Əksinə zərər verir.

korlanmasına...” səbəb olur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 18-ci maddəsi belədir:

*“Hər kəs düşüncə, vicdan və din azadlığına malikdir; buna hər kəs üçün tək başına, yaxud başqaları ilə birlikdə, istər ictimai, istərsə fərdi qaydada təhsil, tədbir, ibadət, ya da dini mükəlləfiyyətləri həyata keçirərək dinini, yaxud əqidəsini ifadə etmək azadlığı da daxildir”.*[9]

15. Türkiyə Konstitusiyasının Başlanğıcında da “...laiklik prinsipinin tələb etdiyi kimi, müqəddəs dini duyğuların Dövlət işlərinə və siyasətə qətiyyən qarışdırıla bilməyəcəyi...” ifadəsinə yer verilmişdir. Demək ki, vətəndaşlara xidmətdə dini inanclarına görə fərq qoyula bilməz.

16. Bu İslamda onsuz da vardır. Bu mövzuda nöqsanı olmayan bir dinin mənsubuyuq. Dinimiz insanlarla münasibətdə onların əqidələrindən qaynaqlanan bir diskriminasiyaya icazə vermir.

17. Bütün bunlar onu göstərir ki, laisizm dinə qarşı deyil, dövlətin dini təşkilatların hakimiyyəti altında olmasına qarşıdır.

İslamda dövləti hakimiyyəti altına alacaq bir dini təşkilat yoxdur. Fransada kilsəyə qarşı aparılan laisizm mücadiləsi bir neçə əsr sürmüş və çox qanlı hadisələr meydana gəlmişdir. Ancaq Türkiyə Cümhuriyyəti laisizmi qəbul edərkən heç bir dini quruluşun etirazı ilə üzləşməmişdir. Çünki İslamda həm dövləti hakimiyyəti altına alacaq bir dini təşkilat yoxdur, həm də laisizm üçün qeyd edilən təriflərin İslama zidd bir yönü yoxdur.

Əlavə olaraq İslamda rahiblər sinifi də yoxdur. Heç kim bu dindən, insanlar üzərində nüfuz, mənfəət əldə etmək vasitəsi kimi istifadə edə bilməz. Məscidlər də kilsə təşkilatı kimi deyildir.[10]

---

[9] Böyük Larousse Ansiklopediyası, insan maddəsi.İst. 1986.

[10] Şeyxulislamlığı bir dini təşkilat sayanlar ola bilir. Şeyxulislamlıq kilisə kimi bir dini hal deyildir. Bunun Qurana vəya sünnəyə dayandırılan bir tərəfi yoxdur. O, ehtiyac duyulduğu üçün ortaya çıxarılmış olan elmi və

İslam inanclara təzyiq göstərilməsini qəbul etmir. Bir kimsənin müsəlman olması tamamilə öz qərarına bağlıdır. Bunun üçün bir dini quruluşun təsdiq etməsi ilə bağlı şərt yoxdur. Vəftizə bənzər bir mərasimin təşkil edilməsinə də ehtiyac yoxdur. Çünki  nə din adamı, nə də bir başqa şəxs, Allah adına hərəkət edə bilməz. Allah müsəlman olmağı elə bir prinsipə əsaslandırmışdır ki, buna heç kim qarışa bilməz. Çünki dinin kökü imandır. İmanın əsası da ürəkdən qəbul etmək, yəni qəlb ilə təsdiqdir. Qəlbdəki təsdiqi bir o şəxs, bir də Allah bilir. Bura insanın ən azad olduğu yerdir. Bu səbəblə heç kimsə bir inancı qəbul etməyə vəya inkara məcbur edilə bilməz.

18. Kilsəyə bənzər bir təşkilatı olmayan, din adamlarını bir ruhani lider deyil, sadəcə din mövzusunda cəmiyyəti maariflǝndirən və onlara nümunə olmağa çalışan və qapısını teokratiyaya tamamilə bağlamış olan bir dinin yayıldığı yerdə laisizm nəyi ifadə edə bilər?!

Elə problem də tam bu nöqtədə doğmaqdadır. Burada laisizmi İslamın alternativi sayan və onu dinə qarşı imiş kimi qəbul edənlər ortaya çıxmaqdadır.

19. Müsəlmanların yaşadığı ölkələrdə az sayılmayacaq qədər ateist,[11] yəni heç bir dini qəbul etməyən insanlar vardır. Bir çoxları da dinə kənardan baxırlar;

---

hüquqi bir təşkilatdır. Şeyxülislam siyasi bir nüfuza sahib idi. Vəzifəyə gəlməsi və vəzifədən ayrılması siyasi aftoritetin əmri ilə olurdu. Nəticədə bir qanunla bu məqam ortadan qaldırılmışdır. Amma dövlətlər yüz dəfələrlə qanun çıxarsa kilisənin varlığını ortadan qaldıra bilməzlər.

[11] Ateizm, tanrı tanımamaq mənasına gəlir. Adına istəyir təbiət, istəyir Göy Tanrısı nə istəyir deyilsin, bütün varlıqları yaradan və kainatın tək hakimi olan Allahı inkar etmək mümkün olmadğından tanrıtanımayan, atasını tanımayan insana bənzəyir. O ən çətin zamanında necə atasını axtarırsa tanrı tanımaz da möhkəm dara düşəndə Allaha sığınır. Əslində bunlar hər şeyi verən amma özlərinə əmr verməyən bir Allah istəyirlər.

Bəzi kimsələrdə Allaha inandıqlarını açıq şəkildə deyirlər və ateizmi rədd edərlər. Amma Allahın və peyğəmbərin əmrlərini, öz anlayışlarına görə siniflərə ayırır, bir qismini qəbul edər, bir qismini də rədd edərlər. Bunların vəziyyəti, Quranda yer alan şeytanın vəziyyətinə bənzəyir. Şeytanı o hala gətirən Allahın bir tək əmrini bəyənməməsidir. Yoxsa o Allaha,  axirət gününə və inanması lazım olan bir çox şeyə inanır. Quranda bunu açıq tərzdə ifadə edən ayələr vardır. Ahzab surəsinin 36-cı ayəsi belədir:

“ Allah və Rəsulu bir işdə hökүm verincə inanmış heç bir kişi və qadın o işlə əlaqəli davranışlarında sərbəst ola bilməzlər.”

Müsəlman bu ayəyə uyğun tərzdə davranır.

ondan bəyəndiklərini alır, bəyənmədiklərini də kənara atırlar. Xalqın əksəriyyəti bu mövqedədir. Türkiyədəki ateistlər din ilə əlaqədar hər bir mənzərəni laisizmə zidd saydıqları halda dinə kənardan baxanlar yəni dindən istədiyini alanlar da özlərinin xoşlamadıqları dini görüntüləri laisizmə zidd sayıb ortadan qaldırmağa çalışırlar. Onlar laisizmi bir təşkilatın hakimiyyətinə qarşı mübarizə amalı çərçivəsində çıxararaq, birbaşa dinə qarşı mübarizəyə çevirmişlər. Onlara görə Allahın sosial və ictimai sahələrlə əlaqədar əmrləri dövrümüzdə icra edilə bilməz. O sahədə səlahiyyətli olanlar özləridir. Bunu çoxu açıq şəkildə ifadə etmir, amma söz, davranış və hərəkətlərinə başqa bir məna da verilə bilməz. Belələrinin qərar və hərəkətləri insanların şəxsi həyatları ilə əlaqədar olsa belə dinə zidd olduğu əsas götürülərək həmin qərar və hərəkətlərə qarşı çıxılmasını əsla qəbul etməzlər. Onların görüşlərinə zidd olan dini əmr və tədbirlər ya dəyişdirilməli, ya da qüvvədən düşürülməlidir. Onların hörmət qoyduqları din, öz düşüncələrinə uyğun gələn dindir. İslam dini ilə bağlı qərar qəbul etmək səlahiyyətinin Quran, sünnət və din alimlərinə deyil, onların özlərinə məxsus olduğunu düşünürlər. Yəni insanlar ancaq onların icazə verdikləri çərçivədə dindar ola bilərlər.

20. Vicdanlara sıxışdırılmaq istənilən din İslam dini olduqda ona qarşı mübarizə çox çətin olur. Çünki İslama qarşı çıxmaq hər şeydən əvvəl üniversal dəyərlərə, fitrətə qarşı çıxmaqdır. Çünki İslamın istədiyi şeylər insan təbiəti və sosial həyatla yəni bütün üniversal dəyərlərlə tam bir uyğunlaşma şəklindədir. Çünki bu din o dəyərləri qoyan Allahın dinidir. Quranda belə buyurulur:

***“Sən üzünü tam doğru bu dinə, Allahın fitrətinə (yaratma qanununa) tərəf çevir. O insanları ona görə yaratmışdır. Allahın yaratdığının yerini tuta biləcək bir şey yoxdur. Sağlam din məhz bu dindir. Ancaq insanların çoxu bunu bilməzlər”. (Rum 30/30)***

21. Bu səbəblə onlara laiqliyin nə olduğundan, insan haqlarından, konstitusiya və qanunlarla tanınmış haqlardan və üniversal dəyərlərdən bəhs etdiyiniz vaxt,

ölkənin xüsusi şərtlərini irəli sürərək qəbul etməzlər. Laiqlik dövlətə aid bir xüsusiyyət olduğu halda onu özlərinə aid bir xüsusiyyət olaraq görür və " Mən laiqəm, sən laiq deyilsən," kimi ifadələr işlədirlər. İnsanları da " laiq olanlar və olmayanlar" deyə ikiyə bölərlər. Bunlar öz vicdanlarına qarşı da rahat deyillər. Vicdanlarını rahatlatmaq üçün bəzən elədiklərinin doğru olmadığını qəbul edənlər də olur. Elə bütün hüzursuzluqların kökündə bu xətalı düşüncə və davranış vardır. Bunlarla ediləcək ən təsirli mübarizə, bezmədən, yorulmadan doğruları çatdırmaqdır. Çünki üniversal dəyərlərə qarşı mübarizə tam başından məğlub edilmiş mübarizədir. Əgər o dəyərlərin səmimi müdafiəçiləri varsa onlar qısa zamanda müvəffəqiyyət əldə edərlər.

### 3) QURANA UYĞUN MÜSƏLMANLIQ

22. İslam Allahın dini, Həzrət Məhəmməd - Ona dua və salam olsun! - isə Allahın son elçisidir. Qurani-kərim, həm Həzrət Məhəmmədin Allahın elçisi olduğunun sübutu, həm də Allahın insanlardan nə istədiyini açıq şəkildə bəyan edən və etibarlı yollarla bizə gəlib çatan ilahi kitabdır. Bu səbəbdən Quranı yaxşı başa düşmək lazımdır.

Allah Təala belə buyurur:

***"Onlar Quran üzərində düşünməzlərmi? Yoxsa qəlblər üzərində kilidlərmi vardır?"(Muhamməd 47/24)***
***"And olsun ki, biz Quranı üzərində düşünülsün deyə belə asanlaşdırdıq. Amma heç bir düşünən varmı?" (Qəmər 54/17, 22, 32 və 40)***

23. Müsəlmanlar Quran haqqında düşünməyi əsrlər boyu unutdular. Quran üzərində dərindən düşünməyin əhəmiyyəti unudulduqda isə o, əlçatmaz, müqəddəs bir kitab sayıldı və bizim üçün anlaşılmaz olduğuna dair bir düşüncə formalaşdı. Sonra keçmişdəkilərin hər şeyi həll etdiyinə dair fikir müdafiə edildi və yeniliklərə qapılar bağlandı. Nəhayət, Quran ancaq savab qazanmaq üçün oxunan bir kitaba çevrildi.

Allah Təala belə buyurur:

“Bu Quran, həqiqətən, ən doğruya (ən sağlama) yönəldir”. (İsra 17/9)

Quran həqiqətən ən doğru və ən sağlam olan düşüncə və davranışlara yönəldir. Lakin o, başa düşmək üçün deyil, ancaq savab olsun deyə oxunursa, onunla bir şeyə nail olmaq olmaz. Bu, eynilə keyfiyyətli bir balın sadəcə görünüşü və xoş iyi ilə kifayətlənməyə bənzəyir. Yeyilməyən balın bədənə nə faydası ola bilər?! Müsəlmanlar əsrlər boyunca məhz belə davranmış və Quran ilə yetərincə qidalanmamışlar. Ənənəvi adət qəlibləri ilə xürafatlar bir-birinə qarışmış, insanların mənəviyyatı mövhümatlarla əhatə olunmuşdur. Amma artıq Quranı başa düşmək üçün oxuyanlar və onun üstündə ağıl yoranlar vardır. Onlar özlərinə və cəmiyyətə tənqidi yanaşırlar. Bu yanaşma bir növ keçmişlə də hesablaşmaq deməkdir.

Allah Təala belə buyurur:
***“İman gətirənlər üçün Allahı könüldən xatırlama və Onun tərəfindən nazil olan həqiqətə qəlbən bağlanmaq vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr (yəhudilər və xristianlar) kimi olmasınlar. Onlarla (öz peyğəmbərləri arasında) uzun bir müddət keçmiş və qəlbləri sərtləşmişdir. Onların çoxu (Allaha asi olan) fasiqlərdir!” (Hədid 57/16)***
24. Türkiyədə özünü müsəlman saymayan az insan vardır. Özünü müsəlman sayanlar iki qrupdur. Birinci qrup özünü etiqad müstəvisində müsəlman sayanlardır. Onların arasında oruc tutan, qurban kəsən, bayram namazı qılan və cümə günü cümə namazına gedənlər vardır. Onların çoxu Qərb mədəniyyətini mənimsəməyə çalışanlardır.

Digər bir qrupu isə dinin göstəişlərini yerinə yetirmək arzusu və qətiyyətində olanlar təşkil edir. Onları şərti olaraq “dindarlar” adlandıracağıq.

Qərb pərəstişkarları dindarları irticaçı və fundamentalist hesab edir, dindarlar isə onları dindən uzaq qalmaqda ittiham edirlər.

25. Son illər ərzində göstərilən səylər hər iki cərəyanın tərəfdarı olan insanları Quranın ətrafında toplamışdır. Qurana yönələn qərb pərəstişkarları dindarlardan bir qisminin yaşadığı dinin xurafatlarla dolu olduğunu dərk etmiş və belə bir din anlayışı və ona uyğun davranışlardan uzaq olduqları üçün özlərini şanslı saymışlar. Bu vəziyyət sözügedən dindarları da dərindən sarsmışdır. Bu sarsılma qarşısında onlar da özlərini müdafiə etmək üçün Qurana yönəldikdə həmin tənqidlərin bir çoxunun doğru olduğunu görmüşlər. Bu yönəlmə xurafatlara aludə olub-olmamasından asılı olmayaraq bütün dindarlar və eləcə də Qərb pərəstişkarları üzərində dərin iz buraxmışdır. Artıq hər iki qrupun mənsubları Quranın ətrafında birləşmək ideyasına yaxınlaşmışdır.

26. Bu sarsılma bəzi şəxslərin özlərini tamamilə dindən uzaq insanlar kimi görməsinə səbəb olmuşdur. Allahın kitabına yönəlmənin mövcud olduğu hər yerdə bu prosesin gerçəkləşməsi labüddür. Uca Allah bu xüsusda buyurur:

***"Onlara bu işdə (din işində) aydın dəlillər verdik.***
***" Kitab əhlindən və müşriklərdən olan inkar edənlər onlara açıq-aydın dəlil gələnə qədər (küfrlərindən) əl çəkmirlər. Bu (dəlil) pak səhifələri oxuyan Allahın göndərdiyi Elçidir.***
***Onlarda tam doğru hökümlər vardır.***
***Özlərinə kitab verilənlərin parça-parça bölünmələri, ancaq bu açıq sənədin (Quranın) onlara gəlməsindən sonra baş verdi". (Bəyyinə 98/1-4)***

***De ki: " Doğru gəldi, əyri yox oldu. Çünki əyri həmişə yox olmuşdur.***

***İnananları qoruyan və yaxşılaşdıran nə varsa, biz Quran ilə onu endiririk. Amma bu zalımların ancaq qəddarlığını artırır". (İsra 17/81-82)***

27. Qurana yönəlmənin güclü olduğu hər yerdə dağılan qruplar əllərindəkini itirməmək üçün hərəkətə keçirlər. Duyğular əsasında davrandıqları üçün tozu dumana qatırlar. Onlara heç bir şey başa sala bilməzsiniz. Onlara qarşı səbirli olmaq lazımdır. Allah Təala bu mövzuda belə buyurur:

***“Sizdə bir xeyir görülsə bu onları rahatsız edər. Başınıza bir pislik gəldikdə isə ona sevinərlər. Əgər səbirli olsanız və qorunsanız, onların qurduqları hiylə sizə bir zərər verməz. Çünki onlar nə etsələr Allah onu əhatə etmişdir”. (Al-i İmran 3/120)***

Bu sarsılmalar faydalıdır. Belə hadisələr sayəsində bəzi insanlar Allah dərgahında mükafat qazanır, bəzilərinin isə gerçək siması ortaya çıxır. Nəticədə sağlam bir din anlayışı əldə etmək mümkün olur.

28. Qurana yönəlmə bir təxəyyül, ya da bir dəb deyildir, ümumbəşərilik və sabitlik kimi cəhətləri özündə ehtiva edən ciddi bir işdir. Qurana yönəlmə şüarı ilə meydana çıxanlardan bəziləri həyatlarını Quranla uzlaşdırmaq yerinə Quranı özlərinə uyğunlaşdırmağa cəhd edirlər. Onlar başqalarını tənqid edərkən özlərinin nə vəziyyətə düşdüklərindən tamamilə xəbərsizdirlər. Bu səbəblə Qurana yönələn hər kəs özünü bu baxımdan tez-tez sorğu-suala çəkməlidir. Uca Allah belə buyurur:

***“Allahın ipinə birlikdə möhkəm sarılın və ayrılmayın”. (Ali-İmran 3/103)***

***“Ey inananlar! Allaha boyun əyin, elçisinə itaət edin, sizdən olan əmirlərə də. Bir mövzu üstündə mübahisə edincə, əgər Allaha və axirət gününə inanırsızsa onu Allaha və Rəsuluna götürün. Bu həm daha xeyirlidir, həm də nəticə etibarı ilə daha yaxşı olur.” (Nisa4/59)***

***“ Onların arasında Allahın nazil etdiyi Kitabla hökm et. Diqqət et, onların həvəslərinə uyma. Onlardan uzaqlaş ki, Allahın sənə nazil etdiyinin bir qismindən səni çaşdırmasınlar. Əgər üz çevirirlərsə bil ki, Allah bir çox günahlarına qarşılıq başlarına bir pislik gəlməsini istəyir. Əslində insanlardan çoxu həqiqətən yoldan çıxmışdır.***

***“Onlar Cahiliyyət dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?!” (Maidə 5/49-50)***

## 4 - TƏRİQƏTLƏR

29. Hər bir insan rahatlıqla qatıla biləcəyi ünsiyyət və dostluq mühiti axtarır. Peyğəmbərlər belə bir mühiti təşkil etmişdilər. Onlarla cəmiyyətin istənilən təbəqəsindən olan insan rahatlıqla və heç bir maneə ilə üzləşmədən ünsiyyət qura bilmiş, söhbətlərinə qatıla bilmişdir. Məsələn, Rəsulullah (s.a.v.) Mədinədəki məscidinin qapısını qadın-kişi, qoca-cavan, alim-cahil, müsəlman-kafir və yerli-yad fərqi qoymadan hər kəsin üzünə açmışdı. Hamı oraya rahatlıqla girir və söhbətə qatılırdı. Söhbət Quran ətrafında olduğu üçün hər kəs öz bilik və qabiliyyətinə görə ondan bir şey əxz edirdi. Bu məclislərdə iştirak etmək üçün ödənilməsi nəzərdə tutulan bir rüsum, başqa sözlə üzvlük haqqı da yox idi.

30. Namazda oxuduğu Quranın mənasını bilməyən insanın namazı olur. Çünki o, bu mövzuda ona verilən əmri yerinə yetirir. Həmin göstərişdə oxuduğu Quranı başa düşmək şərti yoxdur. Amma Quranı başa düşmək ən mühüm məqsədlərdən olduğu üçün namazda oxunuşu da onu daha asan başa düşəcək tərzdə olur. “Məbsut”[12]da bunu izah edən ifadələri diqqətlə incələyək:

“Həzrət Peyğəmbər (Ona dua və salam olsun!) belə demişdir: “Kim namazını imamın arxasında qılarsa, imamın qiraəti onun qiraəti sayılır”. O, məşhur bir hədisində də belə deyirdi: “İmam təkbir aldıqda siz də alın, imam (Quran) oxuduqda isə siz susun”. Namazını imamla birgə (camaat şəklində) qılan insanın imamın arxasında qiraəti ilə bağlı qadağa hökmü böyük sahabələrdən 80 nəfəri tərəfindən rəvayət edilmişdir. Onların adları hədisşünaslar tərəfindən toplanmışdır. Sad b. Əbu Vəqqas deyirdi: “Kim imamın arxasında qiraət edərsə

[12] Şəmsuddin əs-Sərəxsinin “Məbsut” adındakı bu əsəri Hənəfi fıkhının əsas mənbələrindən biri hesab edilir.

(Quran surə və ayələrini özü də oxuyarsa) namazı pozulur”. Bu rəvayətin mənası belədir: Quran qiraətində əsl məqsəd onu oxumaq deyil, başa düşmək, üzərində fikirləşmək və ona görə davranmaqdır. İbn Məsud deyirdi: “Quran ona riayət olunsun deyə endirildi, amma insanlar onu sadəcə oxumağı ibadət saydılar”. İmam oxuyar, camaat da oxunan Quranı dinləyərsə, istənilən əldə edilə bilər. Amma namazda hər kəs fərdi surətdə qiraətlə məşğul olarsa, nəzərdə tutulan məqsədə nail olmaq olmaz”.[13]

Deməli, müsəlmanların əsil hədəfi, namazda belə olsa, oxunan Quranı başa düşməkdir.

31. Təriqətlər Pəyğəmbərin yolu ilə getsə, Quranı dərk etməyə yönəlik söhbətlər təşkil etsə, bu məqsədlərə istiqamətlənmiş təhsil və təlim-tərbiyə mühiti yaratsaydı, çox yaxşı olardı. Amma onlar Quranı dərk etmək üçün səy göstərmədilər. Oxuduqları Quran ağıllarına deyil, qulaqlarına və könüllərinə səsləndi. Məna unuduldu, onun sözləri və musiqisi ilə kifayətləndilər. Beləliklə, Quran söhbətin bəzəyi halına gəldi. Bu vəziyyət də öz növbəsində qaçılmaz olaraq xurafatların rəvac tapması üçün zəmin hazırladı. Təriqət şeyxi eynilə xristian əzizləri kimi ruhani lider sayıldı və ruhani aləmlə əlaqəsinin olduğuna inanıldı. O, Allah ilə müridlərinin arasında bir vasitəçi, rabitəçi yerinə qoyuldu. Qurani-Kərimə görə hər bir müsəlman Allahın dostu, yəni sevimli qulu olduğu halda bu vəsf yalnız təriqət başçılarına aid edildi. “Dostun dosta nazı keçər” deyilərək, Allahın onların nazını çəkəcəyi düşüncəsi qəbul edildi. Onların qeyri-adi yollarla insanlara kömək edəcəyinə inanıldı. Təriqətə girmək “əl alma” şəklində bir mərasim halına salındı. Öncə təriqət üzvlüyünə namizədin həmin təriqətdən nəsibinin olub-olmadığını təyin etmək üçün yuxu görməsi və bu yuxunu şeyxə danışması şərti qoyuldu. Beləcə, arzuolunmaz və şeyx tərəfindən təsdiq edilməyən insanların təriqətə qəbul edilməsi əngəlləndi. Qapılar çölə möhkəm şəkildə bağlandı. İnsanlar arasında təriqətdən olan və olmayan deyə

---

[13] Şəmsuddin əs-Sərəxsi, əl-Məbsut, Beyrut, 1409/1989, c.1, s.199-200.

ayrıseçkilik tətbiq edildi. Bu da təriqətin və şeyxin müqəddəsləşdirilməsinə şərait yaratdı. Bir çox müridlər Allahın bəxş etdiyi nemətləri şeyxinin himməti ilə əldə etdiyininə dair fikirlər səsləndirməyə başladı. Onlara bir növ vəhy gəldiyinə, qeybdən agah ola bildiklərinə inanıldı. Bunu qəbul etdirə bilmək üçün şeyxin kəramət göstərməsi labüdləşdi. Sonra hər mürid şeyxinə aid bir kəramət yaxalamaq üçün səfərbər oldu. Kiçik bir təsadüf böyük şişirtmələrlə kəramət kimi qələmə verildi. "Elm-i lədün" və "elm-i batın" deyə bir elm uydurularaq onların belə bir elmə sahib olduqları qəbul edildi.[14] Beləliklə, şeyxlərin törətdikləri istənilən sapqınlıq hikmət olaraq mənimsənilməyə başlandı. 180 il əvvəl Naxşıbəndi təriqətinin Xalidiyə qolunda şeyxə rabitə adı altında yeni bir ibadət növü meydana çıxdı.[15] Bu işdə Allahın şeyxdə təcəlli etdiyinə inama qədər irəli gedildi. Dünyada müridlərinə kömək edəcəyinə inanılan şeyxin, axirətdə də şəfaət edərək müridlərini cəhənnəmdən qurtaracağına inanıldı. Şeyxə uca Allahın xüsusi katibi və sir dostu kimi bir mövqe qazandırıldı. Qurandan sanki maqqaşla çəkilmiş bir neçə ayənin mənasını ciddi şəkildə təhrif edərək bu xətaları Qurana yamamaq istədilər. Uca Allah, əlbəttə ki, bütün bu iftiralardan uzaqdır.

Bunlar Qurana kökündən zidd düşüncə və davranışlardır. Quran diqqətlə oxunarsa, məlum olar ki, bütün peyğəmbərlər həyatlarını bu qəbildən olan düşüncə və davranışlara qarşı mübarizə aparmaqla keçirmişlər. Ən təəssüflüsü isə o insanların bu işləri daha yaxşı müsəlman olma arzusuyla görməsidir.

---

[14] Kəhf surəsinin 65-ci ayəsində, Həzrət Musa (ə) ilə qarşılaşan şəxs ilə əlaqədar: ***"Ona öz qatımızdan bir elm öyrətmişdik"*** – deyə buyurulur. Burada "qat" deyə tərcümə etdiyimiz kəlimənin ərəbcə qarşılığı "lədünn" kəliməsidir. Hədis-i şəriflərdən bu şəxsin Xızır əleyhissəlam olduğunu öyrənirik. Elm-i lədun və elmi batından bəhs edənlər Xızır əleyhissəlamın bu elmini nəzərdə tuturlar. Fəqət Xızırla (ə) bərabər olan Musanın (ə) bu elmi öyrənə bilmədiyini də qəbul edirlər. Çünki bu barədə həm ayələrdə həm də Peyğəmbərimizin sözlərində bəhs edilir. (Bax: Buxari, Elm, 44) Bununla yanaşı təriqət şeyxləri, əllərində heç bir dəlil olmadığı halda Xızıra verilən bu xüsusi elmin özlərinə də verildiyini iddia edir, özlərini Xızır əleyhissəlamın yerinə, müridlərini də onu başa düşməyən Musanın (ə) yerinə qoyurlar. Heç bir qaynağı və dəlili olmayan bu iddia şeyxləri şeytanın əlində bir oyuncaq halına gətirmişdir. İslam aləminin Allahın qəzəbinə düçar olub dünya səhnəsindən çəkilməsinin (nüfuz və qüdrətini itirməsinin) əsl səbəbləri bunlardır.

[15] Rabitəni "Şeyxin surətinin mürşidin iki gözünün arasında təsəvvür edilərək müridin mürşidə qarşı özünü son dərəcə alçaldıb ona yalvarması və onu Allah ilə özü arasında vasitəçi qəbul etməsi" kimi tərif edən və təriqətə belə bir rabitəni gətirən Xalid Bağdadidir. Onun vəfat tarixi 1242-ci hicri, 1827-ci miladi tarixidir. (Bu qəbildən olan mövzularla bağlı ətraflı məlumat üçün bax: Abdülaziz Bayındır, Quran İşığında Təriqətçiliyə Baxış, İstanbul, 1997)

Həqiqətləri öyrəndikləri vaxt, təəssüf ki, hər şey bitmiş olacaqdır. Duamız onların bu dünyadan ayrılmadan doğruları öyrənib lazım olan dönüşü həyata keçirməsi üçündür. Şəxsi araşdırmalarımıza görə az və ya çox, qeyd edilən və burada sadalaya bilmədiyimiz saysız xürafatlara qarışmamış bir tək təriqət belə yoxdur.

32. Müsəlmanların Qurana münasibətləri onu mənasını başa düşmədən oxuma və gözəl səsli hafizlərin qiraətində dinləmə səviyəsinə endirildiyi üçün təriqət şeyxlərini belə bir məqama gətirmək çətin olmamışdır.

İndi isə, gəlin, nümunə olaraq onların aşağıdakı ifadələrinə diqqət yetirək:

*Haqlı görünsə də, müridin ustadına etirazı haramdır.*[16]

*Şeyx müridə bir şey təlqin etdikdə davamlı olaraq həmin işlə məşğul olmalı və qəlbinə xeyir, yaxud şər bir şey gətirməməlidir*[17].

*Mürid üçün nəzərdə tutulan şərtlərdən biri də şeyxin əmr etdiyi şeyləri yozmayaraq, dəyişdirməyərək və gecikdirməyərək yerinə yetirməkdir. Çünki əmrləri başqa yerə yozmaq və gecikdirmək rabitədə ciddi qırılmaya səbəb ola bilər.*[18]

*Mürid şeyxinin tərbiyəsində ölü yuyanın əlindəki meyit kimi olmalıdır ki, şeyx, onunla istədiyi kimi davrana bilsin.*[19]

Yəni, bir sözlə, mürid şeyxinin əsiri olmalıdır. Hətta ona əsirdən də möhkəm bir bağlılığı olmalıdır. Çünki əsir ağasına, sahibinə bəzən baş qaldırır və ya içindən gileylənir, amma mürid həm içi ilə, həm də çölü ilə şeyxinə tam boyun əyməlidir.

---

[16] Kotku, Təsəvvüfi Əxlaq, c.II,s.5, 2.paraqraf.
[17] e. g. ə., c.II,s. 248.
[18] e. g. ə., c.II,s. 246,paraqraf 5.
[19] e. g. ə., c.II,s. 245,paraqraf 3.

33. Təriqətlər, insanı passivləşdirir, özünə qarşı inam və etibarını ortadan qaldırır və onun şəxsiyyətsizləşdirir. Türkiyədə təkkə və zaviyələr (təriqət ocaqları) rəsmi şəkildə bağlı olsa da, həqiqətdə çox sayda təriqət fəaliyyətini davam etdirir. İnsanları bu mövzuda məlumatlandırmaq üçün ciddi çalışmalar aparmaq lazımdır. Ancaq dövlət bu məsələdə də bitərəf olmalıdır ki, görülən tədbirlərə duyğular qarışmasın, məsələ rahat bir mühitdə müzakirə edilsin və arzuolunan sağlam və sabit nəticələr əldə etmək mümkün olsun.

Təriqətlər mütəşəkkil icmalardır. Onların təkkələri və müəssələri vardır. Hər birinin bir ruhani rəisi yəni şeyxi vardır. Onlara görə şeyx, qul ilə Allah arasında bir vasitə, Allahın qapılarından bir qapıdır.[20] Təriqətə giriş əl alma (beyət) işiylə həll olur. Beləcə şeyx müridi Allah yolunda təslim almış sayılır. Qurtuluş üçün bir təriqətə girmək şərtdir.[21] Şeyx peyğəmbər vəkili[22] və xatasız bir aftoritetdir.[23] O müridin mənəvi atasıdır.[24]

Bunlar Qurana tamamilə tərs şeylərdir. Necə ki, İncilin xaricində formalaşan Kilisə teokratiyanın qaynağı olmuşsa, bizdə də Quranın xaricində formalaşan təriqətlər teokratik düşüncəyə zəmin hazırlamışlar. Təriqətlər tərəfindən yeridilən fikirlər bu gün təriqət mənsubu olmayan insanlara da yoluxmuşdur.

---

[20] Abdulgani ən-Nablusinin bu mövzuda belə dediyi nəql edilir: " Bir kimsə Allah yolunda özünü təslim alan bir şeyxə təslim olursa onun , Allahın qapılarından bir qapı olduğuna inanması lazımdır. Şeyxi bu mərtəbədə görmək mərtəbələrin ən düşüyüdür. Buna inanılmalıdır ki, şeyxdən özünə nə gəlirsə Allahdan bilməli, şeyxdən bilməməlidir. Əgər xeyir gəlirsə, Allahın ona hidayəti, şər gəlirsə Onun imtahanıdır. Bu halda təriqətə girmiş bir kimsənin şeyxini Allahın qapısı bilməsi ilk pillədir.
İkinci pillə, Allahın isim və sifətlərinin ortaya çıxıb göründüyü insan olaraq bilməsidir. Allahın əmr və qadağanları ilə məsul olan şəxs nesə hörmət duyarsa şeyxinin yanındada o şəkildə hörmətli olmalıdır. Bu orta pillədir.
Üçüncü pillə, şeyxini heç görməməlidir, o mənəvidir. Onun yerinə Allahın sifətlərini görməlidir. Şeyxi arada fani bilməlidir. Doğru olan da budur. Bu hal, üç pillənin ən üstünüdür. (Qotqu, Təsəvvüfi Əxlaq, İst. 1982, c. İİ s. 185.)

[21] Məhmət Zahid Qotqunun mövzu ilə bağlı ifadələri belədir: Qəlbi hüzuru İlahiyəyə qovuşmaqdan uzaqlaşdıran sıfatı məzmumədən (aşağılanmış) xilas edəcək bir şeyxi, mürşidi qəbul etmək insan üçü vacibdir deyə icma və ittifaq vardır.
Fəna (pis) sifətlərdən xilas olmağa vəsilə olan bir şeyxi mürşidi qəbul etməyən kimsələr, Allahu Təalaya və Rəsulullaha üsyan etmiş olurlar. Çünki haqq təriqətə daxil olmayan kimsə mürşidsiz bu sifətlərdən xilas ola bilməz. (Qotqu, Təsəvvüfi Əxlaq, c. II s. 183)

[22] Həsən Kamil Yılmaz, İslam Təsəvvüfü, Təsəvvüflə əlaqəli suallar-cavablar,İst. 1996,s.494

[23] Haqlı belə görülsə müridin şeyxinə etirazı haramdır. (Qotqu, Təsəvvüfi Əxlaq, c.ıı s. 5)

[24] Qotqu, Təsəvvüfi Əxlaq, c.ıı s.247.

Heç bir təriqət kilisə kimi təşkilatlanmamışdır. Bu günə qədər bir təriqətin əmrinə girmiş dövlət də olmamışdır. Quran mövcud olduğu müddətcə bunun həyata keçməsi mümkün deyildir. Təriqətlərlə əlaqəli şikayət ediləcək bir çox mövzu vardır. Bunlar, müsəlmanların Quran işığında təhsil alması ilə ortadan qalxar.

## 5-DİNİ TƏHSİL

Din azadlığına dini öyrənmək azadlığı da daxildir. Dini təhsili *inanc, ibadət* və *əxlaq* təlimi olmaqla üç hissəyə bölmək olar.

### A- ETİQAD TƏLİMİ

35. Dinə inanmaq istəyən insan təhsil səviyyəsindən və yaşadığı ictimai mühitdən asılı olmayaraq etiqad bəsləyər və etiqadına uyğun şəkildə davranmağa çalışar. Əgər etiqad bəsləməliolduğu inancları doğru öyrənməmişdirsə, bu boşluğu xurafatlarla dolduracaqdır. Dövrümüzdə neçə-neçə elm xadimi, ziyalı, yüksək çinli dövlət məmuru və sahibkar səmimi-qəlblə dini dəyərləri həyatında tətbiq etməyə səy göstərmiş, amma əqidə ilə əlaqədar kifayət qədər doğru məlumat əldə edə bilmədiyi üçün xurafatçıların, istismarçıların əsirinə çevrilmişdir.

36. Müsəlman ilk növbədə xurafatlardan uzaq bir imana sahib olmalıdır. Bunun ən etibarlı yolu inancını Qurandan öyrənməsidir. Quran bütün bəşəriyyəti yaradan Allahın kitabı olduğu üçün inancını Qurandan öyrənənlər hər kəsə qarşı humanist və tolerant davrana bilən, dardüşüncəli olmayan insanlar olurlar. Uca Allah belə buyurur:

***De: "Haqq Rəbbinizdən gələndir. Artıq inanmaq istəyən inansın, istəməyən də inanmasın". (Kəhf 18/29)***

***“Kim (haqq) yola gələrsə, ancaq özü üçün gəlir. Kim də yolunu azarsa, azğınlığı ancaq öz zərərinədir. Heç bir günahkar başqasının günahını daşımaz. Biz də bir elçi göndərməyənə qədər əzab verməri k”. (İsra 17/15)***

İslamı doğru öyrətmək üçün Qurani-kərimin ana dilinə tərcüməsi məktəblərdə bir dərs kimi tədris edilməlidir. Bu, eyni zamanda xürafatlara qarşı etibarlı və təsirli bir mübarizə üsulu ola bilər.

## B-İBADƏT TƏLİMİ

37. Namaz, oruc, həcc və zəkat mövzusunda elementar bilikləri doğru şəkildə mənimsəmək lazımdır.

Namaz qılan hər kəs Fatihə surəsini, namazda daha çox oxunan surələri, “Ayət əl-kürsi”ni doğru surətdə oxuya bilməlidir. Namaz dualarını, həmçinin, gündəlik həyatda tez-tez qarşıya çıxan məsələlərlə əlaqədar göstəriş və öyüdləri ehtiva edən ayələri də öyrənməlidir. Bu dua və ayələrin sayı azdır. Onları doğru oxumaq üçün orijinal dilindəki (ərəbcə) mətnini öyrənmək və həmin mətnləri düzgün tələffüz etmək lazımdır. İmam-xətib liseyləri və Quran kurslarının məzunları bir kənara, dövrümüzdə kəlmeyi-şəhadəti belə əslinə uyğun olaraq tələffüz edənlərin sayı azdır. Bu vəziyyət çox sayda ali savadlı, geniş dünyagörüşünə sahib olan insanın bu məsələdə (öyrənilməsi zəruri olan dini mətnlərin (Quran ayələri və duaların) düzgün oxunuşu, tələffüzü xüsusunda *tərc.*) özünü aciz hiss etməsinə səbəb olur.

38. Quranı orijinal dilində doğru oxumaq da hər bir müsəlmanın arzu və ehtiyacıdır. Bu arzusunu doğru qaydada, mükəmməl təhsil almış müəllimlərin nəzarəti altında həyata keçirə bilməyənlər şikayətlərə səbəb olan yollara əl atmaq məcburiyyətində qalırlar. Bu səbəbdən, ibtidai təhsildən başlayaraq istəyən hər bir şagirdə Quranı öyrətmək zəruridir. Quran kursları və İmam-xətib liseyləri bu ehtiyacı bütünlüklə ödəmək imkanına sahib deyildir. Əsas təhsil

bazası[25] üzrə tədris hüququ ləğv edilməmişdən öncə müşahidə edilən İmam-xətib liseylərinə geniş şagird axınının səbəbi övladının dini təhsil almasını istəyən valideynlərin bu arzularını digər məktəblərdə gerçəkləşdirə bilməməsidir. Digər orta təhsil müəssisələrində dinini öyrənmək imkanından məhrum olanların özlərində şəxsiyyətin formalaşması ilə bağlı kompleks hiss etməsi də yanlış davranışların digər bir səbəbidir.

*Şəxsi yorum və təvillərdən çəkinərək, Quranı məzhəbinə və arzusuna uymadan, sırf Allahın bildirdiyi şəkildə izah edib çatdırmaq, məsuliyyət daşıyan hər müsəlmanın vəzifəsi olmalıdır. Təhsil bu şəkildə aparılarsa, insanlar həm fərqli məzhəb və məqsədlərə xidmət edən dini qruplaşmalardan xilas olar, həm də dövlət və millət arasında birlik və bərabərlik saxlanmış olar. Dini arzusunu normal yollarla, yaxşı yetişmiş müəllimlər nəzarətində öyrənməyənlərin, başqalarına alət olmaları, oyuna gəlmələri çıxılmaz olur. Sonra da bunlar bu ümmətə qarşı yönləndirilmiş canlı bombaya çevrilirlər. Bu da dinin istismarına və xoşa gəlməz mənzərələrə yol açmaqdadır. Tariximiz bunun ibrətli səhnələri ilə doludur. Necə ki, Tibb fəkultəsini bağladığınız zaman meydan qoca qarılara, tüstü verənlərə qaldığı kimi, din təhsilini üniversitet və məktəblərdən qaldırdığınız zaman meydan pirlərə, ziyarətgahlara, kitab-açanlara, fala-baxanlara, mollalara qalır. Onun üçün ibtidai sinifdən başlayaraq istəyən hər tələbəyə Quran öyrətmək lazımdır.

Müsəlmanlıq bu ölkə xalqının rəsmi dini olduğu üçün, bu dini öyrənmək də xalqın ən təbii haqqı və tələbatıdır. Ona maneçilik nə dövlətin, nə də xalqın xeyrinə deyildir. Tam tərsinə zərərinədir. Bu səbəblə həm dövlətin, həm xalqın rəfahı, inkişafı və mənafeyi üçün dinin təhsilinə ehtiyac vardır. Çox təəssüf ki, bir əsrə yaxındır dindən və din təshilindən qorxmuş və qorxudulmuş bir idarə və xalq kütləsi vardır ki, bu səbəblə müsəlmanların və Quranın aydınlanması,

---

[25] Əsas təhsil bazası - ibtidai təhsil mərhələsindən (ölkəmizdə bu mərhələ 1-4-cü sinifləri əhatə edir) sonra gələn və əsas təhsil (ölkəmizdə 5-9-cu sinifləri əhatə edir) haqqında şəhadətnamənin verilməsi ilə nəticələnən təhsil *prosesidir. Türkiyədə bu mərhələnin ekvivalenti "ortaokul" adlanır. Tərc.*

tərəqqisi əngəllənməkdədir. Buna görə də hər kəsə Qurana və müsəlmanlığa yenidən nəzər salmasını tövsiyə edərik.*

## C-ƏXLAQ TƏHSİLİ

40. İnsanın özünə, ailəsinə, yaşadığı cəmiyyətə, ölkəsinə və bütün insanlığa qarşı haqq və vəzifələri vardır. Bir müsəlman bu mövzudakı vəzifələrini; fərzləri, halal və haramları doğru öyrənməlidir. Belə olmazsa nümunəvi bir insan və yaxşı bir müsəlman olması mümkün olmaz...* Məhz müsəlmanların terorist və pis insanlar kimi göstərildiyi bu çağımızda buna çox ehtiyac vardır. Əslində müsəlmanlar bunu kimlərəsə xoş görünmələri üçün də etməzlər. Çünki bu Allahın onlara yüklədiyi bir məsuliyyətdir və Allah rizası üçün edilir.

## D- ORTA MƏKTƏBLƏRDƏ ƏXLAQ VƏ QURAN TƏLİMİ

41. Ölkəmizdə, Türkiyədəki İmam xətib lisələrinə bənzər bir təlimin verilməsi dövlətin və xalqın ruhi və mənəvi inkişafına çox faydası olacağına inanıram. Bu fəaliyyət, gənclərin hər tərəfli yetişməsini təmin edəcək, sektalara, qruplara, xurafələrə yönlənməsinə mane olacaq və bir çox həm özlərinə həm dövlətin, xalqın zərərinə olacaq pisliklərə, propaqandalara düşməsinin qarşısını alacaqdır. İmanlı gənclərin varlığı cəmiyyət üçün etibar qazandırır.* Çünki xürafatçılar və fitnəkarlar həmişə dini yaxşı bilməyənləri axtarırlar. Cahilləri tabe etmək asandır və bunlar hər kəs üçün istismar edilən, çeynənən rahat loxmadır.

Din təshili tədris planı Quranın işığında gözdən keçirildiyi təqdirdə ölkəyə ağlın və əməlin hakim olması qaçınılmazdır.

42. İnsanların dinə yönəlmələrinə mane olmaq mümkün deyildir. Bu bütün dünyada tarixdən günümüzə qədər yaşanan bir hadisədir. Bütün millətlərin bir dini olmuş və olacaqdır. Buna heç kim və heç bir şey mane ola bilməz, çünki bu insanın fitrətinə yerləşdirilmiş bir şeydir. İnsanlar onu bu və ya digər şəkildə qəlblərinə ya da yaşayış tərzlərinə soxacaqlar. Kimsə mənim dinlə əlaqəm

yoxdur deməsin, özünü aldadır. Hər insanın həyata baxışı və yaşayış tərzi onun dinidir. Bu səbəblə ,,din''ə tutduğu yol mənası da verilmişdir.

43. Dindən deyil, dinin səhv və əksik öyrənilməsindən qorxmaq lazımdır. Əgər dini təhsil orta məktəblərdən başlayaraq yayğınlaşdırılmazsa, özünü mühakəmə edə bilməyən, inancını, mənliyini, mədəniyyətini, əxlaqını, ədaləti və s. qoruya bilməyən insanlar çoxalar. Elə bu halda artıq fəlakətdən, zülümdən, kaosdan bəhs etmək əbəs olur.

## 6-SİYASİ PARTİYALAR

45. Konstitusiyaya görə dövlətin bir insan və ya zümrə tərəfindən idarə edilməsini, bir sosial sinifin digər sosial siniflər üzərində hakim mövqeyini təmin etmək və ya dil, irq, din, məzhəb ayrı-seçkiliyinə yol vermək (diskriminasiya) və ya digər bir yolla bu anlayış və baxışlara əsaslanan bir dövlət quruluşu yaratmaq məqsədi ilə siyasi partiya qurula bilməz.

Konstitusiya bunu tələb edir. Amma öz ideologiyalarını önə çıxardan bir çox idarəedicilərin xalqı onların etiqadlarını mənimsəməyə məcbur edən davranışları dil, irq, din və məzhəb ayrı-seçkiliyinə əsaslanan partiyaların qurulmasına şərait yaratmışdır. Onlara qarşı siyasi mübarizə məqsədilə başqa partiyalar da qurulduğundan birdən-birə çox sayda partiya ortaya çıxmış və hər biri özünə tərəfdar tapmışdır.

Bu vəziyyət lüzumsuz münaqişələrə, vətəndaşların sinif və zümrələrə ayrılması kimi təhlükəli nəticələrə yol açmaqda, ölkənin gücü və imkanları bu çarxda hədərə getməkdədir. İdarəedicilərin öz ideologiyalarını qəbul etdirmə səyləri müxalif ideologiyalarının mənsublarını da iqtidar uğrunda mübarizəyə sövq etmişdir. Bir çox siyasi partiyanın vətəndaşlara, xalqa xidmət yarışında öz fəaliyyəti ilə seçilmək yerinə, təmsil etdiyi ideologiyanın hakim ideologiyaya çevrilməsini təmin etmək və tərəfdarlarını dövlətin imkanlarından

yararlandırmaq yarışına qoşulduğunu görürük. Belə bir vəziyyətdə sonu görünməyən qarşıdurmaların yaranması qaçılmazdır.

46. Bu şəraiti yaradan hüquqi və sosial səbəblər ortadan qaldırılmadıqca bir nəticə əldə etmək mümkün deyil. Necə ki, Türkiyədə 12 sentyabr 1980-ci il tarixində baş verən dövlət çevrilişindən sonra siyasi partiyaların sayını azaltmaq təşəbbüsü müvəffəqiyyətsizliklə nəticələnmişdir. Artıq seçicilərin təqribən 20%-nin səs verdiyi partiyalar Türkiyənin ən böyük partiyaları olaraq hökumət qurmaqdadılar.

İdeoloji məqsədlər güdən davranışlara son verilərsə, partiyalar öz ideologiyalarını hakim ideologiyaya çevirmək niyyətindən vaz keçərək ölkənin inkişafı üçün xalqa, vətəndaşlara xidmət yarışına girmək məcburiyyətində qalacaqdır.

47. Türkiyədə ən ciddi münaqişə İslam dininə qarşı yönəlmişdir. Mövcud vəziyyətdə dinə əsaslanan partiya məsələsi özünəməxsus əhəmiyyətə malikdir. Gəlin, bu mövzunu bir qədər ətraflı araşdıraq:

***İDEOLOJİYAYA ƏSASLANAN SİYASİ PARTİYA (Marksizm)**

46. İstismara, haqsızlığa, bərabərsizliyə qarşı olma iddiası ilə ortaya çıxan bu ideologiyanın banisi Karl Marksdır. Yazdığı Kommunist Manifestosunda insanlar arasındakı sinif fərqinin ortadan qalxmasını, imperialistlərin istismarına qarşı, işçilərin bərabər olmasını irəli sürməkdədir. Bu fikirləri ilə əzilən sinifin, xüsusilə fəhlələrin rəğbətini qazanmışdır. Ölümündən sonra ideolojiyaları hər tərəfə yayılmaya başladı və ilk dəfə bu ideolojiyalara sahib olan fəhlə sinifi, Çar Rusiyasını yıxaraq 1917-ci ildə hakimiyyətə gəldi. Hakimiyyətə gəldikləri gündən etibarən hər tərəfdə öz ideolojiyalarının xaricində olan bütün fikir və mütəfəkkirləri yıxaraq, mətbuaları yaxaraq öz ideolojiyalarının fədailəri olan robot makinalarını yetişdirdilər. Hakimiyyət qısa zamanda imperialistlərin əlindən alınaraq, inqilabçı işçilərin teokratik rejiminə çevrildi. Teokratik rejim

ancaq diktatorluqla idarə edilə bilir. Dövləti və əməyi uca tutaraq,insanların bundan başqa qayələrinin olmadığını və bu uğurda yaşayıb ölmələrini öyrətdilər. Bu səbəblə öz ideolojiyalarında olmayan və şübhə etdikləri milyonlarca insanı öldürdülər və ya sürgünə göndərdilər. Tarixdə heç bir rejim bu kommunistlər qədər insan qanı tökməmiş, dinə qarşı düşmən kəsilməmişdir. Çünki fərqli baxış tərzinə, inanclara, fəaliyyətə düşmən kimi baxmağı öyrənmişlər. Özləri kimi olmayan heç kəsi, yanlarına, idari işlərə almazlar. Bu tiplərə qarşısındakının haqlı olub-olmaması mühüm deyil, mühüm olan onun öz fikrində olmasıdır. Nəinki dindarlara, Allahın adının çəkilməsinə belə təhəmmül edə bilməzlər. Dini afyon, geriləmənin səbəbi olaraq görürlər. Bu allerjik halları onların fıtratlarına tərs yetişdirildiklərini göstərir. Çünki inanc insanın doğuluşundan fitrətinə yerləşdirilmişdir. Hər nə qədər inanmıram deyib inancının üstünü örtməyə çalışsa da qəlbindəkini yox edə bilməz. Özünü hüzursuz edər, bu inadı onu insanlıqdan kənarlaşdırır. Məsələn, xain birinin yanında mərdlikdən danışdığınız zaman xainin narahatlığı artar və ya fahişə birinə namusdan danışmaq kimidir kommunistin yanında Allahdan danışmaq...Hər nə qədər bu günahları işləsə də ruhi hüzursuzluğu davam edər. Çünki insan fitrəti mərdliyə, namuslu olmağa meyilli yaradılmışdır. Artıq bir əsrə yaxındır bu teokratik kommunistlərin, dünyanın bütün ölkələrində az da olsa tərəfdarları vardır. Onların idarə etdiyi xalqların insanları mütləq ya inanclarından ya da fərqli fəaliyyətlərindən ötrü bir çox imkanlardan kənarlaşdırılmışlardır. Günümüzdə də bu kommunist diktatorların xalqını necə istismar etdiyini, bütün gəlirlərin, vəzifələrin və mənfəətlərinin özünə yaxın olanlara payladığını görməkdəyik.

Qısa və ara cumlələrlə kommunizmlə kapitalizmin fərqini ifadə etsək:

-Kommunizm insanın inancını, ruhunu alır.

-Kapitalizm insanın malını canını alır.

Kapitalizm bu səbəblə insanın nəyə inandığına, nə dediyinə, düşündüyünə baxmaz, qarışmaz. Amma malına toxundunmu heç bağışlamaz.

Ancaq kommunizm bunun tərsinə, haqlı-haqsız, pis-yaxşı bütün fərqli düşüncələrin, inancların əleyhinədir. Mala, mülkə, vəzifəyə özü istədiyi kimi inandığın zaman sahib ola bilərsən. Yoxsa kim və nə olursan ol, sənə bunları əldə etməyə haqq tanımazlar. Qısacası kommunizm özü kimi inananlardan ibarət olan dövlətə və məqsədlərə qul etməyə çalışan teokratik bir sistemdir.*

**A-DİNƏ ƏSASLANAN PARTİYA**

48. İslami partiya olmaz, amma müsəlmanların partiyası ola bilər. Bu iki anlayış arasında fərq vardır. İslam bir dindir. Bu dinin hədəfi (adresatı) insanlardır. O, dünyəvi mənfəətlər əldə etmək üçün bir vasitə kimi istifadə edilə bilməz. Vəzifəsi dini təbliğ etməkdən ibarət olan peyğəmbərlərin ortaq bəyanatlarından biri belə idi:

***“Mən bunun (risalətin – dinin təbliğinin) müqabilində sizdən heç bir muzd (əvəz) istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir”.  (Şüəra 26/180)***

49. Dinə qarşı çıxanlar din təbliği ilə iqtidar mübarizəsini qarışdırır. Musa (a.s.) ilə dövrünün ən böyük krallarından olan Fironun söhbəti bu baxımdan çox əhəmiyyətlidir:

***“Musa dedi: “Ey Firon! Mən aləmlərin Rəbbinin bir elçisiyəm.***

***Mən Allaha qarşı həqiqətdən uzaq bir şey danışmamağa borcluyam. Sizə Rəbbinizdən bir açıq-aşkar bir dəlil (möcüzə) gətirmişəm. İndi İsrail oğullarını mənimlə bərabər göndər”. (Əraf 7/104-105)***

***Firon dedi: “Aləmlərin Rəbbi nədir? (O nə cür olan bir şeydir?)”***

***(Musa:) “Əgər yəqin inanacaqsınızsa, (bilin ki) O göylərin, yerin və onların arasında olanların (bütün məxluqatın) Rəbbidir” – deyə cavab verdi.***

***(Firon) ətrafındakılara: "Eşitmirsinizmi?" – dedi.***

***(Musa) sözünə davam etdi: "O sizin də Rəbbinizdir, ulu babalarınızın (keçmiş atalarınızın) da Rəbbidir".***

***(Firon): "Sizə göndərilən elçiniz (peyğəmbəriniz), şübhəsiz ki, dəlidir!" – dedi.***

***(Musa) dedi: "Əgər ağlınızı işlədə bilirsinizsə, (anlayın ki) O, şərqin, qərbin və onların ikisinin arasında olanların Rəbbidir!"***

***(Firon): "Əgər məndən başqa Tanrı qəbul etsən, and olsun ki, səni mütləq dustaq edərəm!" – dedi.***

***(Musa) dedi: "Əgər sənə açıq-aşkar bir şey (dediklərimin doğru olduğunu sübut edən dəlil) gətirsəm necə?" - dedi.***

***(Firon:) "Əgər dürüstlərdənsə, di onu gətir (görək)!" - dedi.***

***(Musa) əsasını (yerə) atan kimi o, dərhal açıq-aşkar bir əjdaha oldu.***

***Sonra əlini (qoltuğunun altından, yaxud qoynundan) çıxarar-çıxartmaz o, baxanlar üçün ağappaq oldu (parlaq bir nur kəsildi).***

***(Firon) ətrafındakı əyan-əşrafa dedi: "Bu, həqiqətən, bilikli bir sehrbazdır!***

***O öz sehri ilə sizi torpağınızdan çıxartmaq istəyir. Nə buyurursunuz? (Onunla nə edək?)"***

***Onlar dedilər: "Onu və qardaşını (nəzarət altında) saxla və şəhərlərə (sehrbazları) yığanları (məmurlarını) göndər.***

***Qoy, bütün bilikli (bacarıqlı) sehrbazları sənin yanına gətirsinlər!" (Şuara 26/23-37)***

Bu hadisədə Musa (ə): “İsrailoğullarını mənimlə bərabər göndər!” - dediyi halda Firon, əksinə, onun iqtidarı ələ keçirmək istədiyini iddia edərək milli duyğuları istismar etmişdir. Gəlin, Fironun sözlərinə bir daha diqqət yetirək:

“O öz sehri ilə sizi torpağınızdan çıxartmaq istəyir!”

Halbuki, Musa (ə) İsrailoğulları ilə birgə getmək istəyirdi. Firon Musanın nə dediyini yaxşı başa düşür, amma sanki onun “pərdəarxası” niyyətini sezmiş kimi davranaraq demaqoqluq edir və özünü deyil, xalqını düşündüyünü göstərməyə çalışır. Çünki həqiqəti açıqlamaq işinə yaramır.

50. Bu səbəbdən, İslamdan iqtidara gəlmək üçün bir vasitə kimi istifadə etmək doğru deyildir. Belə vəziyyətdə səlahiyyətli şəxslər, dövlət məmurları İslam xüsusunda hislərə əsaslanan yanaşma nümayiş etdirəcəklər. Çünki heç kim əlindəki imkanları itirmək istəməz. Digər tərəfdən, bu davranış iqtidar hərisliyi ilə yanıb qovrulanları da hərəkətə keçirir. Nəticədə, bəzi şəxs və qüvvələr iqtidarı itirməmək üçün dinə qarşı çıxdığı halda, bəziləri də iqtidara gələ bilmək üçün dindən sui-istifadə edir. Hər ikisi də dinin olduğu kimi dərk edilməsinin və insanların bu xüsusda təsir altına düşmədən qərar qəbul etməsinin qarşısını almağa çalışır.

51. Qeyd etdiyimiz kimi, İslamın partiyası olmasa da, müsəlmanların bir vəya bir neçə partiyası ola bilər. Həmin partiyalar platformalarını təqdim edərək lazımi bilik və təcrübəyə sahib olduqlarını göstərə və iqtidar mübarizəsinə qatıla bilər. İqtidara gəldikləri təqdirdə isə dövləti din adı altında deyil, öz mandat və səlahiyyətlərinə əsaslanaraq idarə etməlidirlər. Yaxşı idarə edərlərsə, savabı özlərinə, pis idarə etdikləri halda da, vəbalı yenə özlərinə aid olur. Çünki İslamda səhv yoxdur, amma müsəlmanda ola bilər.

*52. Dinin bir tək sahibi vardır o da Allahdır. Bütün səlahiyyətlər də Ona məxsusdur. Allah öz dinini qəbul edib etməməkdə insanları sərbəst buraxmışdır. Çünki imtahan ediləcək insanlar üçün sərbəstlik qaçınılmazdır. Əgər Allah

istəsəydi Kainatı və insanları başqa cür yaradardı və hər kəs də iman edərdi. Yunus surəsinin 99-cü ayəsində buyurduğu kimi:

***"Əgər Rəbbin istəsəydi*[26]*, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən?"***

O cümlədən insanlar onun hökümlərini; istər dövlət orqanları tərəfindən, istər şəxs olaraq həyata keçirməkdə sərbəst buraxılmışdır. Onlara bu barədə kitablar, peyğəmbərlər göndərib, əmrlər və tövsiyələr versə də məcbur etməmişdir.*

53. Din azadlığı olduqca mühümdür. Əqidə mənəviyyatla bağlı bir məsələ olduğu üçün etiqad azadlığını (vicdan azadlığı da deyilir *tərc.*) tanımaq və ya tanımamaq bir o qədər əhəmiyyət kəsb etmir. Lakin din azadlığı çox mühümdür. Burada din deyərkən bir dinin bütün əmr və qadağanları başa düşülür. Bu anlayışın daha aydın ifadəsi "inandığı kimi yaşamaq azadlığı"dır.

İslam insana inandığı kimi yaşamaq imkanı yaradır və etiqadlara qarşı təzyiq və təhqiri qadağan edir. Osmanlı dövlətinin müsəlmanlar üçün meyxanaların (burada: eyş-işrət mərkəzləri *tərc.*) fəaliyyətini və donuzçuluq təsərrüfatı ilə məşğul olmağı qadağan edərək, qeyri-müsəlmanları bu xüsuslarda sərbəst buraxması bu səbəbdən idi.

Bu tolerant yanaşma İspaniyadan qaçan yəhudilərə qucaq açmağımıza və onlara tarixlərinin ən sevincli günlərini yaşatmağımıza səbəb olmuşdur. Yəhudilər bu tolerantlığın xatirəsinə "500-cü il Vəqfi"ni qurmuşlar.

54. Hər hansı bir dövlətdə, həmin dövlətin bir nümayəndəsi dövlətin təzyiqindən heç qorxmadan azad bir şəkildə; "mən müsəlmanam" ya da "mən kafirəm"- deyə bilmirsə orası teokratik bir dövlətdir. Şəriət qanunları ilə yönləndirilən bir ölkədə belə insanların arasından biri çıxıb rahat bir şəkildə "mən bu dini qəbul etmirəm" ya da "mən kafirəm" deyə bilmirsə o dövlət həqiqi şəriət dövləti deyil, teokratik bir dövlətdir. Çünki Allah Təala, etiqadda insanlar üzərində heç bir təzyiqi qəbul görməməkdə və belə buyurmaqdadır:

***"Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir."***[27]

---

[26] Yəni bu iman edib etməmə işi Rəbbinizə qalsaydı (imtahan etmədən məcburi bir qayda qoysaydı) hamınız imana gəlmiş olurdunuz.

Təəssüf ki, Peyğəmbərimiz və səhabələri dindən dönənlərlə əlaqədar heç bir cəza tədbiri görmədiyi halda, sonradan bir çox İslam alimləri Quranın bu ciddi məsələdə qoyduğu qaidələri göz-ardı edərək, zəif bir neçə hədisi əsas alıb, "dindən dönən öldürülür"- fətvasını çıxarmışlar.

55. Amma artıq əvvəlki tolerantlıq mühiti mövcud deyil. Çünki nüfuzlu səlahiyyət sahibləri olan ateistlər və dindən uzaq insanlar tolerantlıq nümayiş etdirə bilmir. Onlar müxtəlif səbəblərdən dolayı özünü müsəlman kimi qələmə vermək ehtiyacı da hiss etdiklərinə görə problem daha da mürəkkəbləşir. 1946-cı ildən bu yana qurulan siyasi partiyalar daha çox səs toplaya bilmək üçün xalqın dini hislərinə toxunmaq, təsir etmək üçün sanki yarışa girmişdir. Onların arasında səmimi olanlar olduğu kimi, dini duyğuları istismar edənlər də olmuşdur.

Türkiyə Konstitusiyasının 24-cü maddəsinə əsasən, *"Heç kəs ... hər nə şəkildə olursa-olsun, dini və ya dini duyğuları, yaxud dini baxımdan müqəddəs sayılan şeyləri istismar və sui-istifadə edə bilməz"*.

Din istismarının adı ikiüzlülük və münafiqlikdir. İkiüzlü ilə həqiqi dindarı ayırmaq çətindir. Xüsusilə, insanlar dinləri xüsusunda problemlə qarşılaşdıqda ikiüzlülər üçün ələkeçməz bir fürsət yaranır. Belə məqamlarda həqiqi dindarlar din istismarçılığında ittiham edilir ki, bu da öz növbəsində hər şeyi alt-üst edir. Türkiyə cəmiyyətində müşahidə edilən mənzərə məhz bundan ibarətdir. Digər tərəfdən, istənilən dini mənzərəyə laisizm adı altında qarşı çıxanların, dini təhsilə zərbə vurub insanları dinlərindən uzaqlaşdırmağı müasirlik sayanların, özlərinə qarşı etirazları azaltmaq üçün ara-sıra çıxıb dinə hörmətlə yanaşdıqlarını, fəqət din istismarına qarşı olduqlarını deməsi, onların məhz bu davranışları daha böyük etirazlar doğurur və dindarlarda məsxərə obyektinə çevrildikləri ilə bağlı bir hissi formalaşdırır. İkiüzlülər sevimli Peyğəmbərimizə

---

[27] Bəqərə, 2/256.

(s) də əziyyət edirdilər. Quranda bu mövzuda bir çox xəbərdarlıqlara yer verilmişdir. Uca Allah bu barədə belə buyurur:

***"Onlar (sənə): "Baş üstə!" deyir, amma sənin yanından uzaqlaşdıqda aralarından bir qismi gecə sənin dediklərindən fərqli bir şey sərgiləyirlər. Allah da onların gecə elədiklərini yazır. Artıq onlardan üz çevir və Allaha təvəkkül et! Allahın qoruyucu olması (sənə) kifayətdir!" (Nisa 4/81)***

56. Din ümumbəşəri bir dəyərdir və zamanın fövqündə durur. Yəni, dinin zamana və məkana bağlı olmayan dəyişməz qaydaları vardır. Dövlətçilik siyasəti və qanunlar isə zamana, məkana və ehtiyaclara görə dəyişir. Bir dövlət din və vicdan azadlığını qəbul edirsə, qanunlarını və daxili siyasətini buna əsasən tənzimləyir. Çünki dinə müdaxiləni heç bir dindar qəbul edə bilməz.

Məsələn, Nur surəsinin 31-ci ayəsi müsəlman qadınların başlarını örtməsini əmr edir. Bu əmr ilk gündən etibarən mübahisəsiz icra edilmişdir. Bu gün həm Türkiyədə, həm də digər İslam ölkələrində müsəlman (dindar) qadınlar başlarını örtürlər. Bir yerdə qadınların başlarını örtməsi qadağan edildikdə, bütün müsəlmanlar bu qadağanı etiraz ilə qarşılayır. Quran var olduqca bu etiraz bitməyəcəkdir. Bu etiraz özünü göstərdikcə onu istismar edənlər də tapılacaqdır. Bir partiya hicabı müdafiə edəcək, digəri isə qarşı çıxacaqdır. Buna ateistlərin və İslamdan uzaq şəxslərin dini vicdanlara sığışdırmaq (sadəcə inanclarla məhdudlaşdırmaq) təşəbbüsləri də əlavə olunduqda laisizmin dinsizlik kimi təzahürü üçün zəmin yaranır. Artıq ağıl deyil, hisslər önə çıxır. Belə vəziyyətdə partiyalara səs verənlər də hissləri ilə hərəkət edirlər. Partiyaların ölkənin inkişafı, milli birlik və hüquq bərabərliyinin bərpa edilməsi istiqamətində hansı işləri görəcəyi onları çox da maraqlandırmır. Partiyalardan birinə səs verən üçün mühüm olan dininin əmrini həyata keçirmək imkanı əldə etmək, digəri üçün isə mühüm olan buna əngəl olmaqdır. Beləcə hər iki partiya parlamentdə mandatlarını etiraz duyğusuna əsaslanan səslərlə qazanır və siyasi balansı pozurlar. Dürüst siyasətçilər isə ya siyasət səhnəsindən silinib getmə bahasına da

olsa, dürüst olmağa davam edir, ya da şəxsi mənfəətlərini düşünərək siyasi baxışlarını dəyişdirmək məcburiyyəti hiss edirlər.

57. Halbuki, bizim dövlətçilik ənənələrimizə uyğun olaraq dövlət dinə müdaxilə etməzsə, dini duyğuları istismar etmək də mümkünsüz olar. Beləcə, öz əlimizlə özümüzü təhlükəyə atmamış olarıq. O zaman dürüst siyasətçilərin də işi rahatlaşar, siyasi partiyaların sayı öz növbəsində azalar. Çünki istismar ediləcək bir şey qalmadıqda cəmiyyətə ciddi siyasi proqram və platformalar təqdim etmək zərurəti yaranır. Bu isə çox çətin bir işdir. Bunun üçün bilik potensialına, müvafiq baza və imkanlara sahib olmaq lazımdır. Amma istismar çox rahat bir işdir. Kim daha çox hayqırar və daha çox yalan danışarsa, daha çox tərəfdar toplaya bilir.

## B-İSLAM RESPUBLİKASININ İRAN MODELİ

58. İslam dini "rahiblər" sinifinin formalaşmasını qəbul etmir. Allah qarşısında bütün insanlar bərabərdir. Yeganə istisna şiəlikdə mövcuddur. Bu məzhəb dövlət başçısının kim olacağı xüsusunda ortaya çıxan ixtilaf nəticəsində yaranmışdır. Onlara görə imam, yəni dövlət başçısı Həzrət Peyğəmbər (s) tərəfindən təyin edilməli və bütün günahlardan paklaşdırılmış, uzaqlaşdırılmış (məsum) olmalıdır. Şiələr yekdilliklə bu şəxsin Həzrət Əli olduğunu düşünürlər. Yəni, onlara görə dövlət başçısı institutu siyasi institut deyil, dini məqamdır. Gəlin, onların imamlıq, yəni dövlətə başçılıq ilə bağlı bəzi baxışları ilə tanış olaq:

*"İmamlıq ancaq Allah tərəfindən nəss əsasında, yaxud o imamdan öncəki imamın onun imamətini açıqlaması əsasında öz təsdiqini tapır, insanların seçməsi ilə, istəməsi ilə olmaz.İnsanlar istədikləri şəxsi imam təyin etmək, yaxud bu vəzifədən uzaqlaşdırmaq (səlahiyyətlərdən məhrum etmək) haqqına sahib deyil".*[28]

---

[28] Məhəmmədrza əl-Müzəffər, ***Əqaid əl-İmamiyyə (Şiə inancları),*** türk dilinə tərcümə edən: Abdülbaki Gölpınarlı, İstanbul, 1978, səh. 50.

Şiələrin imamın özünəməxsus xüsusiyyətləri ilə bağlı inancları belədir:

*"İmamın da peyğəmbər kimi batinən və zahirən bütün pis və xoşagəlməz şeylərdən doğulduğu gündən vəfatınadək qorunduğuna (məsum olduğuna) inanırıq. İmam bu bu səlahiyyətlərin icrasına başlamasından öncə də, sonra da əsil-nəcabəti baxımından ən uca və nəcib bir şəxs olub hər növ pislikdən, günahdan, xətaya yol verməkdən, utanmaqdan və istənilən rəzil şeydən (iş, hal və hərəkətdən) uzaqlaşdırılmış, qorunmuşdur".*[29]

İrandakı şiələr imamın xüsusiyyətləri və biliyi ilə bağlı inanclarını belə ifadə edirlər:

*"İmamın da peyğəmbər kimi igidlik, səxavət, təmizlik, dürüstlük, ədalət, tədbirlilik, hikmət, bir sözlə, bütün məziyyətlər və müsbət əxlaqi keyfiyyətlər baxımından insanların ən üstünü olması zəruridir və biz buna inanırıq...*

*İmamın ilahi hökmlərə, ilahi maarifə dair və bütün zəruri biliklərə sahib olması peyğəmbər, yaxud özündən öncəki imam vasitəsilə təmin edilir. Yeni bir mövzu ilə bağlı da imam uca Allahın ona bəxş etdiyi qüdsi qüvvətlə, ilham yolu ilə lazımı qaydada mühakimə yürüdər, həmin məsələni tam mahiyyəti ilə dərk edər. Diqqətini bir şeyə yönəltdikdə, onun barəsində bilik və məlumat əldə etmək istədikdə ancaq həqiqəti bilər, yanılmaz, şübhəyə düşməz, bu xüsusda əqli dəlillərə, yaxud şərhçilərin şərhinə ehtiyacı olmaz. Gərəkli hallarda biliyi daha da dərinləşər, daha da artar...*

*... İmamlardan heç biri hər hansı bir müəllimdən təhsil almamış, bir tərbiyəçidən, pedaqoqdan bir şey öyrənməmişdir... Heç biri hər hansı bir ustaddan dərs almamış, hər hansı bir mədrəsəyə, məktəbə getməmişdir. Buna rəğmən, onlardan bir şey soruşulduqda dərhal ən doğru cavabı verirlər. Dillərinə "bilmirəm" sözünü gətirməməməklə yanaşı, cavab vermək üçün*

---

[29] Məhəmmədrza əl-Müzəffər, "Şiə inancları", səh. 51.

*düşündüklərinə, yaxud cavabı bir müddət sonrayadək təxirə saldıqlarına da rast gəlinmir..."*[30]

## İmamlara itaət

Şiələrin imamlara itaət mövzusunda görüşləri belədir:

*"Onların buyruqları Allahın buyruqlarıdır. Qadağanları Onun qadağalarıdır. Onlara itaət Allaha itaətdir. Onlara üsyan Allaha üsyandır. Onları sevən Allahı sevir. Onlara düşmən olan Allaha da düşmən olur. Onların əmrlərinin icrasından imtina etmək caiz deyildir".*[31]

Əhli-sünnətin bu inancları qəbul etməsi mümkünsüzdür. Əhli-sünnətə görə dövlət başçılığı siyasi bir institutdur. Bu səbəbdən, bu mövzu ilə bağlı bir ayə, yaxud hədis yoxdur. Şiələrin imamlarla bağlı yuxarıda qeyd edilən inanc və baxışlarının çoxunu əhli sünnə peyğəmbərlər haqqında belə qəbul etmir.

*Bütün bu fikirlər imamlara olan sevgidən və zalımlara qarşı nefrətdən qaynaqlanmışdır. Zamanla bu fikirlər qabardılaraq istismar edilmiş və siyasi ağırlıqlı bir məzhəbə dönüşmüşdür. Bu səbəblə şiələr, məzhəbi qəbul etməyərək, bir dava camaatı olduqlarını ifadə edərlər.*

59. Qurana görə Həzrət Məhəmməd (s) sadəcə bir rəsuldur (Ali-İmran 3/144). Ərəb dilində bir xəbərin çatdırılmasını, elçilik missiyasını üzərinə götürən şəxsə rəsul deyilir[32]. Yəni, rəsul işə özünü (öz istək, iradə, mövqe və münasibətlərini *tərc.*) qarışdırmadan bir şəxsin sözünü başqasına (başqalarına) çatdırmaq vəzifəsini daşıyan insandır[33]. Dini termin kimi də Allahın öz hökmlərini

[30] Şiə inancları, səh. 52-53.
[31] Şiə inancları, s. 54.
[32] Rağib əl-İsfahani, əl-Müfrədat, s. 353.
[33] Məcəllə m. 1450. (Risalət bir kimsənin müdaxilə etmədən bir şəxsin sözünü başqa birinə təbliğ etməsi, çatdırmasıdır. Burada təbliğatçıya "rəsul", sözü təbliğ edilənə, çatdırılana "mürsil", sözün çatmalı olduğu ünvana, adresata isə "mürsəlun ileyh" deyilir.

insanlara çatdırmaqla mükəlləf etdiyi insana rəsul deyilir[34]. Bu sözün türk (eləcə də azərbaycan *tərc.*) dilində ekvivalenti "elçi" sözüdür.

Uca Allah elçilərinin vəzifələrini üç qismə bölür:

Elçinin birinci vəzifəsi əmri təbliğ etməkdir. Uca Allah belə buyurur:

***"Elçilərin üzərinə açıq təbliğdən başqa nə düşər?!" (Nəhl 16/35)***

***"Ey Elçi! Rəbbindən sənə endiriləni təbliğ et, əgər bunu eləməsən, Onun elçiliyini həyata keçirməmiş olarsan!" (Maidə 5/67)***

Elçinin ikinci vəzifəsi əmri izah etməkdir. Bir ayədə belə buyurulur:

***"Biz hansı elçini göndərdiksə, ancaq öz xalqının dili ilə (danışanlardan) göndərdik ki, onlara (Allahın hökmlərini) izah etsin". (İbrahim 14/4)***

Allah elçisinin üçüncü vəzifəsi müjdələmək və xəbərdar etməkdir. Bu xüsusda belə buyurulur:

***"Biz səni bütün insanlara sadəcə bir müjdəçi və bir xəbərdaredici olaraq göndərmişik". (Səbə 34/28)***

Elçi təzyiq göstərə bilməz. İnsanlara mükəmməl bir etiqad azadlığı tanıyan uca Allah belə buyurur:

***"Sən öyüd ver! Əslində sən ancaq bir öyüd verənsən.***

***Sən onlara hakim kəsiləcək deyilsən!" (Gaşiyə 88/21-22)***

Allahın elçiləri möcüzə göstərirlər. Möcüzə onlara fövqəltəbii şəxsiyyət qazandırmaq üçün deyil, Allahın elçisi olduqlarını sübut etmək üçündür.

Etibarlı bir insan bir gün gəlib "Mən ABŞ-ın Türkiyədəki səfiri oldum" deyərsə, Türkiyə dövləti ondan ABŞ Dövlət Departamentinin onu elçi təyin etdiyinə dair

---

[34] Əş-Şərif Əli b. Məhəmməd əl-Curcani, ət-Tərifat, səh. 110 (nəşr tarixi və yeri məlum deyil).

sənəd (etimadnamə) tələb edəcəkdir. Möcüzə də məhz Allahın elçisinin etimadnaməsidir. İnsanların belə bir sənəd düzəltməsi mümkünsüz olduğu üçün adına möcüzə deyilmişdir.

Həzrət Məhəmməd (s) eynilə bizim kimi bir insandır. Bizdən fərqi Allahın elçisi olmasıdır. Quranda bu barədə belə buyurulur:

***"De ki, mən də eynilə sizin kimi bir insanam. Mənə sizin Tanrınızın vahid tanrı olduğu vəhy edilir. Artıq kim Rəbbinə qovuşmağa ümid bəsləyirsə, vaxt itirmədən yaxşılıq etsin və ibadətdə heç kimi Rəbbinə ortaq etməsin". (Kəhf 18/110)***

60. Budur, bir tərəfdə imamlarını müqəddəs bir şəxsiyyətə büründürən şiəlik, digər tərəfdə Peyğəmbəri belə hər kəs kimi bir insan sayan əhli-sünnət inancı. Şiəlik dövlət başçılığını dini məqam saydığı halda, əhli-sünnət siyasi institut hesab edir. Üstəlik sünnilər dövlətlərini İslam adı ilə deyil, Abbasilər, Səlcuqilər və Osmanlı kimi adlarla təsis etmişdir. Dörd xəlifə dövründə dövlətə ad belə təyin edilməmişdir. Bunlar əbəs deyildir. Arada bu qədər fərq var ikən şiələr ilə əhli-sünnəti eyniləşdirmək qəbuledilməz bir xətadır. Türkiyədə İran modelinə bənzər bir İslam respublikası qurulacağını iddia edənlər, əsasən, bu fərqi yetərincə dəyərləndirə bilməyənlərdir.

61. Sünnilər dövlət başçılığını siyasi bir məqam sayarlar. Bu səbəblə dövlətlərini, İslam adıyla deyil, Abbasi, Səlcuqlu və Osmanlı kimi adlarla qurmuşlar. Dörd xəlifə dövründə dövlətə ad belə qoyulmamışdır. Sünnilər dövlət başçısını sıradan bir insan sayır, onu qeyri-adi insan olaraq görməzlər. O da hər kəs kimi səhv edə bilər və xatalı qərarlar verə bilər.

Bir gün xəlifə Ömər minbərdən belə səslənmişdi: " Ey insanlar, ona səlat və salam olsun Muhamməddin (s.a.v.) görüşü doğru idi. Çünki Allah ona həqiqəti göstərirdi. Bizim görüşümüz isə ancaq zənn və məsuliyyət altına girməkdən ibarətdir."

Xəlifə Əbu Bəkr bir məsələdə Allahın kitabında və Muhammədin (a.s.) sünnətində bir  şey tapılmazsa öz görüşünə görə ictihad edər və belə deyirdi: ” Bu mənim görüşümdür. Doğru isə Allahdan, səhv isə məndəndir. Allahın məni bağışlamasını diləyirəm.”

Xəlifə Ömər bir nəfərlə qarşılaşmış və nə var nə yox deyə soruşmuşdu. O da Əli və Zeyd belə bir hököm verdilər demişdi. Bunun üzərinə Ömər; ” Əgər mən olsaydım başqa bir tərzdə hökm edərdim.” dedi. Adam dedi ki;

“ Sənin bunlara tərs hökm etməyinə mane olan nədir? Səlahiyyət sənin əlindədir. ” Ömər bu cavabı verdi:

“ Sənin məsələni Allahın Kitabına ya da Allahın elçisinin hökmünə dayandırsaydım bunu edərdim. Amma məsələni şəxsi görüşə dayandırıram, fikir ifadə etmə haqqı müştərəkdir. Mənim görüşüm Əlinin və Zeydin görüşünü dəyərsiz hala gətirməz.[35]”

## C- MƏSCİD VƏ TEOKRATİYA

62. İslamda ruhani sinifi yoxdur. Məscidlər kilisə təşkilatı kimi formalaşmamışdır. Əvvəllər məsciddə vəzifəli imam və müəzzin də tapılmazdı. Camaatdan biri əzan oxuyur, əhliyyətli biri də namaz qıldırırdı. Məscidlərin sistemli olaraq açılması, əzanın vaxtında oxunması, məscidin nəzarətə alınıb, əşyasının qorunması kimi ehtiyaclar məscidə vəzifəlilərin təyinatına səbəb olmuşdur. Cüma namazı üçün də vəziyyət eynidir. Ancaq Cümə günü böyük bir camaata namaz qıldırmaq və onlara xütbə vermək bir çoxunun diqqətini çəkəcəyi üçün bu mövzuda mübahisə və müzakirə çıxa biləcəyini göz önünə alan Hənəfi məzhəbi, Cümə namazını ya o yaşayış yerinin ən səlahiyyətli insanının ya da təyin etdiyi bir şəxsin qıldırmasını şərt qoşmuşdur. Yoxsa ibadət üçün toplanan insanlar bir-birinə sataşa bilərlər.[36]

---

[35] İbnul-Qayyum əl-Cəvziyyə,Ilamul-Muvakiin, Beyrut 1407/1987 c. I, s. 54.
[36] Şəmsuddin əs-Sərahsi, əl-Məbsud,Misir 1324, ıı,24.

63. Bir kimsənin müsəlman olması tamamilə öz qərarına bağlıdır. Bunun üçün məscidin və ya bir dini təşkilatın təsdiqi şərt deyildir. Vəftizə bənzər bir mərasimin qurulmasına da ehtiyac yoxdur. Çünki İslamda nə bir elm adamı, nə də bir başqa şəxs Allah adına hərəkət edə bilər. Yəni nə zorla imana nə də cəzalandırmaya yönəldə bilər. Onsuzda Allah müsəlman olmağı elə bir qaidəyə bağlamışdır ki, buna heç kim qarışa bilməz. Çünki dinin özü imandır. İmanın əsli də onu içdən qəbul etmək, yəni qəlb ilə təsdiqdir. Qəlbdəki təsdiqi bir o insan, bir də Allah bilir. Orası insanın ən azad olduğu yerdir. Bu səbəblə heç kəs bir inancı qəbul etməyə və ya inkar etməyə məcbur edilə bilməz. Allah Təala belə buyurur:

“ Dində məcburiyyət yoxdur; artıq doğru ilə əyri bir-birindən gözəl şəkildə ayrılmışdır. Bundan sonra kim həddi aşanlara yaxınlıq etmədən, Allaha inanırsa qopması mümkün olmayan sağlam bir qulpa yapışmış olur. Allah eşidəndir, biləndir.” (Bəqərə 2/256)

Kilisəyə bənzəyən bir təşkilatı olmayan, din adamlarının hər birini ruhani lider deyil, sadəcə din sahəsində cəmiyyəti aydınladan və onlara nümunə olmağa çalışan insanlar olaraq görən bir dinin, teokratiyanı qəbul etməsi mümkün deyil.

## *C –MİLLƏTÇİ DÜŞÜNCƏLƏRİN HAKİMİYYƏTİ

64. Millətçilik, bir başqa ifadəylə irqçilik deyəndə insanlar arasında ilk ağla gələn yəhudilərdir. Yəhudilər sadəcə genetik olaraq deyil, ideolojik olaraq da irqçiləşmişlər. Yer üzündə tarix boyu ən çox irqçilik davası güdən yəhudilər və ermənilər olmuşdur. Ona görə də bu iki millət hər zaman digər millətlər üçün, ələl-xüsus qonşu xalqlar üçün problem olmuşdur və olmaqda da davam etməkdədir. Almanlar irqçiliyin çirkinliyindən böyük ölçüdə dərs aldılar və millətlərdən çoxu bu cür düşüncənin insani olmadığını dərk etdilər. Təəssüf ki, bu iki millətin hələ ki, dərs aldığı görünməməkdə, məqsədlərinə nail olmaq üçün

hələ çox qan tökməyi, qəsb etməyi və istismar etməyi gözə almışlar. Qurduqları dövlət də bu məqsədlərinə xidmət etməkdədir. Xüsusilə yəhudilərin Allah adına iftira etdikləri vəd edilmiş torpaqlar, seçilmiş millət olma xəyalları uydurmadan ibarətdir. Quran, Tövratda bunların uydurulduğunu, yəhudilərin pozğun arzularını həyata keçirmək üçün ortaya atdığı fantaziyalar olduğunu bildirməkdədir. Bu fikirlər, Allahın onlara ən çox Peyğəmbər göndərməsi ilə əlaqəlidir. Bir millətə daha çox elçi, xəbərçi göndərilməsi onların sadəcə üstünlüyünə işarət etməz . Çünki Quranı Kərimdə Allah Təala üstünlüyün ancaq təqvayla olduğunu bildirmişdir. Yəhudilər bunu nəzərə almadan,irqçi düşüncələrinə qapılaraq, idarə etdikləri dövlət və elədikləri hər şey şəriət adına, yəhudilik naminə mubah, halal saymaqdadırlar. Nəticədə, bütün bu kimi teokratik, irqçi düşüncələr insanlığa deyil, şeytanlığa xidmət etdiyi şübhəsizdir.

***D - KRALLIĞA ƏSASLANAN REJİMLƏR**

65. İslam hakimiyyətə gəlmənin hər hansı bir üsulunu, qaydasını irəli sürməmişdir. Ancaq Peyğəmbərimiz krallıq üsulu ilə idarə etməyi xoş görməmişdir. Xoşlamamağının səbəbi də çoxunun layiq olmadığı hakimiyyəti miras kimi əldə etmələridir. Ancaq hakimiyyət, əhli olma şərti ilə atadan oğula keçə bilər. Necəki, Quranda Süleyman (a.s.) hakimiyyətə bu qaydayla gəlmişdir. Hakimiyyətə nə şəkildə gəlir gəlsin, əsas olan insanların haqq və hürriyyətlərinin qorunmasıdır. İstər seçimlə, istər şurayla, istər təyinlə ya da atadan oğula keçməklə olsun, uyğun olan, hansı adı daşıyır daşısın idarə etdiyi xalqın haqq və hüquqlarını müdafiə etməli, söz və inanc hürriyyətlərini təmin etməlidir. Qısaca ədalət təməlinə dayanmalıdır, insanların arzu və istəkləri nəzərə alınmalıdır.

66. Dövlətin əqidəsi ədalət olmalıdır. Müsəlmanın tələb etdiyi dövlətdə ədalət şərti axtarılır. Ədalətlə yönləndirilməyən ölkənin adı istər şəriət olsun, istər demokratiya olsun, istəyir Abdullah idarə etsin, istəyir Con heç fərqi yoxdur. Sadəcə adları fərqlidir. Adına demokratik cumhuriyyət deyilən necə ölkələr

vardır ki, orada özbaşnalıq, haqsızlıq höküm sürməkdədir. Bu dövlətlərin başındakıların çoxu azadlıq, demokratiya deyib insanları qandıraraq seçimlə gələn insanlardır. Keçmişdən günümüzə qədər ən çox istismar edilən kəlimələrdən biri azadlıq kəliməsidir. İndi də demokratiya moddadır.

Müsəlmanların çox arzuladığı adına şəriət deyilən bir neçə ölkədə isə vəziyyət daha acınacaqlıdır. Adı İslam olub, lakin bir məzhəb və əsabiyyətin hakim olduğu bu ölkələrdə insan haqq və hüquqlarından bəhs etməyə dəyməz. Xristianların teokratik sisteminə bənzər bir sistemlə idarə etmə İslam aləminə də yoluxmuşdur. Əmirlərə qeydsiz-şərtsiz itaət, istər zalım, istər fasiq olsun qarşı gəlmənin fitnə olduğuna hökm etmişlər. Ədalətin şərt olmayıb, şəriətin şərt olduğuna hökm vermək, İslama Xristianlıqdakı  Pavlosluğu yeritməkdən başqa bir şey deyildir! Avropa hüququnda ədalətin heş bir əhəmiyyəti yoxdur! Günümüzdə buna misal olaraq; Səudiyyədə şəriət adında bir teokratik sistem hakimdir. Hakimiyyət bu ailəyə məxsusdur, xalqın razılığı axtarılmaz. Adı şəriət olan, lakin Quranın baxışına, peygəmbərin  tətbiqatlarına qapalı; keyfə, lüksə yönəlik, elmə qapalı, təqlidə açıq, qadınlarının məhkum kişilərin hakim olduğu bir ölkə...

Peyğəmbərimiz (s.a.v.): “Məndən sonra idarə sultanlığa çevriləcəkdir” buyurmuşdur. Şübhəsiz belə də oldu. Müaviyənin inadkarlığı ilə başlayan hakimiyyət mübahisələri üzücü və qalıcı xatirələri də özü ilə gətirdi. Müsəlmanlar fərdi və ictimai məsələlərini, hesablarını unudaraq, dövlət məsələləri və hesabları ilə məşğul oldular. Bəziləri bundan qaçınsada olmadı...Əlbətdə bu məsələlər müsəlmanları məşğul edincə, insanların iki-üzluluyu, yalanı, hiyləsi artmağa başlayır, artıq doğru əyri, pis yaxşı bir-birinə qarışdırılmağa başlanır. Bu səbəblədir ki, Əli (r.a.) Allaha belə dua edir:  “Ya

Rəbb, bu insanlar məni bezdirdi, mən də bunları bezdirdim. Allahım, məni bunlardan qurtar. Bunları da məndən qurtar.[37]"

67. Nə İslamda nə də əvvəlki dinlərdə dövlət və hakimiyyət davası aparılmamışdır. Dində hakimiyyət başına keçib heç kimi zorla müsəlman etmək və ya İslamın əsaslarına rəayət etdirmək məqsədi də daşınmır. Dindən hakimiyyətə gəlmə vasitəsi kimi istifadə edənlər, hakimiyyətə gəldiyi zaman da dinə hakim olurlar. Halbuki, dinin özlərinə hakim olması lazımdır. Bu kimilər dindən sadəcə dünyalıq mənfəəti əldə etməyə çalışırlar ki, keçmişdə də günümüzdə də bunun nümunələrini görürük. Heç bir peyğəmbər dövlət qurmaq məqsədi ilə dini təbliğata başlamamışdır, Allah tərəfindən elə bir qayə ilə vəzifələndirilməmişdir.

Əhli-sünnə idarəsində avropa hüququnda olduğu kimi ədalət şərti yoxdur. Müsəlman qılığında olan hər cür cəllada və ya zalıma itaət şərtdir, itaətsizlik günahdır. Belə bir etiqada sahib İslam kütləsinin inkişafı mümkün deyildir. İllərdir bu tip teokratik sistemin idarəçiləri olan bütün ərəb krallıqları, İslam dövləti və dindarlıq nümunəsinin pis təmsilçiləridir!

68. Heç bir müsəlmanın hədəfi və qayəsi sadəcə dünyalıq olmamalıdır. Peyğəmbərimiz (s.a.v.) ölüm ayağında ikən özündən sonra heç kimi müsəlmanların idarəsinə təyin etməmişdir. Bunu insanların öz ixtiyarlarına buraxmışdır. Bu barədə bir çox dəlillər vardır. Tarixi oxuyan insanlar hadisələri yaxşı mülahizə etsələr bunu başa düşərlər. Əlbətdə dinini yaşayan biri, müsəlmanların idarə etməsini arzuladığı halda, davası dövlət qurmaq vəzifə əldə etmək olmamalıdır. Hər bir insan idarə edilməyi deyil, idarə etməyi və dünya nemətlərinə qovuşmağı arzulayır. Ancaq müsəlman daha böyük bir məqsədin, idealın insanıdır. Onun əsas məqsədi Haqqı yaşamaq onu insanlara çatdırmaq və nəticədə cənnətə nail olmaqdır.

---

[37] İbn-Kəsir, əl-Bidayə vən-Nihayə (7cild, 10 bölüm)

69. Peyğəmbərin (s.a.v.) vəfatına yaxın, heç kimsəni idarəyə təyin etməməsi məhz Onun ümumbəşər bir peyğəmbər olduğunun işarəsidir. Abbasın (r.a.) Peyğəmbərimiz ölüm ayağında ikən Əliyə (r.a.) "gedək Rəsulullaha, özündən sonra hakimiyyəti kimə verəcəyini soruşaq. Əgər bizə veriləcəksə bunu bilək, yox əgər başqasına verəcəksə bunu da bilək. Bu haqda bizə bəzi tövsiyələr versin. " dediyi zaman Əli (r.a.) " Vallahi əgər biz bunu Rəsulullahdan istəsək və O da bunu bizə verməzsə, onun vəfatından sonra başqası bizə hakimiyyəti bir daha verməz. Mən Allaha and olsun ki, bunu Rəsulullahdan istəməyəcəm.[38] " demişdi. Bəli, bu haqqın peyğəmbərimiz tərəfindən birinə verilməməsi əbədiyyən ona və əhlinə verilməməsi mənasına yorumlana bilərdi ki, bunu Əli (r.a.) yaxşı başa düşürdü. Yaxud da idarə haqqı peyğəmbər tərəfindən birinə verilməsi də eyni şəkildə istismara yol aça bilərdi. Yəni, bu haqqın özündən qeyri heç kimsənin haqqı olmadığı düşüncəsi də hakim ola bilərdi ki, keçmişdən günümüzə qədər bu cür düşünənlər ələlxüsus ərəb ölkələrində vardır.

Necəki, Müaviyə bir sultanlıq qaidəsi olaraq, idari qabiliyyətini və camaatın arzusunu nəzərə almadan oğlu Yezidi vəliəhd təyin etdi. Bundan sonra da Əməvi fəlakəti, arxasından da Abbasi zülmü ortaya çıxır. Belə zalım idarələrin ömrünü uzatmanın ən təsirli yönü də insanlara "qədər" şərtini uydurub alın yazısına məhkum etməkdir.

Qısaca  xalqın başına gələn fəlakət və zülümlərin çoxu teokratik sistemlərdən qaynaqlanr. Çünki bu kimi sistemlərdə insanın idari qabiliyyəti və iş əhliyyəti axtarılmaz. Bir güc və miras qaydası kimi həvalə edilir. İslam anlayışında isə bir işdə idari qabiliyyət və işinin əhli olması şərti axtarılır. Məsələn, İbn Kəsir rəvayət edir: " Peyğəmbərimiz (s.a.v.) Məkkənin fəthi zamanı Kəbənin yanında oturduğu zaman Əli (r.a.) əlinə Kəbənin açarlarını alıb gəldi və belə dedi: Ey Allahın Rəsulu! Kəbənin himayədarlığını bizə ver.

Rəsulullah (s.a.v.) soruşdu:

---

[38] İbn-Kəsir, əl-Bidayə vən-Nihayə (5 cild, 7 bölüm)

- Osman ibn Talha haradadır? (Kəbənin xidmətçisi olan bir müşrik)

Bunun üzərinə Osmanı gətirdilər. Rəsulullah (s.a.v.) belə dedi:

-Ey Osman açarları al. Bu gün yaxşılıq və vəfa günüdür. ”[39]

Rəsulullah (s.a.v.) Kəbəyə baxma işini belə yaxınlarına vermədən, bir müşrik olan Osmana həvalə edir. Çünki o işinin əhli idi. Sonra onun yaxşı bir müsəlman olduğu rəvayət edilir.

Fərqli dinlərin, müxtəlif fikirlərin insanları bir araya gəlib dövlət qurduqları zaman, həmin dövlətin idarəçilərindən cəmiyyətin istədiyi şey ədalətlə, heç kimə fərq qoymadan idarə etməsidir. Yoxsa qalxıb o idarəçilərin müsəlman olmalarını, şəriətlə idarə etmələrini tələb edə bilmərik. Arzu edər və ya dəvət edə bilərik. Tam tərsi bütpərəstlər qalxıb bütpərəst, yəhudilər yəhudi, xristianlar xristian olmalarını tələb etsələr orda birlik və ədalətdən bəhs etmək mümkün deyildir. Çünki istər idarədə, istər cəmiyyətdə, hər kəs inandığı şəkildə yaşamağa azaddır. Bu ixtiyarı onlara Allah vermişdir.* Hər kəsin cəhənnəmə getmə hürriyyəti vardır.

## *C. SÜNNİ VƏ ŞİƏNİN DÖVLƏT ANLAYIŞI ARASINDAKI FƏRQ

Sünni və şiələrin etiqadları və İslamı qəbul etmələri, tarix boyu bir-birindən fərqli iki xüsusiyyətlər zəncirinin təsiri altında və iki fərqli irəliləmə mərhələsi izləmiş; həm sosial həm siyasi həm də mədəniyyət yönündən fərqli iki platformada yaşamalarıdır. Bu səbəblə onların dini şəxsiyyət və psixologiyası ilə məzhəbçi düşüncə və hissiyatları da fərqlidir.[40]

Muhamməd Cəvad, “Muğniyə əş-Şiə vəl-Hakimun” adlı əsərində sünni və şiələr arasında siyasi düşüncənin fərqliliyini belə izah edir:

---

[39] İbn Kəsir, əl-Bidayə vən-Nihayə 4 c. 9 b. 492-518 s.)

[40] Muhamməd Məscidi Camii, ‘Əhli sünnə və şiədə siyasi düşüncənin kökləri’’, s. 1.

Əhli-sünnə alimlərin çoxu zalım da olsa idarəçiyə itaəti, onların zülüm və əziyyətinə səbri vacib olaraq qəbul etməkdə və üsyanı uyğun görməməkdədir. Fəqət şiə zülüm və fəsada qarşı çıxmağı vacib olaraq görməkdədir. Bilavasitə Şiə bu mövzuda əhli- sünnəyə müxalifdir. Əhli- sünnə alimlərinin çoxuna görə zalim idarəçilərə üsyan etmək dindən çıxmaqdır. Şiəyə görə isə, zalım idarəçiyə itaət və zülmə səbr etmək dindən çıxmaqdır. Həsən Bəsri şiələr haqqında belə demişdi: Şiə, mahiyyəti ecabı batılın qarşısında yer almağı və haqqa nail olmaq üçün fədakarlıq etməyi borc bilmişlər. İdarəçilərin şiələri təzyiq və işgəncə altında tutmaları və hər yerdə təqib edilmələri bu səbəblədir.

Bir şiə alim öz inanclarına dayanaraq haqlı gördüyü mövzularda, xalqın da dəstəyi ilə sistemə qarşı hərəkətə keçə bilir. Ancaq sünni alim buna müqtədir deyildir hətta caiz görməz. Məsələn, dövrümüzdə ən güclü Əzhər ünivürsitesi liderliyi İslama, xalqına hər cür xidməti tərk etmişdir.

Əhli sünnə və şiənin siyasi düşüncələrinin formalaşmasında ən mühüm faktor, iki məzhəbin İslam tarixinə baxış şəklidir. Əslində onların dini anlayışları bütün sahələrdə bu fərqli baxışın təsiri altındadır. Xüləfa Raşidin, səhabə və tabiin dövrlərinin bu iki firqənin izləyicilərini şiddətli təsiri altına almışdır. O qədər ki, Əhli sünnə İslama tamamilə tarixə mühakimə edilməz və sələfə xətada birləşməz, tənqid edilməz sübyektləri kimi baxmaqdadır. Şiələr isə əksinə, tarixin bu dövrünə mühakimə, ibrət almaq və bunun üçün də o dövrə tənqidi bir üsul sərgiləməkdədirlər. Bu səbəblə bu iki qrupun dini anlayışlarını, düşüncələrini anlamaq üçün bu nöqtəni yaxşı idrak etmək lazımdır.

Əhli-sünnənin üslubu başından xətalı olduğu üçün ifrata, əhli-şiənin üslubu başından doğru olsa da nəticəsi təfritə yol açmışdır. Əhli-sünnə idarəçiliyi siyasi bir məqam (xariciliyi çıxmaqla), əhli-şiə isə dini bir məqam olaraq görməkdədir.

Tarixi hadisələr Əhli-sünnə nəzərində ilk dövrün, Peyğəmbər səhabəsinin və Xüləfa Raşidinin icraatları dini yöndən toxunulmaz bir mövqeyə gətirilib

çıxarıldı. Onların İslami anlayışlarını bu xüsusa diqqət etmədən başa düşmənin imkansız olduğu deyilə bilir. Fıkıh, təfsir və tarixdən tutun kəlam, fəlsəfə, təsəvvuf və siyasi-dini xüsuslarda şiə və sünni arasındakı ən böyük fərqlilik bu tarixi kökdəki anlayışa bağlıdır. Hər biri digərinin inanc və düşüncələrinə öz dini tarixi baxış nöqtələrindən baxmaqdadır.[41]

*Osmandan bu tərəfə səhabələr arasındakı müharibə və mübahisələr zamanla müdafiə etdikləri tərəfləri müqəddəsləşdirmə, toxunulmazlıq donuna büründürdülər. Hər tərəf özlərinə aid olan,yaraşan xüsusiyyətləri qabağa çıxartdılar və bu yönə əyilməyə başladılar. Hər tərəf özlərini dəstəkləyəcək ayələrə, hədislərə müraciət etdilər. Tapmadıqları yönlərinə ya ayələri yozdular, ya da hədislər uydurdular. Bir-birlərinə düşmənçilikdə də tənqid və təhqirdə də eyni metoddan istifadə etdilər.

Əhli-sünnə səhabəni ulduzlaşdıraraq, bütün elədiklərində haqlı səbəblər göstərməyə çalışaraq, onlara məsumiyyət qazandırmışlar. Müsəlmanların səhabələrə qoyduğu hörmətdən istifadə edərək o dövrdə yaşayan imanlı hər kəsi səhabə donuna bürümüşlər. Olanları müdafiə metoduyla oldu-bitdiyə götürmüş, tarixi məhkum edərək əhəmiyyətinin və dəyərinin olmadığını ifadə etmişlər. Əvvəlki idarəçiləri və insanları mühakəmə etmə qorxusu özlərini mühakəmə etmə qorxusundan irəli gəlir. Bu səbəblə hadisələri mühakimə edənləri sevməz, ən çox mühakimə edən şiələri də fasiqliklə ittiham edərlər.

Əlbətdə Şiələr öz ruhi instinklərinə görə, müsbət nöqtələri deyil, mənfi nöqtələri görməkdədirlər. Bu mənfi nöqtələri alıb, bütövlükdə beyinlərinə yerləşdirdiyi mənfi obrazlara və onların müsbət yönlərini müdafiə edənlərə qarşı intiqam içində olurlar. Onlara görə bu tarix zülüm və haqsızlıqlar tarixidir. Özbaşnalıq, qan, göz yaşı, dinsizlik və dini istismar tarixidir. İqtidar sahiblərinin və sərvət

[41] Məhəmmədrza əl-Müzəffər, e.g.ə. s.1.

yığanların göy üzünə uzanan saraylarının altına basdırılmış olan adsız qurbanların tarixidir.

Biri tarixə ucalıq və ehtişam yönüylə baxdığı halda, digəri ədalət və dindarlıq yönüylə baxmaqdadır. Bu iki təsvirin nə qədər fərqli olduğunu görürük. Mühüm olan hansının doğru əyri olduğu deyil; mövzumuz tarixə bu iki şəkildə baxmanın necə fərqli nəticələr meydana gətirməsidir.

Hakimiyyətdə, idarəçilikdə Əhli- sünnənin əsas aldığı faktor ədalət deyil, güvənlikdir. Şiədə isə ədalətdir. Bu yönüylə şiə, idarəçiliyə doğru, İslami bir çərçivədə baxmaqla birlikdə, dövlət idarəsinin dini bir məqam olma şərtinə bağlamasında isə xətalıdır.*

**Bir-tərəfli mühakimə**

Abdurrazığın tarix haqqındakı düşüncəsindən nümunələr:

Xilafət həmişə müsəlmanlar üçün bir bəla olmuş və olmaqdadır. İslam Allahın bütün bəşəriyyətin xilası və səadəti üçün göndərdiyi ilahi bir çağrıdır. Dünyanın qərbindən şərqinə,ərəbindən əcəmisinə, alimindən cahilinə göndərdiyi bir çağırış...İslam bir ərəb çağrısı, ərəb birliyi və dini və ya hakimiyyəti deyildir. İslama görə hər hansı millətin bir başqa millətə, hər hansı bir dövrün başqa bir dövrə üstünlüyü yoxdur. Üstünlük ancaq təqva ilədir. Müsəlmanlar arasında xilafətin dini bir mövqe və Peyğəmbərə vəkalət olduğu düşüncəsi sonradan yayılmışdır. Bu xata idarəçilərin də işinə gəldi. Müsəlmanları azdıraraq körlaşdırdılar, qul etdilər. *Əvvəl müsəlmanların əmiri ikən, sonra Rəsulullahın xəlifəsi oldular. Bu da bəs olmadı sonradan gələnlər özlərini Allahın xəlifəsi olaraq gördülər.*

Sünnilərin idarə ilə əlaqəli fikirləri, Quranın, Peyğəmbərin (s.a.v.) sünnəsinin və bəzən də səhabənin mirasının təsiri altındadır. Fəqət idarəçi ilə əlaqəli fikirləri

ümumiyyətlə İslam tarixinin (dörd xəlifə və sonrakı) ilk dövrlərinin tarixi və siyasi şərtlərinin təsiri altındadır.

Şiələr isə Peyğəmbərin özündən sonra əmirliyi Əliyə (r.a.) verdiyini vurğulayır və buna şübhəsiz inanırlar. Ancaq əhli sünnə bu cür vəsiyyətin olmadığına və hətta şiə tərəfdarı sünnilər belə bu mövzudakı dəlillərin Əlinin (r.a.) xəlifəliyini əmr etdiyini ifadə etməz deyirlər. Qısaca, Şiəyə görə imamət və xilafət mövzusunda məsələ şəxsdən çox məqam və xüsusiyyətdir. İmam o xüsusiyyətləri üzərində daşıyan insandır. Fəqət Əhli-sünnəyə görə vəziyyət tamam fərqlidir. Əvvəl məqamın sahibi müəyyən edilir,sonra da məqamın çərçivəsi çəkilməkdədir.

Əlbətdə teokratik idarəçilərə xidmət məqsədiylə bir çox fərqli firqələrdə Əməvilər dönəminin əvvəllərindən özünü göstərməyə başladı. Bunlardan: *Cəbrilik nə üçünlərin qarşısını almaq, idarəçilərin törətdiklərinin məsuliyyətsizliyini ortadan qaldırmaq üçün, ərəblərin cahili inanclarını yenidən xortlatdılar. Alın yazısı ərəb cahiliyyəsində məşhur idi. Təəssüf ki, əhli-sünnəyə də bu yeridilmişdir.* Xalq, idarəçilərin zülümlərinə etiraz etməməsi üçün yenidən ortaya atılmış bu əqidə (qəza-qədər) ən təsirli üsullardan biridir. Ali b.Hüseyin (Zeynəlabidin) İbn Ziyada mənim adımdakı qardaşımı əsgərlər öldürdü deyəndə, İbn Ziyad,"Xeyr Allah onu öldürdü" dedi. Seyyid "Allah ölümləri vaxtında canları alır."(Zümər 42) deyə cavab verir.[42]

*Mürciyə: Xariciliyin ifratına bir təfrit olaraq ortaya çıxdı. Əməvilərin, İdarəçilərin və zövqi səfasına düşmüş, nəfsinə uymuş bütün fasiqlərin işinə gələn bir düşüncə göyərdi. "Əməl imandan ayrıdır"[43] və bilavasitə "əməl imana zərər verməz" fikri Əhli-sünnədə də göyərən yara olub hələ də qanamaqdadır.* Bu düşüncə bütün fasiqləri toxunulmazlıq qazandırır və nəticədə cənnətə

---

[42] İbn Cərir ət-Təbəri, " Əl-Bidayə vəh-Nihayə"

[43] *"Əməl imandan ayrıdır" sözü bir mənada doğrudur ancaq səhv düşüncələrə yol açır. Əməllə iman, "bədən və ruh" kimidir. Bunlar fərqli olsalar da, bir arada olduqları vaxt bir dəyər, canlılıq ifadə edər. Bunların varlığı bir-birinə möhtacdır. Eyniylə İman və əməl kimi...Əməlsiz imanın bir dəyəri olmadığı kimi, imansız əməlin də bir dəyəri yoxdur!*

göndərirdi. Bu gün də üzdən iraq bir çox müsəmanların  fasiqliklərində bu düşüncənin böyük payı vardır.

Əhli-sünnə hər cür pisliyi, cinayəti törədən birinin imamlığı caizmi, deyilmi sualında ilişib qaldılar. Tək bir həlli vardı bunun; ədalət qaidəsinin inkar edilməsi. Və bu qaidəni qaldırdılar. Tamamilə deyil, Peyğəmbər zamanında yaşayanlardan və idarəçilərdən qaldırmışdılar.

Əşarilər ədaləti ən üstün məfhumlardan biri olmaqdan çıxarıb elə bir səviyyəyə endirdilər ki, hər cür pis və zalım hərəkətlə uyğunlaşan bir şeyə çevirdilər.

İbn Hənbəl "Adil ya da zalım əmirlərlə cihada çıxmaq qiyamət gününə qədər səhihdir. Onları qınamaq və qarşı çıxmaq heç kimin həddinə deyildir. Zəkatları onlara vermək lazımdır. Verməyən təmizlənməmiş deməkdir.

Şiələr ədalət şərtini qaldırmamaq şərtiylə cümə və camaat namazına qatılmışlar. Onların bu hərəkətləri H. Bəsrinin və bir çox əhli-sünnənin görüşlərinə uymaqdadır. H.Bəsri: "Mümin birinin, münafiq birinin arxasında qıldığı namaz qılana zərər verməyəcəkdir. Eyni şəkildə münafiq birinin, mümin bir kimsənin arxasında qıldığı namaz da ona bir fayda saxlamayacaqdır."

İbn Hazm: "U. b. Ziyadın və Həccacın arxasında namaz qılmaqdan uzaqlaşan bir səhabə tanımırıq. Heç bir yaxşılıq namazdan, namazı məscidlərdə qilmaqdan yaxşı deyildir. Dəvət edildiyi yeri tərk caiz deyildir. Heç bir günah da namazları və məscidləri buraxmaqdan pis deyildir. Biz namaza, oruca, cihada çağıranlarla bərabər olacayıq. Amma bizi günaha çağırana qatılmayacayıq, ona kömək etməyəcəyik. Bunlar  Əbu Hənifə, Şafii və Əbu Süleymanın görüşləridir.

Müsəlmanlar tarixləri boyu digər üçüncü dünya ölkələri kimi, daim idarəçilərin təzyiqindən və boyunduruqluğundan izdirab çəkmişdir. Təzyiqin ən böyüyü qanunları çeynəmək, özünü qanun olaraq görməkdi. Bu səbəblə hər istədiyini eliyir və bu elədiklərini haqlı göstərəcək əyyanları yanında tuturdu. Son ictimai-

siyasi, texnoloji irəliləmər və insan haqları məfhumları ilə əzilmiş, aşağılanmış bir çox xalqların gözləri açılmağa, haqlarının alındığını hiss etməyə başladılar.[44] *Ancaq zehni iti və gücü əlində tutan zalımlar hələ də insanları öz oyunlarının, məqsədlərinin bir parçasına çevirməkdən əl çəkmirlər. Bunlara da Allah cəhənnəmə getmə hürriyyəti vermişdir. Ədalət gec və ya tez yerini tapacaqdır. Allah Təala: "Xeyirli aqibət möminlərindir" buyurur. Hər kəs elədikləri ilə Allahın hüzuruna çıxacaqdır. Onu ki, aldatmaq mümkün deyildir!*

## 7 - ORDU-MİLLƏT HƏMRƏYLİYİ

70. Milləti ordusuz, ordunu da millətsiz təsəvvür etmək mümkün deyildir. Ordu və millət ət və sümük kimi bir-birinə möhtacdır. Ət ilə sümük arasına mikrob girərsə, bədəndə dayanılmaz ağrılar baş verər. Ordu ilə millətin arasına yad ünsürlərin girməsi də eyni nəticəni doğuracaqdır. Yad ünsürlər deyərkən ikiüzlü insanlar nəzərdə tutulur. Onların nə orduya, nə də millətə faydası vardır. Onlardan bir qismi ordunun, digər bir qismi isə millətin mövqeyini müdafiə etdiklərini iddia edərək bir tərəfi digərindən qoparmağa çalışırlar.

Ordu mənsubları ilə elm adamları həqiqətləri rahat qəbul edən bir xaarakterə sahibdir. Çünki hər iki sahəyə mənsub məslək sahibləri də yalandan, saxtakarlıqdan uzaqdır. Ancaq onlar heç kimi aldatmadıqları üçün başqalarının da onları aldada bilməyəcəklərini zənn edirlər. Aldadıldıqlarını başa düşdükləri vaxt isə iş-işdən keçmiş olur. *Bu səbəbdən, dövlət çox vaxt ordunu rahatlıqla aldadaraq, öz xalqına qarşı belə yönəldə bilir.*

İkiüzlülər bulanıq suda balıq ovlamağı xoşladıqları üçün ortalığı qarışdırmaqda mahirdilər. Xalqı onların səmimi olmadıqlarına inandırmaq çətindir. Bu səbəblə onlara qarşı mübarizə həssas, məqsədyönlü və davamlı olmalı, onları cəsarətləndirəcək, istismarçı davranışlarına fürsət verəcək hərəkətlərə yol

[44] Məhəmmədrza əl-Müzəffər, e.g.ə. s. 20.

verilməməlidir. Bu baxımdan dövlət məsuliyətli davranmalı və belə insanların ordu-millət həmrəyliyinə kölgə salmasının qarşısını almalıdır.

71. Riyakarlar ordu mənsublarının xoş niyyətindən sui-istifadə etmək üçün əllərindən gələni əsirgəmirlər. Onlar elm xadimlərinin bir qismini öz tərəflərinə çəkməkdə də çətinlik çəkmirlər.

Quranı Kərimdə ikiüzlülərlə, münafiqlərlə əlaqədar çox sayda xəbərdarlığa yer verilmişdir. Onlardan birində deyilir:

***"Ey iman gətirənlər! Sizdən olmayanı özünüzə sirdaş seçməyin, onlar sizi çaşdırmaqdan əl çəkməzlər. Sizə sıxıntı verən şeylərdən xoşları gəlir. (Sizə qarşı bəslədikləri) ədavət onların ağızlarından çıxan szölərdən aşkar olur,ürəklərində gizlətkləri (nifrət) isə daha böyükdür. Əgər düşünüb dərk edirsinizsə, (onların sizə bəslədikləri ədavətlə bağlı) əlamətləri sizin üçün açıq şəkildə izah etmişik.***

***Siz elə insanlarsınız ki, onları sevirsiniz, amma onlar sizi sevmirlər. Siz bu Kitaba (Quranın) bütünlüklə inanırsınız. Onlar sizinlə rastlaşdıqları zaman: "(Biz də) inandıq!" – deyir, xəlvətdə qaldıqda isə sizə qarşı qəzəblərindən dırnaqlarını gəmirirlər. De: "Hirsinizdən çatlayın!" Əlbəttə, Allah ürəklərdə olanları biləndir.***

***Sizdə bir yaxşılıq üz verəndə onlar qəmgin olur, bir pislik toxunanda isə ona sevinirlər. Əgər səbr edib özünüzü qorusanız (yaxud təqvalı olsanız) onların hiyləsi sizə heç bir zərər yetirməz. Çünki onlar nə edirlər etsinlər, Allah onları (elm və qüdrəti ilə) əhatə etmişdir!" (Əl-i İmran 3/118-120)***

Bəşəriyyət tarix boyunca ən böyük sıxıntıları ikiüzlülərdən çəkmişlər. Onlara münafiq deyilir. Onlar inanmadıqları halda inanmış kimi görünürlər. Onların bir qismi dürüst insanları heyran edəcək bir xaraktera bürünməyə qadirdir. Necə ki,

onların içində Həzrət Məhəmmədi (s) belə heyrətə salanlar olmuşdur. Uca Allah buyurur:

***“Onları gördüyün vaxt görkəmləri xoşuna gəlir. Danışanda sözlərinə qulaq asırsan. Onlar (divara) söykədilmiş çürük kötüklər (müqəvva) kimidirlər; hər qışqırığın öz əleyhlərinə olduğunu zənn edərlər. Düşmən məhz onlardır. Onlardan qorun. Allah onların canlarını alsın, necə də (haqdan) döndərilirlər!” (Münafiqun 63/4)***

72. Ordu ilə milləti bir-birindən ayırmaq, onların arasına ədavət toxumları səpmək istəyənlərin işlərini asanlaşdıran bir diqqətəlayiq məqam da vardır. Ordu mənsublarının qərargahları, yaşayış, iaşə, əyləncə və istirahət yerləri ayrıdır. Kişi vətəndaşlar həyatlarının çox qısa bir dövründə əsgər, yaxud ehtiyatda olan zabit kimi ordu mənsubları ilə tanışmaq fürsəti qazanırlar. Orada da vəziyyətlə əlaqədar olaraq münasibətlər hərbi disiplin çərçivəsində qurulur. Bu tərz münasibətlər ilk baxışda hərbi personalı bəzi xarici qüvvələrin təsirindən qorusa da, xalq ilə ordu arasında məsafə yaradır və həmrəyliyə əngəl olur.

Ordu xalqın ordusudur. Beləliklə, xalqın ordusu ilə sıx münasibətlər qurması, qarşılıqlı dəstək və etibarın artaraq davam etməsi baxımından çox mühümdür. Bunun sayəsində ordu xalqını, xalq da ordusunu arada vasitəçi olmadan tanımaq fürsəti qazanacaqdır.

Bir şeyi də unutmamaq lazımdır ki, bundan zərər görəcək ikiüzlülər və onların əlaltıları ordu-millət həmrəyliyinin qarşısını almaq üçün əllərindən gələni edəcəklər. Çünki bu onların oyunlarını pozacaq, artıq istədikləri kimi nifaq sala bilməyəcək və milləti ordusundan ayırmaq ümidini itirəcəklər. Məhz o zaman ordu-millət həmrəyliyi bütün aydınlığı ilə özünü göstərəcəkdir.

Dövrümüzdə müharibələrin yalnız sərhədlərin deyil, bütünlüklə torpaqların müdafiəsini labüdləşdirməsi və torpaqların bütün vətəni (dövlətin quru, su və hava sahəsini bütövlüklə *tərc.*) əhatə etməsi həqiqəti də real olaraq bu

həmrəyliyi zəruri edir. O zaman düşmənlərin bu ölkə üzərində hiylə və planlar qurmaq imkanları da əllərindən alınmış olacaqdır. Bu həmrəyliyin nə qədər faydalı olduğu terrorla mübarizə təcrübəsində də özünü göstərmişdir.

# İKİNCİ HİSSƏ

# MÜQƏDDƏS KİTABA VƏ QURANA GÖRƏ

# TEOKRATİYA VƏ LAİSİZM

## 1-MÜQƏDDƏS KİTAB VƏ TEOKRATİYA

73. Teokratiya yunanca theos (tanrı) və kratein (hökmetmə) sözlərindən düzələn mürəkkəb bir sözdür.[45] Hakimiyyəti Tanrıya, yaxud Tanrı iradəsinə isnad edən üsuli-idarələr (dövlət quruluşları) bu adla adlandırılır. Bu siyasi ideologiyaya görə krala və hökumətlərə itaət Tanrıya itaətdir. Onlara qarşı itaətsizlik Tanrıya qarşı itaətsizlikdir. Çünki kral, hökumətlər və valilər (yerli icra hakimiyyəti başçıları) Tanrı tərəfindən təyin edilir və onun tərəfindən vəzifəyə gətirilirlər.

Bu siyasi düşüncə Müqəddəs Kitaba isnad edilə bilər. Amma Quran belə bir dövlət quruluşunu qəbul etmir.

### A-ƏLAQƏDAR MƏTNLƏR

74. Müqəddəs Kitab Əhdi-ətiq (Qədim əhd *tərc.*) və Əhdi-cədiddən (Yeni əhd *tərc.*) ibarətdir. Tövrata Əhdi-ətiq, İncilə isə Əhdi-cədid deyilir.

75. İncildə teokratiyanı nəzərdə tutan mətnlər vardır. Tövratda isə bu mənaya gələbiləcək bircə ifadə yer alır. Tövratın ifadəsi belədir:

---

[45] Mümtaz Soysal, Konstitusiyaya Giriş, Ankara 1968, s. 16.

Süleyman dedi: "Ey oğlum, Rəbbdən və kraldan qorx. Qiyamçılara qoşulma!"[46]

İncil isə iki yerdə teokratik quruluşun bərqərar olmasını əmr edir. Bu mətnlər Paulun (Pavelin) və Peterin məktublarında yer alır.

**a-Paulun Romalılara məktubu**

76. Paulun məktubunda deyilir:

"Hər kəs təbəəçiliyində olduğu hakimiyyətlərə tabe olsun. Çünki, Allah tərəfindən təyin olunmayan hakimiyyət yoxdur; mövcud olan hakimiyyətlər Allah tərəfindən təyin edilmişdir. Buna görə də hakimiyyətə qarşı çıxan Allahın təyin etdiyinin əleyhinə çıxır və əleyhinə çıxan beləlıəri özlərini mühakiməyə düçar edir. Çünki yaxşı iş görənlər deyil, pis iş görənlər hökmdarlardan qorxmalıdır. İstəyirsənmi hakimiyyətdən qorxmayasan? Yaxşı iş gör, onda o səni tərifləyər. Hökmdar sənin xeyrin üçün Allaha xidmət edir. Amma pis iş görürsənsə, qorx! Çünki o əbəs yerə qılınc daşımır, Allaha xidmət edir ki, pis iş görəndən qisas alsın və Allahın qəzəbini onun başına gətirsin. Bu səbəbdən yalnız qəzəbə görə deyil, vicdanın xatirinə də hakimiyyətə tabe olmaq lazımdır".[47]

**b- Peterin 1-ci məktubu**

77. Peterin 1-ci Məktubunda aşağıdakı ifadələr yer alır:

"İnsanın yaratdığı hər quruma Rəbb naminə tabe olun; həm ali hakimiyyət olduğuna görə padşaha, həm də pislik edənləri cəzalandırmaq, yaxşılıq edənləri də tərifləmək üçün onun tərəfindən göndərilən valilərə tabe olun. Çünki Allahın iradəsi yaxşılıq edərək axmaqların cahiliyyini susdurmağınızdır. Azad insanlar kimi yaşayın, amma azadlığınızı pislik etmək üçün bəhanə saymayıb Allahın

---

[46] Bibliyanın ana dilimizə tərcüməsində sözügedən ifadə belədir: *"Oğlum, Rəbbdən və padşahdan qorx, xəyanətkarlarla yoldaş olmaqdan çəkin"*. Müqəddəs Kitab, Süleymanın məsəlləri, XXIV/21.
[47] Müqəddəs Kitab, Paulun Romalılara məktubu, XIII/1-5.

qulları olaraq yaşayın. Hamıya hörmət edin. İmanlı bacı-qardaşları sevin. Allahdan qorxun, padşaha hörmət edin”.[48]

## B-TEOKRATİYA İLƏ ƏLAQƏDAR ŞƏRHLƏR

78. Xristian mütəfəkkirlərindən Jean Calvin və Stephanus Junius Brutusa görə xristianlıq teokratik üsuli-idarənin bərqərar edilməsini əmr edir.

a-Jean Calvinin şərhləri

79. Calvin Müqəddəs Kitabın yuxarıdakı ifadələrini belə izah edir:

“Peter “Padşaha hörmət edin!”, habelə Süleyman “Oğlum, Tanrıdan və padşahdan qorx!” deyərkən bizdən bir şey tələb edir. Çünki, birincisi, hörmət ifadəsi ilə könüldən və həqiqi bir hörməti nəzərdə tutur. İkincisi, padşahı Tanrıyla bərabər xatırladaraq onun bir növ müqəddəs ucalıq və dəyərlə təmin edildiyini göstərir.

Paulun önəmli buyruğunu da unutmamalıyıq. Onun “Bu səbəbdən yalnız qəzəbə görə deyil, vicdanın xatirinə də hakimiyyətə tabe olmaq lazımdır” ifadəsi ilə bəyan etmək istədiyi budur ki, şahzadələrə və dövlət məmurlarına itaət sadəcə qorxudan irəli gəlməməli, eyni zamanda Tanrıya itaət olduğu dərk edilərək həyata keçirilməlidir. Çünki onların iqtidarı da Tanrıdan qaynaqlanır...

Paul deyir: “Hər kəs təbəəçiliyində olduğu hakimiyyətlərə tabe olsun”. Beləliklə, kim hakimiyyətə qarşı çıxarsa, Tanrının nizamına qarşı çıxmış olur.

80. Bu xüsusda heç kim özünü aldatmasın. Tanrıya qarşı çıxmadan, iqtidar sahiblərinə qarşı çıxa bilmərik. Çünki silahsız bir hakimiyyət üsyankarları cəzalandıra bilməyəcəyi üçün, xor görülsə də, Tanrı silahlıdır və bu laqeydliyin intiqamını dərhal alacaqdır.

İtaət anlayışı altında bu ünsürləri görürük:

---

[48] Müqəddəs Kitab, Peterin 1-ci məktubu, II/13-17.

Fərdlər ictimaiyyətlə əlaqədar mövzularda özlərini səlahiyyətli görməməli, dövlət işlərinə qarışmamalı, idarəedicilərin səlahiyyətinlərə daxil olan işlərə müdaxilə etməməli, ümumiyyətlə, ictimaiyyəti maraqlandıran hər hansı fəaliyyətə özbaşına təşəbbüs göstərməməlidirlər. İctimai nizam-intizamla bağlı həll olunması gərəkli olan bir problem varsa, iğtişaş törətməməli, səlahiyyətlərinə daxil olmayan bir işə girişməməlidirlər. Bu sahədə səlahiyyətləri məhdud olmayan yeganə şəxs hakimiyyət təmsilçisidir. Demək istədiyim budur ki, fərdlər onlara bir əmr verilməmiş heç bir işə təşəbbüs göstərməsinlər. Çünki idarəedicinin əmr verəcəyi təqdirdə onlar da ictimai nüfuz ilə səlahiyətləndirilmiş olacaqlar...

81. Dövləti ictimai mənafeləri nəzərə alaraq idarə edən hakimiyyətlər, Tanrının hakimiyyətinin həqiqi nümunələridir. Diktatorlar və müstəbidlər də öz növbəsində Tanrı tərəfindən günahkar insanları işlədikləri günahlarına görə cəzalandırmaqla mükəlləfdirlər. Onlarda da qanuni gücü Tanrıdan aldıqlarını göstərən bir əzəmət vardır...

Şərəf və ləyaqətdən tamamilə məhrum olan, ən xoşagəlməz xüsusiyyətlərə sahib olan bir şəxs belə əgər ictimai səlahiyyətlərə malikdirsə, deməli, o müqəddəs iqtidarla təmin edilmişdir və beləliklə, xalqının (təbəələrinin) itaəti baxımından, kralların ən yaxşısı kimi şərəfə və hörmətə layiqdir.

Xasiyətləri nə olur olsun, bu hörməti, hətta bu dini bağlılığı bütün idarəçilərimizə sonuna qədər göstərmək məcburiyyətindəyik. Bunu tez-tez təkrar edirəm ki, insanları tək başlarına ələ almamağı öyrənək. Onların mənliklərində Tanrının kərəmiylə sarsılmaz qüdrət və gücün olduğunu kifayət görək…

82. Pislikləri aradan qaldırmaq bizə düşməz. Üzərimizə düşən yeganə vəzifə bütün kralların qəlbləri və iradələri əlində olan Tanrıdan kömək istəməkdir...

Tanrının qarşısında Onun müqəddəsləşdirdiklərini təqdis etməyən, mühakimə edilən zəifləri əzmək (hüquqlarını tapdalamaq) üçün ədalətsiz qanunlar qəbul

edən, yoxsul insanlara zülm, dul qadınlara haqsızlıq, yetimlərə əziyyət edən yer üzünün bütün kral və hakimləri sonunda taxt və kürsülərindən endiriləcək və zəlil olacaqdır”.[49]

b- Stephanus Junius Brutusun şərhləri

83. Brutus bu mövzuda belə deyir: “Müqəddəs Kitab Tanrının öz səltənəti ilə, kralların isə Tanrıdan aldıqları səltənətə əsaslanaraq hökm etdiklərini, əsil suverenliyin Tanrıya məxsus olduğunu, kralların isə onun təmsilçiləri olduqlarını bəyan edir.[50]

Kral hakimiyyətini Krallar kralı Rəbbimiz Tanrıdan öz xalqı üçün ədaləti bərqərar etmək və onları bütün düşmənlərinə qarşı qorumaq məqsədi ilə almışdır...

Kralların tacqoyma mərasimində iki cür sözləşməyə şahid oluruq: Biri xalqın Tanrının xalqı olduğuna dair Tanrı ilə kral və xalq arasında; ikincisi, xalqın sədaqətlə itaət, kralın da ədalətlə hökmdarlıq edəcəyinə dair kralla xalq arasındadır”[51].

## C- KİLSƏ VƏ TEOKRATİYA

84. Kilsə teokratik sistemin ən fundamental təsisatıdır. Çünki bu sistemdə kralı, hökumətləri və valiləri (yerli icra hakimiyyəti başçılarını) təyin edən və vəzifəyə gətirənin Tanrı olduğuna inanılır. Xristianlara görə Tanrı - Ata, Oğul və Müqəddəs Ruh üçlüyündən ibarətdir. Oğul İsadır. Göydə və yer üzündə bütün səlahiyyət ona verilmişdir.[52] İsa adına hərəkət etmək və qərar vermək səlahiyyəti isə kilsəyə aiddir. İsanın varlığı kilsədən əskik olmaz. Çünki kilsə onun mənəvi

---

49 Jean Calvin, Xristian dini təlimindən seçmə parçalar (Christianae religionis institutio, IV Kitab, XX Bölüm: Dövlət idarəetməsi haqqında), tərcüməçi: Şahin Alpay, Qərbdə siyasi düşüncələr tarixi - 2, Yeni Çağ. Tərtib edən Mete Tuncay, Ankara, 1969, s. 48-51.

50 Stephanus Junius Brutus, Vindiciae Contra Tyrannos (Tiranlara qarşı hüquqlar), tərcüməçi: Mete Tuncay, Qərbdə siyasi düşüncələr tarixi - 2, Yeni Çağ, Seçilmiş Yazılar, Ankara, 1969, s. 62.

51 Brutus, e. q. ə. s. 63

52 “... İsa yaxınlaşıb onlara dedi: “Göydə və yer üzündə bütün səlahiyyət mənə verilmişdir...” (Müqəddəs Kitab, Mattanın nəql etdiyi Müjdə, XXVIII/18)

varlığı ilə bütünləşmişdir[53]. Müqəddəs Ruh isə kilsəni Allahın, yəni Atanın nemәti və ərmağanları ilə doldurur və xətalardan qoruyur.[54]

85. Matta İncilinə (Mattanın nəql etdiyi Müjdə *tərc.*) görə, Həzrət İsa çarmıxa çəkilib dəfn edildikdən üç gün sonra qəbrindən çıxmış, Qalileyada 11 həvarisinə görünmüş və belə demişdir: “Göydə və yer üzündə bütün səlahiyyət mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, mən dövrün sonuna qədər hər gün sizinləyəm”.[55]

Bu tapşırıq kilsənin xristianlar arasında mövqeyini gücləndirmişdir. Hətta bir şəxsin xristianlığa qəbul edilməsi də kilsənin təsdiqi ilə gerçəkləşir. Bunun üçün vəftiz olmaq lazımdır. Vəftiz yunan dilində “suya batırmaq” deməkdir. Xristianlıq termini olaraq isə İsanın mənəvi vücudu ilə birləşməyi və Müqəddəs Ruhla yenidən doğuluşu ifadə edir. Vəftiz xristian olmağın ilk şərtidir. Bir kilsədən digərinə keçmək də vəftizlə baş verir.[56]

86. Xristian dünyasında ən çox mənsubu olan məzhəb Katolik məzhəbidir. Bu məzhəb özünü Peterə bağlı hesab edir. Ruhani başçı Papadır. Papa İsanın vəkili və Peterin xələfidir. Papa səhvdən, nöqsandan uzaq bir avtoritet, kilsə isə ümumbəşəridir. İnanca görə, kilsədən qeyri qurtuluş yolu yoxdur. Roma digər kilsələrin ruhani mərkəzidir və hamısından üstündür. Kilsə Müqəddəs Ruh tərəfindən istiqamətləndirilir və idarə edilir. Müqəddəs Ruh, Ata və Oğuldan qaynaqlanır. İncil yalnız kilsə tərəfindən şərh edilə bilər.[57]

---

[53] Günay Tümər.Abdurrahman Küçük, Dinlər Tarixi, Ankara 1993, s. 263.
[54] Tümər Küçük e. g. ə. s. 256.
[55] Mattanın nəql etdiyi Müjdənin son cümlələri olan “İsa şagirdlərinə tapşırıq verir” başlıqlı bu hissənin başlanğıcı belədir: “On bir şagird Qalileyaya, İsanın onlara təyin etdiyi dağa getdi. İsanı gördükdə Ona səcdə qıldılar. Bəzisi isə şübhə etdi. İsa yaxaınlaşıb onlara dedi: “Göydə və yer üzündə bütün səlahiyyət mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, mən dövrün sonunadək hər gün sizinləyəm”. (Müqəddəs Kitab, Mattanın nəql etdiyi Müjdə, XXVIII/16-20)
[56] Tümər, Küçük, e. g. ə. s. 268.
[57] Tümər, Küçük, e. g. ə. s. 270.

87. Teokratik quruluşda kralı, hökumətləri və valiləri təyin etmək və vəzifəyə gətirmək səlahiyyəti kilsəyə məxsusdur. Çünki kilsə Tanrı adına hərəkət edir və Ona aid olan səlahiyyəti həyata keçirir. Lakin kilsə bu xüsusda heç bir məsuliyyət daşımır. Onsuz da Müqəddəs Ruhun kilsəni xətalardan qoruması[58] inancı onları məsuliyyətdən tamamilə azad edir.

88. Beləliklə, teokratiyani belə bir təriflə izah etmək lazımdır: "Teokratiya hakimiyyəti kilsənin iradəsinə həvalə edən idarə üsuludur. Bu quruluşda kralı, hökümətləri və valiləri (yerli icra hakimiyyəti başçılarını) təyin edən və vəzifəyə gətirən kilsədir".

## 2-QURAN VƏ TEOKRATİYA

89. Quranda dövlət başçısı, idarəedicilər və dövlət quruluşu ilə əlaqədar xüsusi bir hökm yoxdur. Bu mövzuda Həzrət Məhəmməd (s) tərəfindən də bir əmr və tövsiyə verilməmişdir. Bu, idarəedicilərə, rəhbərlərə müqəddəslik verilmədiyini, onların heç bir mövzuda toxunulmaz sayılmadığını göstərir. Teokratiya bu düşüncəyə zidd olaraq Allahın iqtidar səlahiyyətinin bir təsisata həvalə edilməsi və ya onunla paylaşılması mənasını daşıdığına görə bu səlahiyyəti həyata keçirənlərin məsum, müqəddəs və toxunulmaz olmasını zəruri edir. Qurana görə belə bir davranış şirkdir. Uca Allah belə buyurur:

***"De: "Özünə övlad götürməyən, mülkündə (səltənətində) şəriki olmayan, acizlik səbəbi ilə bir dosta (hamiyə də) ehtiyacı olmayan Allaha həmd olsun!" Onu ucaltdıqca ucalt!" (İsra 17/111)***

Qurana görə Peyğəmbərlər belə gördükləri işlərə görə məsuliyyət daşıyır. Uca Allah belə buyurur:

***"Özlərinə elçi göndərilənləri mütləq sorğu-suala çəkəcək, o elçiləri də, şübhəsiz, sorğu-sual edəcəyik.***

---

[58] Tümər, Küçük, e. g. ə. s. 256.

***Sonra da (nə etdiklərini)özlərinə bildiyimiz üçün başa salacağıq. Axı Biz qaib (uzaqda) deyildik.***

***O gün çəki (əməllərin tərəzidə çəkilməsi) haqdır. Kimlərin tərəziləri (yaxşı əməlləri) ağır gələrsə, məhz onlar nicat tapanlardır!***

***Kimlərin tərəziləri yüngül gələrsə, əhz onlar ayələrimizə haqsızlıq etdikləri üçün özlərinə zərər verənlərdir". (Əraf 7/6-9)***

Teokratiyada idarəedicilərin zülmkarlığı onların günahı deyil, Allahın insanları cəzalandırması kimi qələmə verilir. Halbuki, Allah zalımlardan uzaq durmağı əmr edir. O, belə buyurur:

***"Zülm edənlərə meyl etməyin, yoxsa o atəş sizə də toxunur. Sizin Allahdan başqa vəliniz (dostunuz, himayədarınız) yoxdur. Sonra sizə (dünyada da, axirətdə də) kömək olunmaz!" (Hud 11/113)***

Haqsızlıq edən (başqasının hüquqlarını pozan) kim olursa-olsun, haqsızlığa məruz qalanın (hüquqları pozulanın) yanında olmaq lazımdır. Uca Allah bu barədə belə buyurur:

***"Kim zülmə məruz qaldıqdan sonra (həddi aşmadan) haqqını tələb edərsə, onların qarşısını almaq üçün bir yol (səbəb) yoxdur.***

***Əsil, haqsız yerə insanlara zülm edənlərə, yer üzündə həddi aşanlara (fitnə-fəsad törədənlərə) qarşı bir yol (tədbir) olmalıdır. Onların payına düşən ağrılı bir əzabdır!" (Şura 42/41-42)***

Özlərinin mənfi hərəkətlərini Allahın təsdiq etdiyini ancaq Allaha şərik qoşanlar söyləyə bilər. Uca Allah belə buyurur:

***"Müşriklər dedilər: "Əgər Allah istəsəydi, nə biz, nə də atalarımız Ondan başqa heç bir şeyə tapınmaz, Onsuz (buyruğu olmadan) heç bir şeyi qadağan***

***etməzdik". Onlardan əvvəlkilər də belə etmişdilər. Elçilərin üzərinə düşən açıq-aşkar bir təbliğdən başqa nə ola bilər ki?!" (Nəhl 16/35)***

*Müşriklərin bu münasibəti əvvəlki dinlərə daxil edilmiş yanlış düşüncələrdən əmələ gəlmişdir. Bir müddət sonra bu düşüncə İslam aləminə də yol tapdı. Günahlarını başqalarına yükləmək anlayışı bütün təhrif edilmiş dinlərdə vardır! Əməvilərdən günümüzə qədər məzhəblərdə özünə yer tapan qəza və qədərin Allahdan olduğuna dair inancın imanın şərtlərindən biri olaraq qəbul edilməsi məhz teokratik dünyagörüşünün məhsuludur. Bu cür düşüncələr xalqı zülmlə idarə edən diktator rejimlərin azğınlığını, məzlumların isə istismarını gücləndirir.*

Teokratiya, insanların Allaha boyun əydikləri kimi idarəçilərə də boyun əyməsini tələb edir. Onlara itaət Allaha itaət, onlara qarşı müxalifət Allaha qarşı çıxmaq sayılır. Quran bunu da şirk sayır. Çünki onların Allahın göstərişlərinə zidd olan tələblərinə tabe olanlar, həmin məqamda onları Allahın yerinə qoymuş olur. Şirk, yəni Allahın səlahiyyətini paylaşmağa və ya paylaşdırmağa cəhd bağışlanmaz bir günahdır.

Uca Allah belə buyurur:

***"Şübhə yoxdur ki, Allah özünə şərik qoşulmasını bağışlamaz, amma bundan savayı (kiçik) olanı (digər günahları) istədiyi kimsə üçün bağışlayar..." (Nisa 4/48)***

## A- İDARƏETMƏ İLƏ ƏLAQƏDAR ÜMUMİ MÜDDƏALAR

90. Quranın dövlət idarəetməsi ilə əlaqədar müddəaları ümumbəşəridir. Onlar istənilən dövlət quruluşunda gerçəkləşdirilə bilər. Bu müddəaların həyata keçirilməməsi qeyri-sabitliyə və anarxiyaya yol açır. Onlara bilavasitə qarşı çıxmaq bəşəriyyəti çıxılmaz vəziyyətlə qarşı-qarşıya qoyur. Bu müddəaları həyata keçirən hər bir dövlət ideal bir dövlət quruluşuna çevriləcəkdir. İndi isə gəlin, onlardan bir neçəsini teokratiya ilə müqayisədə nəzərdən keçirək.

**a- Ədalət**

91. Quran qeyd-şərtsiz adil olmağı əmr edir. Bu səbəblə idarəedicilər din, irq, yaş, cinsiyyət, ictimai mövqe və s. fərqləri nəzərə almadan hər kəsə qarşı ədalətli davranmalıdırlar. Bununla bağlı əmrlər qətidir.

***“Allah, şübhəsiz, ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi (əl tutmağı) əmr edər; əxlaqsızlığı, pis işlər görməyi və həddi aşmağı isə qadağan edər. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir”. (Nəhl 16/90)***

92. Allah zalımlara boyun əyməyənləri mükafatlandıracağını bəyan edir.

***“Tağuta (istibdad rejiminə) könüllü boyun əyməkdən [59] çəkinib Allaha yönələnlər üçündür bu müjdə. Qullarımı müjdələ!” (Zümər 39/17)***

93. Teokratiyada ədalət mümkünsüzdür. Çünki bu quruluşda dövləti ictimai mənafelərə uyğun şəkildə idarə edənlər Tanrının hakimiyyətinin həqiqi nümunələri; ədalətsizliklə, istibdadla idarə edənlər isə Tanrı tərəfindən insanları günahlarına görə cəzalandırmaq üçün vəzifələndirilmiş insanlar olaraq qəbul edilirlər. Belə bir idarə üsulunda ədalət axtarmaq əbəsdir.

*Ədalət dedikdə Ömərin vəya Əlinin (Allah onlardan razı olsun!) üsuli-idarəsindən nümunə gətirmədən keçmək olmur:

Ömər (r.ə.) Azərbaycandakı valisi Sürəkə ibn Əmrə Azərbaycan xalqının hüquqlarının təminatı ilə bağlı məktubunda yazırdı:

“Bu, Əmirəlmömin Ömər ibn Xəttabın Sürəkə ibn Əmrə, Azərbaycan xalqına, obasına, dağına, yaylasına və bütün dinlərinin mənsublarına verdiyi təminatıdır. Canları, malları, dinləri və şəriətləri (qanunları) imkanları çərçivəsində verəcəkləri cizyə (vergi) qarşılığında toxunulmazdır. Uşağa, qadına, yataq

[59] Ayədə “ibadət etməkdən” ifadəsi keçir. Biz onun yerinə “könüldən boyun əymə” ifadəsini tərcih etmişik. Çünki ibadət həm zahirən, həm də qəlbən boyun əymək deməkdir. Əgər bu boyun əymə Allahın iradəsinədirsə, Ona, əks təqdirdə isə başqa bir şeyə ibadət sayılır.

xəstəsinə və ailəsinə cizyə yoxdur. Müsəlman əsgərləri gələndə onu bir gün qonaq etsin, yol göstərsinlər. Bu zimmilərdən hər hansı biri (İslam ordusunun tərkibində) döyüşə gedərsə, həmin il o şəxsdən cizyə alınmasın". O cümlədən, erməni xalqına da belə bir təminat verilmişdi.[60]

Ömərin bir başqa valisi Əbu Ubeydə Şamda bizanslıların müsəlmanlara qarşı hücuma keçdiyi ilə bağlı xəbər aldıqda Hums şəhərindən ayrılarkən vergi məmuru Həbib ibn Məsləməyə belə deyir:

"Şəhər əhalisindən topladığımız vergini geri ver. Onları qorumadan onlardan vergi toplamaq doğru olmaz. Onlara de ki, biz sizinlə bağladığımız sülh müqaviləsinə sadiqik, siz dönmədikcə, biz sözümüzdən dönmərik. Şəhərinizi qorumadan sizdən bir şey almaq istəmədiyimiz üçün malınızı sizə geri veririk".

Ertəsi gün Həbib ibn Məsləmə xalqdan topladığı vergiləri geri verərkən Əbu Ubeydənin sözlərini yerli əhaliyə çatdırır. Onlar da öz növbəsində deyirlər: "Allah bu malları təkrar sizə geri versin. Əvvəlcə, bizə hakim olan bizanslılara Allah bəla versin! And olsun Allaha, sizin yerinizdə onlar olsaydı, nəinki bizdən aldıqlarını geri qaytarmaz, hətta qalan mallarımızı da qəsbkarlıqla müsadirə edərdilər".[61]

Əlinin (r.ə.) Misirə vali olaraq göndərdiyi Malik ibn Əştərə yazdığı təlimatlarından bir neçəsini örnək göstərmək istəyirəm:

"Ey Malik, qoy, sahib olacağın ən böyük sərmayə yaxşılığa yönəlmiş işlərin olsun. Xalqın üçün məhəbbət və mərhəmət duyğuları bəslə. Onlardan uzun müddət ayrı və gizli qalma.

Əsla əfv etdiyin üçün peşman olma, cəzalandırdığın üçün sevinmə. Qüdrət, əmr və güc sahibiyəm deyib, xalqına qurdtək qənim kəsilmə. Ədalətdən əsla ayrı düşmə. Alqış və tərifi xoş görmə, bu səni təkəbbürlü edər. İnsanların yaxşısı ilə

[60] İbn Cərir ət-Təbəri, "Tarixi Üməm vəl-Muluk, 4/155.
[61] Bəlazuri, "Futuh əl-Buldan, 143.

pisi sənin yanında eyni olmasın. Verdiyin sözü tut və bil ki, bir gün sən yaradanın hüzurunda etdiklərinin hesabını verəcəksən!

Xidmətkar rəhbərlərə eşq olsun!"[62]*

**b- Hürriyyət**

94. Dinin azad iradə ilə seçilməsi Allahın dəyişməz qanunudur. Bu səbəblə bütün peyğəmbərlər azadlıq məsələsinə ciddi yanaşmışlar. Onların insanlara "Allahdan başqasına ibadət etməyin!" çağırışı məhz bu mənanı ifadə edir. Çünki ibadətin leksik mənası "itaət"dir. İtaət boyun əymək deməkdir və daha çox "əmrə riayət etmək və ardınca getmək" mənasında işlənir.[63] Türk (eləcə də azərbaycan *tərc.*) dilinə bu söz "qulluq, qul olma" və "köləlik, kölə olma" kimi tərcümə edilir.

"Allahdan başqasına ibadət etməyin" çağırışı Allahdan başqasına qul, kölə olmamağa çağırışdır. Bu səbəbdən teokratik quruluş peyğəmbərlərin bu ümumi istəklərinə, çağırışlarına ziddir. Çünki sözügedən quruluş insanları idarəedicilərin köləsinə çevirir.

Burada inanc və ibadət azadlığı ilə əqidəyə uyğun yaşamaq azadlığı xüsusi əhəmiyyət kəsb edir.

## (1)- İNANC VƏ İBADƏT AZADLIĞI

95. Dinin özəyi imandır. İmanın əsası da könüldən qəbul etmək, yəni qəlb ilə təsdiqdir. Qəlbdəki təsdiqi bir o insan, bir də Allah bilir. Bura insanın ən sərbəst olduğu yerdir. Bu səbəbdən heç bir kəs bir inancı qəbul və ya inkar etməyə məcbur edilə bilməz. Çünki bu, insanın fitrətinə ziddir. Uca Allah belə buyurur:

***"Dində məcburiyyət yoxdur; artıq doğru ilə əyri bir-birindən yetərincə ayrılmışdır. Bundan sonra kim zalımları (onların hakimiyyətini) tanımayaraq***

---

[62] Həzrət Əlidən dövlət məmurlarına öyüdlər.

[63] İbni Mənzur, Lisanul-Ərəb, Beyrut 1410/1990; Rağib əl-İsfahani. əl-Müfrədat (Safvan Adnan Davudinin təhqiqi ilə), Dəməşq və Beyrut 1412/1992, s. 529.

***Allaha inanarsa, qopmayan sağlam bir qulpdan yapışmış olar. Allah (hər şeyi) eşidəndir, biləndir." (Bəqərə 2/256)***

96. İnsanları ibadətə də məcbur etmək olmaz. Çünki, ibadət üçün niyyət vacibdir. Niyyət bir işin həyata keçirilməsinə könüllü surətdə qərar vermək deməkdir. "Əməllər niyyətlərə bağlıdır".[64] Bir ibadətin hansı məqsədlə yerinə yetirildiyini, bir o ibadəti edən, bir də Allah doğru bilir. Niyyətsiz ibadət olmadığı kimi məcburi ibadət də qəbuledilməzdir. Bir insanı məcbur edib namaz qıldıra bilərsiniz, amma niyyət etməzsə, namaz qılmamış, boşuna əyilib-qalxmış olur. Bu da, əlbəttə ki, bir işə yaramaz.

97. Müsəlman olmaq üçün bir mərasimə ehtiyac yoxdur. İnanılması vacib olan şeylərə ürəkdən inanan və Qurana riayət etməyi qəbul edən hər kəs müsəlman olur. Amma xristianlıqda dinə qəbul vəftizlə baş verir. Bu mərasim xristianı rahiblərin mənəvi təsiri altına salır. İnsanları dinə qəbul etmək səlahiyyətini Allah Həzrət Məhəmmədə (s) belə verməmişdir. O, belə buyurur:

***"Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri ən yaxşı O bilir!" (Qəsəs 28/56)***

## (2)- ƏQİDƏYƏ UYĞUN YAŞAMAQ AZADLIĞI

98. İman qəlblə bağlı bir iş olduğu üçün inanc azadlığının tanınıb-tanınmamasının bir önəmi yoxdur. Ancaq din azadlığından bəhs edilə bilər. Din deyərkən bu və ya digər bir dinin bütün əmr və qadağanları başa düşülməlidir. Bunun daha açıq ifadəsi əqidəyə uyğun yaşamaq azadlığıdır.

99. Dövlətin vətəndaşı ilə münasibətləri dini və ya ideoloji müstəvidə deyil, ədalət (hüququn aliliyi) müstəvisində olmalıdır. Müsəlmanların dövlətçilik ənənələrində əqidələrinə uyğun tərzdə yaşaması üçün şərait yaradılmış və inanclara qarşı təhqirə yol verilməmişdir. Məsələn, Osmanlı dövləti meyxana

[64] Bu hədisi-şərif "Səhih-i Buxari"nin başlanğıcında öz əksini tapmışdır.

açmağı və donuz təsərrüfatı ilə məşğul olmağı müsəlman təbəələrə qadağan etdiyi halda xristianlar üçün sərbəstlik tanımışdır. Çünki onların əqidələrinə görə bunlar günah deyildir.

Bu anlayış, tolerantlıq nəticəsində İspanyadan qaçan yəhudilərə qucaq açmış və onlar üçün rahat həyat şəraiti təmin etmişdik. Onlar bu xoş münasibətin xatirəsinə Türkiyədə "500-cü il Vəqfi"ni qurmuşlar.

**c- Ağlın imkanlarından yararlanmaq**

100. Ağıl insanı heyvandan ayırır. İnsan arzularını düzgün tənzimləyə bilərsə, müsbət nəticələr əldə edə bilər. Arzular prioritet təşkil etməyə başladığı təqdirdə isə düşüncələr, baxışlar və yanaşmalar dəyişir.

101. Quran daima ağıldan istifadəyə çağırır. Quranda "əql" (العقـــل) sözü işlənmir, onun yerinə 16 yerdə "lübb"ün (اللـــب) cəm şəkli olan "əlbab" (الألباب) sözü öz əksini tapmışdır. "Lübb" ləkəsiz saf ağıl[65] mənasını ifadə edir. Çünki mənfəətlərinin əsiri olmuş insanlar da ağıla sahibdir, amma onlar ağıllarını lazımi şəkildə işlətmirlər. İşlətsələr belə, əqli mühakimələrinin nəticələrinə güvənib onun əsasında davrana bilmirlər. Onların ağılları ləkəli və bulanıqdır. İlk növbədə ağlı arzuların əsiri olmaqdan xilas etmək lazımdır.

Quranda "əql" kökündən yaranan, ağıl işlətmək mənasını ifadə edən eyniköklü sözlər 48 yerdə keçir. Onlardan biri belədir:

***"Allah ağıllarını işlətməyənləri pisliyə düçar edər". (Yunus 10/100)***

102. Teokratik quruluş vətəndaşın ağlını işlətməməsini və heç bir işə qarışmamasını istəyir. Jean Calvinin aşağıdakı ifadələri bu həqiqəti açıq şəkildə göstərir:

"Fərdlər cəmiyyətlə əlaqədar məsələlərdə özlərini səlahiyyətli şəxs kimi görməməli, dövlət işlərinə qarışmamalı, idarəedicilərin, məmurların

[65] ər-Rağib əl-İsfahani, Müfrədat-i əlfaz əl-Quran, Beyrut, 1412/1992, s. 733.

səlahiyyətlərinə daxil olan işlərə burunlarını soxmamalı, özbaşına ictimaiyyəti maraqlandıran bu və ya digər bir təşəbbüslə çıxış edərək onu gerçəkləşdirməyə cəhd göstərməməlidirlər. İctimai quruluşda düzəldilməli olan hər hansı bir nöqsan mövcuddursa, iğtişaş törətməməli, imkanları xaricində olan bir işə girişməməlidirlər. Bu xüsusda imkanları məhdud olmayan yeganə şəxs idarəedicidir (dövlət başçısı və ya müvafiq sahə üzrə məsul dövlət məmurudur *tərc.*).[66]

Bundan fərqli olaraq Quran insanın yaşadığı cəmiyyətdə baş verən hadisələrlə maraqlanmasını, yanlış davranışlara etirazını bildirməsini tələb edir. Quranda İsrail oğullarından inkar edənlərin Davud (ə) və Məryəm oğlu İsan (ə) tərəfindən lənətləndikləri vurğulanır və bu lənətlənmənin səbəblərində biri aşağıdakı kimi açıqlanır:

***"Onlar bir-birlərini etdikləri pis əməllərdən çəkindirmirdilər. Onların gördükləri iş necə də pis idi!" (Maidə 5/79)***

Həzrət Məhəmməd (s) də bu xüsusda buyururdu: "Sizdən kim bir pis əməl görürsə, onu öz əli ilə düzəltsin. Buna gücü yetməzsə, dili ilə (öyüd-nəsihət yolu ilə *tərc.*) düzəltsin. Ona da gücü yetməzsə, qəlbən qarşı çıxsın. Bu, imanın ən zəif şəklidir".[67]

**d- Ancaq Allahdan qorxmaq**

103. Uca Allah belə buyurur: ***"İnsanlardan qorxmayın, məndən qorxun, ayələrimi ucuz qiymətə satmayın!" (Maidə 5/44)***

***"Əgər (həqiqi) möminlərsinizsə, bilin ki, əslində qorxmalı olduğunuz məhz Allahdır!" (Tövbə 9/13)***

Teokratiya idarəedicilərdən qorxmağı tələb edir. Jean Calvin bu haqda belə deyir: "Ölənin atası, xalqın çobanı, sülhün qoruyucusu, ədalətin öndəri,

---

[66] Jean Calbin, Qərbdə siyasi düşüncələr tarixi - 2, Yeni Çağ, s. 49.
[67] Səhih-i Müslim, İman, 78 (49).

günahsızların müdafiəçisi olan idarəedicinin gücünü qəbul etməyən insan haqlı olaraq dəli sayılmalıdır”.[68] Demək, bu quruluşda idarəedicidən qorxmayan və onun gücünü qəbul etməyənə dəli damğası vurulur.

**e- Xətaya qarşı çıxmaq**

104. Uca Allah belə buyurur:

***“Aranızda yaxşılığa çağıran bir dəstə olsun. Qoy, onlar doğru (məqbul) işlər görməyi əmr etsinlər və pis əməllərin qarşısını alsınlar. Məhz bunlar (belə cəmiyyətlər) nicat tapanlardır”. (Ali-İmran 3/104)***

Firon Misirdə güclü bir krallıq qurmuşdu. Xalqını özünə kölə etmişdi, onlar da ona baş əyirdilər. Allah bunu qınamış və belə buyurmuşdur:

***“Biz Musanı da dəlillərimizlə (möcüzələrimizlə) və aşkar bir səlahiyyətlə göndərmişdik;***

***Firona və onun əyan-əşrafına. Amma onlar Fironun əmrinə tabe oldular. Lakin Fironun əmri düzgün deyildi”. (Hud 11/96-97)***

Bir nəfər Həzrət Məhəmməddən (s) soruşur: “Hansı cihad daha dəyərlidir?”

Peyğəmbər belə cavab verir: “Zalım sultanın qarşısında deyilən doğru söz”.[69]

Teokratiya idarəedicilərin zalımlığını Allahın xalqı cəzalandırması sayaraq müqəddəsləşdirməkdədir. Belə bir quruluş zalım sultanın yanında deyiləcək istənilən doğru sözü səhv sayır. Çünki bu quruluşda idarəedicilərin gördüyü hər iş, atdığı hər addım doğru, onlara qarşı çıxmaq isə səhvdir. Jean Calvin belə deyir:

“...Xarakterlərindən asılı olmayaraq, bu hörməti, hətta bir dindar kimi təslimiyyəti bütün idarəedicilərimizə qarşı bütün cəhətləri ilə göstərmək

[68] Jean Calbin, Qərbdə siyasi düşüncələr tarixi - 2, Yeni Çağ, s.  49.
[69] Nəsai, Beyət, 37, Bab-i mən təkəlləmə bil-haqq ində imamin cair.

məcburiyyətindəyik... İtaətin yalnız adil idarəedicilərə qarşı göstərilməli olduğu qənaətinə gəlmişsinizsə, səhv fikirləşirsiz... Vəhşi bir rəhbər tərəfindən zalımcasına işgəncə görsək də, həris və dəbdəbəli həyata düşkün biri tərəfindən soyulsaq da, səhlənkar biri tərəfindən qayğıdan məhrum edilsək də, bir sözlə, dürüstlüyümüzə görə dinə və müqəddəs şeylərə qarşı hörmətsiz davranan bir şahzadə tərəfindən əziyyət görsək də, ilk növbədə işlədiyimiz günahları xatırlamalıyıq. Çünki, şübhəsiz, Tanrı qarşımıza çıxan bu pisliklərlə bizi cəzalandırmaqdadır. Beləliklə, itaət bizi səbirsizliyimizdən uzaqlaşdıracaqdır. Həmçinin, düşünməliyik ki, pislikləri aradan qaldırmaq bizim vəzifəmiz deyil. Bizim üzərimizə düşən yeganə vəzifə bütün kralların qəlb və iradələri əlində olan Tanrının köməyini istəməkdir”.[70]

105. Qurana görə bir şəxsin nüfuzlu və səlahiyyətli bir məqama, mənsəbə sahib olması onun doğru davranacağı mənasına gəlməz. Düzgün davranmayan kim olursa-olsun, onun bu cür davranışları qəbuledilməzdir.

Güclü kral Firon Həzrət Musanın (ə) sözü müqabilində xalqına belə səslənmişdi:

***“Ey qövmüm! Məgər Misir səltənəti mənim deyilmi? Bu çaylar altımdan (hakimiyyətim altında olan torpaqlardan) axmırmı? Məgər (mənim qüdrətimi) görmürsünüzmü?”***

***“Yoxsa mən bundan, az qala (sözünü belə) aydın başa sala bilməyən bu zavallı (aciz) şəxsdən daha yaxşı (daha üstün) deyiləmmi?” (Zuxruf 43/51-52)***

***Firon dedi: “Buraxın məni Musanı öldürüm; qoy o da Rəbbini çağırsın. Doğrusu, qorxuram ki, birdən o, sizin dininizi dəyişdirər və ya bu torpaqda fitnə-fəsad törədər”.***

---

[70] Jean Calbin, Avropada İslami Düşüncələr Tarixi 2, Yeni Çağ, s.51.

***Musa dedi: "Mən haqq-hesab gününə inanmayan hər bir təkəbbürlüdən həm mənim Rəbbim, həm də sizin Rəbbiniz olan Allaha sığınıram!" (Mömin 40/26-27)***

Çünki Həzrət Musa (ə) lazım olan hər bir xəbərdarlığı etmiş, amma Firon bütün bu xəbərdarlıqlara zülmünü artıraraq cavab vermişdi.

Bütün bu ibrətamiz hadisələr siyasi fəaliyyətlərə qatılıb, səhv davranışlara əngəl olmaq üçün əlindən gələni əsirgəməməyin zərurətini vurğulayır. Amma teokratik quruluş bunu qəbul etmir.

## C- MƏSCİD VƏ TEOKRATİYA

106. İslamda rahiblər sinifi yoxdur. Məscidlər kilsə kimi təşkilatlanmamışdır. Əvvəllər məsciddə vəzifəli imam və müəzzin də yox idi. Camaatdan biri azan oxuyur, imamlığa layiq biri də namaza imamlıq edirdi. Məscidlərin müntəzəm fəaliyyətə başlaması, azanın vaxtlı-vaxtında oxunması, məscidlərin təmizlənməsi, təmiri və əşyasının qorunması kimi ehtiyaclar məscid məmurları, xidmətçiləri kimi kadrların yaranması ilə nəticələnmişdir. Cümə namazı ilə bağlı vəziyyət də buna bənzərdir. Ancaq cümə günü yüzlərlə insanın iştirakı ilə təşkil edilən bir namaza imamalıq və xətiblik etmək bir çox insanın diqqətini cəlb edə biləcəyinə görə bu mövzuda mübahisə və müzakirə predmetinə çevrilə bilər. Bu ehtimalı nəzərə alan Hənəfi məzhəbi cümə namazına bir yaşayış yerinin ən səlahiyyətli insanının, ya da onun təyin etdiyi bir şəxsin imamlıq etməsini şərt saymışdır. Əks təqdirdə ibadət üçün toplanan insanlar arasında ixtilaf yarana bilər.[71]

107. Bir kimsənin müsəlman olması tamamilə öz qərarına bağlıdır. Bunun üçün məscidin və ya hər hansı bir dini təşkilatın təsdiqi şərt deyildir. Vəftizə bənzər bir mərasimdən də söhbət belə gedə bilməz. Çünki İslamda nə bir din xadimi, nə də bir başqa şəxs Allah adına hərəkət edə bilər. Onsuz da Allah müsəlman

[71] Şəmsuddin əs-Sərəxsi, əl-Məbsut, Misir, 1324, c. II, s. 24.

olmaq üçün elə bir düstur müəyyən etmişdir ki, buna heç kim qarışa bilməz. Çünki dinin özəyi imandır. İmanın əsası də ürəkdən qəbul etmək, yəni qəlb ilə təsdiqdir. Qəlbdəki təsdiqi isə bir o insan, bir də Allah bilir. Qəlb insanın ən azad olduğu yerdir. Bu səbəbdən heç kəs bir inancı qəbul etməyə və ya inkar etməyə məcbur edilə bilməz. Uca Allah belə buyurur:

***"Dində məcburiyyət yoxdur; artıq doğru ilə əyri bir-birindən yetərincə ayrılmışdır. Bundan sonra kim zalımları (onların hakimiyyətini) tanımayaraq Allaha inanarsa, qopmayan sağlam bir qulpdan yapışmış olar. Allah (hər şeyi) eşidəndir, biləndir." (Bəqərə 2/256)***

Kilsəyə bənzəyən bir təşkilatı olmayan, din adamlarını ruhani lider deyil, sadəcə dinlə bağlı cəmiyyəti maarifləndirən və onlara nümunə olmağa çalışan insanlar kimi görən bir dinin teokratiyanı qəbul etməsindən söhbət belə gedə bilməz.

## 3- LAİSİZM

108. Laisizm dövlətin dini bir qurumun hakimiyyəti, nüfuzu altında olmaması deməkdir. Bu səbəbdən laisizm ilə teokratiya bir-birinə ziddir.

Kilsənin ilahi hakimiyyət adı altında hərəkət etdiyinə inanıldığına görə bu təşkilat daima kralın, hökümətlərin tərkibinin və əyalətlərin icra hakimiyyəti başçılarının seçilməsi və vəzifəyə təyin edilməsi ilə əlaqədar səlahiyyətlərə malik olduğunu iddia etmişdir[72]. Dövrümüzdə də kilsə seçki üsulu ilə seçilən dövlət xadimlərinə and içdirməklə bu səlahiyyətlərini məhdud çərçivədə də olsa həyata keçirməyə davam edir. Bu səbəbdən teokratiyaya qarşı mübarizədə kilsəni dövlətdən uzaqlaşdırmaq sayəsində müvəffəqiyyət əldə edilmişdir. Fransa tarixi kilsəyə qarşı aparılmış mübarizələrlə zəngindir. Bu ölkədə kilsənin dövlət üzərindəki hakimiyyətini, nüfuzunu aradan qaldırmaq cəhdləri XIV əsrdə başlamışdır.[73]

---

[72] Tümer, Küçük, e.q.ə. s.256.
[73] Böyük Larousse Ensiklopediyası, "Laic" başlıqlı məqalə.

Fransız dilində dini quruluşların hakimiyyətindən asılı olmayan təşkilata laik (laic və ya laique) qurum deyilir.[74] Fransada dini quruluş deyərkən Katolik kilsəsi başa düşülür. Dolayısı ilə bu kilsənin hakimiyyətində olmayan hər bir dövlət qurumu laikdir.

109. Laisizm mübarizəsi dinə qarşı deyil, kilsəyə qarşı aparılmışdır. Belə ki, Fransada Müəssislər Məclisinin üzvləri tərəfindən hazırlanan və Avqust 1789-cu ilin avqust ayında qəbul edilən İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin 10-cu maddəsi fikir azadlığını, 11-ci maddəsi isə ifadə azadlığını tənzimləyirdi. Bu bəyannamə 1791-ci ildə qəbul edilən Fransa Konstitusiyasının giriş hissəsini (preambula) təşkil etmişdi.[75] Sözügedən konstitusiya katolik kilsənin imtiyazlarına son qoymağı, protestant, yəhudi və ya dini mənsubiyyəti olmayan vətəndaşların hüquq bərabərliyinin bərpasını, xüsusilə din və vicdan azadlığı ilə əlaqədar istənilən növ dini görüşə bərabərhüquqlu yanaşmanı qarşısına məqsəd qoymuşdu[76]. Çünki teokratik quruluşda başqa bir din mənsubuna yaşamaq hüququ tanınmazdı. Bu hərəkət dinə qarşı yönəlsəydi, müvəffəqiyyət qazandıqdan sonra insanlara din azadlığı tanınmaz, əksinə, bu azadlıq tamamilə ortadan qaldırılardı.

110. 1948-ci ildə BMT Baş Məclisi tərəfindən qəbul edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi də düşüncə, vicdan və din azadlıqlarını təsdiqləyərək teokratiyanın qarşısını almağa çalışmışdır. Bu maddə də dinə deyil, kilsənin hakimiyyətinə qarşı yönəlmişdir. Bu hərəkat dini sosial və ictimai həyatdan təcrid etmək məqsədini də güdmür. Bu, ümumiyyətlə, ağlasığmazdır. Dindar insan dininin tələbini bir kənara qoyaraq başqa insanların tələblərini icra edə bilməz. İcra etmək məcburiyyətində qalsa da, buna ya gizli, ya da açıq şəkildə

[74] Böyük Larousse Ensiklopediyası, “Laic” başlıqlı məqalə.
[75] Böyük Larousse Ensiklopediyası, “Laic” başlıqlı məqalə.
[76] GRIC (Groupe de Rechercehes İslamo-Chretien = İslam-Xristiyan Araşdırmaları birliyi), Din və Dövlət, İslamochristana, 12, Roma, 1986, s. 49-72. Tərcümə M.Səid Xətiboğlu, İslami araşdırmalar jurnalı, c. III, 3-cü say, Ankara, 1989, s. 102.

qarşı çıxar. Bu da öz növbəsində ictimai asayişin pozulmasına səbəb olur. Sözügedən Bəyannaməsinin 18-ci maddəsində deyilir:

*“Hər kəs düşüncə, vicdan və din azadlığına malikdir; buna hər kəs üçün tək başına, yaxud başqaları ilə birlikdə, istər ictimai, istərsə fərdi qaydada təhsil, tədbir, ibadət, ya da dini mükəlləfiyyətləri həyata keçirərək dinini, yaxud əqidəsini ifadə etmək azadlığı da daxildir”.*[77]

111. Bütün bunlar onu göstərir ki, laisizm dövlətin dini təşkilatların hakimiyyətindən azad olaraq müstəqilləşməsi deməkdir. Yəni laisizm dövlətin bir xüsusiyyətidir.

*Dünyada ən çox müsəlmanın yaşadığı İndoneziya konstitusiyasının 29-cu maddəsi belədir:

“1-ci bənd: Dövlət təkallahlılıq inancına əsaslanır.

2-ci bənd: Dövlət hər bir vətəndaşının din və ibadət azadlığına, öz din və inancına uyğun şəkildə yaşamasına və tətbiq etməsinə təminat verir.

9-cu maddə də eyni zamanda, Başçı və müavini rəsmi olaraq vəzifələrinə başlamadan əvvəl, inandıqları dinə görə and içərlər.*

1982-il tarixli Türkiyə Respublikası Konstitusiyasının 2-ci maddəsi də laisizmi dövlətin bir özəlliyi kimi göstərir. Maddənin mətni aşağıdakı kimidir:

*“Türkiyə Respublikası cəmiyyətin rahatlığı, milli həmrəylik və ədalət anlayışına əsaslanan, insan hüquqlarına hörmət bəsləyən, Atatürk millətçiliyinə bağlı olan, başlanğıc hissəsində şərh edilmiş əsas prinsiplərə söykənən, demokratik, laik (düyəvi) və sosial hüquqi dövlətdir”.*

bir başqa xüsusiyyəti də insan haqlarına hörmətlə yanaşmasıdır.

---

[77] Böyük Larousse Ansiklopediyası, insan maddəsi.İst. 1986.

Konstitusiyanın 24-cü maddəsi hər bir vətəndaşın vicdan, dini etiqad və əqidə azadlığına malik olduğunu təsdiqləyir. 26-cı maddə ilə də fikri açıqlamaq və yaymaq azadlığını təsdiq edir.

Mövzu Quran əsasında dəyərləndirildikdə Quranda din azadlığının dəyişməz əsas müddəalara söykəndiyi görülür.

Dinin əsası imandır. İmanın özəyi də qəlb ilə təsdiqdir. Qəlb insanın daxili dünyasındadır. İnsan burada mümkün olduğu qədər azaddır. Bu səbəbdən heç bir inanc insana zorla qəbul etdirilə bilməz. Din azadlığının təminatçısı Qurandır. Uca Allah belə buyurur:

***“Rəbbin istəsəydi, yer üzərində olanların hamısı inanardı. Elə isə, insanları inanmağa sənmi məcbur edəcəksən?” (Yunus 10/99)***

## 4- DƏYƏRLƏNDİRMƏ

112. Tövratda teokratiyanın dəlili olaraq göstərilən ifadə Həzrət Süleymana (ə) aiddir. Əlimizdəki Tövrata görə Həzrət Süleyman (ə) Allahın elçisi deyil, bir kral olmuşdur.[78]Amma Quran Həzrət Süleymanı (ə) Allahın elçisi kimi təqdim edir.

Tövratda Həzrət Süleymana (ə) aid olduğu bildirilən ifadə belədir: “Oğlum! Rəbbdən və padşahdan qorx, qiyamçılara qoşulma!”[79] Kraldan qorxmaqla bağlı tövsiyə onun zülmündən qorunmaq məqsədini də daşıya bilər. Çünki bu haqsızlığa qarşı bir növ mübarizədir. Necə ki, Quranı Kərimdə kafir və münafiqlərdən qorunmaqla əlaqədar bənzər bir ifadə vardır. Uca Allah buyurur:

***“Əgər səbirli olub qorunsanız, onların hiylələri sizə bir zərər verməz!” (Ali İmran 3/120)***. Qorunma ehtiyacı qorxudan irəli gəlir. Bu səbəblə ayədə “qorunma” deyə tərcümə etdiyimiz “ittiqa” ( اتقاء ) sözü “qorxu” kimi də tərcümə edilir.

[78] Müqəddəs Kitab, Süleymanın məsəlləri, I/1.
[79] Müqəddəs Kitab, Süleymanın məsəlləri, XXIV/21.

“Qiyamçılara qoşulma” ifadəsi də “fitnə-fəsad törədənlərə qoşulma” şəklində izah edildiyi təqdirdə Həzrət Süleymana (ə) aid olduğu ifadə edilən bu söz teokratiyanın dəlili sayılmayacaqdır.

113. İncildəki mətnlərə gəlincə, Paulun və Peterin məktublarının İncilin tərkib hissəsi kimi təqdim edilməsi Qurana görə qəbuledilməzdir. Çünki Qurana görə İncil Allahın kitabı, Həzrət İsa (ə) da elçisidir[80]. Peter və Paul isə sadəcə iki xristiandır. Peter Həzrət İsanın (ə) havarilərindəndir[81]. Paul isə Quranın şərh etdiyi mənada həvari deyildir. Amma xristianlar onu həvarilərdən biri sayırlar[82]. Həzrət İsanın (ə) həvariləri Qurana görə Həzrət Məhəmmədin (s) səhabələri misalındadır.[83]

114. Tövrat, İncil və Quran, Allahın sözlərini ehtiva edən kitablardır. Bunlarda insan sözü olmamalıdır. Amma əlimizdəki Tövrat və İncilə insan sözü qarışdırılmışdır. Bunun ən açıq sübutu Paul və Peterin məktublarıdır. Quranda Allahın sözləri xaricində bir söz belə öz əksini tapmamışdır. Həzrət Məhəmmədin (s) sözləri Quranın xaricindədir və “hədis” adlandırılır. Həvarilər isə Həzrət Əli (r.ə.) və Həzrət Əbu Bəkr (r.ə.) kimidir. Əli (r.ə.) və Əbu Bəkrin (r.ə.) sözlərinə “səhabə sözləri” deyilir. Peyğəmbərin (a.s.) sözləri Quranla eyni səviyyədə qəbul edilə bilməz. Səhabələrin sözləri də Peyğəmbər sözü səviyyəsində ola bilməz. Beləliklə, Peter və Paulun məktubları İncilin bir hissəsi sayıla bilməz. Onların hər biri insan sözüdür.

İncildə Həzrət İsa çarmıxa çəkilib dəfn edildikdən üç gün sonra qəbrindən çıxmış, Qalileyada 11 həvarisinə görünmüş və belə demişdir: “Göydə və yer

---

[80] ***“... Ona (Məryəm oğlu İsaya) haqq yolun göstəricisi və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən İncili qorunanlara doğru yol və nəsihət olaraq verdik”. (Maidə 5/46)***

[81] Bax. Böyük Larousse Ansiklopediyası, Petrus və Pavlos maddələri İst. 1986.

[82] Paul Həzrət İsanı (ə) görməmişdir. Əlimizdəki İncildə Paulun əsil adının Şaul olduğu (Həvarilərin işləri, 13/9), qəti bir xristian düşməni ikən, Şam yolunda anidən göydə parlayan bir nurun ətrafını bürüdüyü, Həzrət İsanın (ə) ona səsləndiyi (Həvarilərin işləri, 9/3-6), sonra onun Hz.İsaya iman gətirdiyi və vəftiz edildiyi (Həvarilərin işləri, 9/18) göstərilir. Buna görə Paul Quranın haqqında söz açdığı həvarilərdən deyildir.

[83] ***“Ey iman gətirənlər! Allahın (dininin və elçisinin) köməkçiləri olun! Necə ki, Məryəm oğlu İsa həvarilərə: “Allah yolunda mənim köməkçilərim kimdir?” – demiş, həvarilər də: “Allahın (dininin və elçisinin) köməkçiləri bizik!” - demişdilər. Nəhayət, İsrail oğullarının bir qismi iman gətirmiş, bir qismi də inkar etmişdi. Amma biz iman gətirənləri düşmənlərinə qarşı dəstəklədik və onlar qalib gəldilər”. (Səff 61/14)***

üzündə bütün səlahiyyət mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, mən dövrün sonuna qədər hər gün sizinləyəm”.[84]

Bu sözlər kilsənin, güclü oluğu dövrdə dövlətlər üzərində hakimiyyətini təmin etmişdir.

Eyni İncilin bir başqa ifadəsinə görə Həzrət İsa (ə) dünyaya hakimiyyət qurmaq üçün deyil, xidmət etmək və həyatını qurban vermək üçün gəlmişdir.[85] Bu, öncəki ifadə ilə ziddiyyət təşkil edir.

Quran Həzrət İsanın (ə) vəfatından sonra dünya ilə əlaqəsinin kəsildiyini və baş verənlərdən xəbərdar olmadığını bildirir.

“Allah, (qiyamət günü) deyəcəkdir: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Məni və anamı özünüzə Allahla yanaşı iki ayrı tanrı bilin!” - demişdin?” O da belə cavab verəcəkdir: “Əsla, haqqım çatmayan bir şeyi demək mənə yaraşmaş; Əgər bunu mən demiş olsaydım, Sən onu mütləq bilərdin; Sən, mənim içimdə olanı bilirsən; mən isə Sənin zatında olanı bilmirəm. Şübhəsiz, qeybləri bilən ancaq Sənsən!

Mən onlara ancaq Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: “Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!” Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Məni vəfat etdirdikdən sonra artıq onlar üzərində nəzarətçi Özün oldun. Şübhəsiz, Sən hər şeyə şahidsən”. (Maidə 5/116-117)

[84] Mattanın nəql etdiyi Müjdənin son cümlələri olan “İsa şagirdlərinə tapşırıq verir” başlıqlı bu hissənin başlanğıcı belədir: “On bir şagird Qalileyaya, İsanın onlara təyin etdiyi dağa getdi. İsanı gördükdə Ona səcdə qıldılar. Bəzisi isə şübhə etdi. İsa yaxaınlaşıb onlara dedi: “Göydə və yer üzündə bütün səlahiyyət mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin; sizə əmr etdiyim hər şeyə riayət etməyi onlara öyrədin. Budur, mən dövrün sonunadək hər gün sizinləyəm”. (Müqəddəs Kitab, Mattanın nəql etdiyi Müjdə, XXVIII/16-20)

[85] “... Beləcə, Bəşər oğlu gəlmədi ki,Ona xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin və çoxlarını satın almaq üçün öz canını fidyə versin”. (Müqəddəs Kitab, Mattanın nəql etdiyi Müjdə, XX/28)

Həzrət Məhəmmədin (s) sözləri Quran ayəsi olmadığı kimi Həzrət İsanın (ə) sözləri də İncil ayəsi deyildir. Həzrət İsanın (ə) vəfatından sonra söylədiyi iddia edilən sözlər onun sözü belə sayıla bilməz. Teokratiya bu sözlər üzərində qurulduğu üçün həqiqi İncilin Quran kimi teokratiyanı qəbul etmədiyi ortaya çıxır.

115. Xristianlar necə Peter və Paulun məktublarına istinad edərək teokratik quruluş təsis etmişlərsə, şiələrin imamiyyə qolu da öz rəhbərlərinin sözlərinə istinad edərək teokratik quruluşa bənzər bir quruluşun müdafiəçiləri olmuşlar. Şiələr imamlarının və müctəhidlərinin sözlərini Allahın sözü hesab etmirlər. Amma bir çoxu onların icrasını Allahın sözü kimi vacib sayar. Gəlin, onların bəzi bəyanatlarına diqqət yetirək:

"İctihad şərtlərini özündə toplamış müctəhid, qeybət (imamın gözdən uzaq olması) dövründə İmam əlehyissəlamın naibidir, mütləq hakim və rəisdir; şəriətə dair hökm vermək və hakimiyyət xüsusunda imamın səlahiyyətinə sahibdir. Onun hökmünü qəbul etməmək İmamın hökmünü qəbul etməməkdir; İmamın hökmünü qəbul etməmək isə Allahın hökmünü qəbul etməmək deməkdir ki, bu da öz növbəsində, Sadiqi Ali-Məhəmməddən (İmam Cəfər əs-Sadiq *tərc.*) rəvayət edilən hədisə görə Allaha şirk qoşmağa bərabərdir".[86]

Sadiqi Ali-Məhəmməd Həzrət Məhəmmədin (s) nəslindən olan dürüst insan deməkdir. Bu şəxs Həzrət Həsən (r.ə.) və ya Həzrət Hüseyn (r.ə.) belə olsa, onların sözləri bizə dəlil ola bilməz. Bu, Peter və Paulun sözlərinə verilən dəyərə çox bənzəyir.

Əhli-sünnə, müctəhid imamlardan heç birinə müqəddəslik tanımır və heç birinin sözünü itaət edilməsi vacib olan bir əmr kimi qəbul etmir.

Məən ibn İsa əl-Qəzzaz İmam Malikdən belə eşitdiyini nəql edir: "Mən sıradan bir insanam, xəta etdiyim də olur, doğrunu tapdığım da. Rəylərimin üzərində

[86] Şiə İnancları, s. 24.

düşünün, Kitab və sünnəyə uyğun olanını qəbul edin, uyğun olmayanını isə bir kənara qoyun”.[87]

İmam Malik tez-tez belə deyərdi: “Bizim fikrimiz zəndən ibarətdir. Dəqiq bir qənaətə gələ bilmərik”.[88]

Əbu Yusif və Həsən bin Ziyad da Əbu Hənifənin belə dediyini nəql edirlər: “Bizim bildiyimiz sadəcə bir rəydir. O, gələ bildiyimiz ən gözəl qənaətdir. Kim bundan daha gözəlini (daha üstününü) gətirərsə, qəbul edərik”.[89]

## NƏTİCƏ

116. Quran teokratik quruluşu heç bir vəchlə qəbul etmir. Teokratiya Allahın səlahiyyətinin kilsəyə həvalə edilməsi və ya kilsə ilə paylaşılması mənasını ifadə etdiyi üçün Qurana görə belə bir davranış şirkdir.

Digər tərəfdən teokratiyada insanların Allaha boyun əydiyi kimi, idarəedicilərə də boyun əyməsi tələb edilir. Onlara itaət Allaha itaət, onlarla müxalifət Allaha qarşı çıxmaq sayılır. Quran bunu da şirk sayır.

117. Bununla yanaşı Quranın tövsiyə etdiyi konkret bir dövlət quruluşu yoxdur. İslamın ümumbəşəri və zamanın fövqündə olması da bunu zəruri edir. Quran dövlətlərdən bir sıra universal müddəaların əsas alınmasını tələb edir. Onlardan bir qismi artıq qeyd edilmişdir. Bu əsas müddəalar elə təməl prinsiplərdir ki, heç bir cəmiyyət onlardan boyun qaçıra bilməz. Heç bir üsuli-idarə də bu xüsusda mübarizə aparan insanların müxalifətini qəbul edə bilməz. Bu da İslamın hər zaman və hər yerdə yaşana bilməsinə imkan verir.

118. İslam alimlərinin siyasi nüfuz sahiblərindən gözlədikləri vəzifələr belə xülasələşdirilə bilər: “Siyasi nüfuz qanunları və cəza tədbirlərini həyata keçirməli, cəmiyyətin ehtiyaclarını təmin etməli, hərbi personalı təchiz etməli,

---

[87] İbnul-Qəyyum əl-Cəvziyyə, Əbu Abdillah Muhamməd b. Əbubəkr (öl h.701)İlamul-muvakkın, c. 1.Beyrut,1987/1407 s. 75.
[88] İbnul-Qəyyum e. q. ə. c.1,s.76.
[89] İbnul-Qəyyum e. q. ə. c.1,s.76.

vergi toplamalı, zülm edənləri, soyğunçuları və qanun pozuntusuna yol verənləri dizə gətirməlidir. İnsanların əqidələrinə uyğun yaşamaq azadlığını təmin etməlidir. Ədliyyə təşkilatının davamlı və müstəqil fəaliyyətini təmin etməlidir. Qazanc və sərvət paylarının balanslı olması üçün tədbirlər həyata keçirməlidir. Müdafiəyə möhtac uşaqların ehtiyaclarının təbii mühit çərçivəsində təmin edilməsi üçün lazımı tədbirləri tədbirləri həyata keçirməlidir. Yoxsullara sosial dəstək göstərməlidir".

*Bunu da ölçü alaraq əlavə etmək lazımdır ki: İslam dini nə şəxsi əlaqədar inanclar səviyyəsinə endirilə bilir nə də zahirdə qurulan şəriət sistemiylə yetinir! Bu din, həm şəxsi məsuliyyətləri həm də ictimai məsuliyyətləri yükləyən bir dindir. Bunu da nə zorla qəbul etdirir nə də ona laqeyd qalır!*

Nəticə olaraq, qeyd etmək lazımdır ki, teokratiya Quranın qəbul etmədiyi bir dövlət quruluşudur. İncilin teokratik quruluşun bərqərar olunmasını əmr edən ifadələri Quran meyarlarına görə həqiqi İncilə aid ola bilməz. Bu mövzu öncəki səhifələrdə izah edilmişdir. Bundan həqiqi xristianlığın da teokratiyanı qəbul etməyəcəyi qənaətinə gəlirik. Laisizm də teokratiyaya qarşı aparılan mübarizənin adı olmuşdur.

*İslam bütün sistemlərin ali və adil formasıdır. Hansı sistem nə qədər ondan faydalanarsa o qədər ali və adil olar. İnsan da belədir: Nə qədər bu ali və adil olana tabe olarsa, o qədər çox Yaradanına və müsəlmanlığa yaxın olur.*